www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 25 may 2017-ci il Cümə axşamı № 111 (6725) Qiymətı 60 qəpik

**Xəbər**

**Bilgəhdə mübahisə qanla bitdi; qəsəbə sakini tanışını güllələdi**

yazısı səh.14-də

**Gündəm**

**Azərbaycan iki düşmən müsəlman ölkəsinin arasında**



Ər-Riyaddakı sammitin pərdəarxası məqamları - İranla Səudiyyənin siyasi davası müharibə ərəfəsində

yazısı səh.3-də

**Rusiya ilə siyasi-diplomatik toqquşma hara qədər davam edəcək...**

yazısı səh.7-də

**Məmurlarımız hansı avtomobildə gəzir...**

yazısı səh.13-də

**Qərblə İslam arasında körpü, yoxsa Bakının yeni İslam konsepsiyası...**

yazısı səh.4-də

**Fransa şirkəti Bakıda mikrorayon tikməkdən imtina edib - ilginc iddia**

yazısı səh.3-də

**Parlament Rəsulzadəyə həqarət edən deputatı cəzalandıracaqmı...**

yazısı səh.5-də

**ABŞ iki dövlətlə müharibə astanasında**

yazısı səh.7-də

**"Güzəştli mənzil sistemi haqqında" Əsasnamə təsdiqləndi**

yazısı səh.2-də

**İŞİD-in silahını Britaniyaya tuşlamasının səbəbləri...**

yazısı səh.9-da

**"Leş ət" mafiyasını durdurmaq olmur - daha bir əməliyyat**

yazısı səh.13-də

**4 nəfərlik ailənin bir günlük imsak və iftar süfrəsi neçəyə başa gələcək?**

yazısı səh.15-də

## İqtidar idarəetmədə yeni düzən planını işə salır

# NAZİR MÜAVİNLƏRİ İXTİSARA DÜŞÜR - SİYAHI

Güc strukturları və Baş Prokurorluq istisna olmaqla, birləşdirilən nazirlik və komitələrdə maksimim iki müavin üçün ştat saxlanılacaq; Bakı Şəhər İcra Hakimiyyətində də rəhbər postlarda ixtisar olacaq; icra başçılarına isə...




yazısı səh.5-də

## İrəvan-Moskva birliyinə qarşı yeni sipər: Bakı-Tiflis-Ankara oxu

Moskva üç paytaxta qarşı əsəb savaşında - mühüm gəlişmə; müdafiə nazirlərinin Batumi görüşü, Azərbaycan prezidentinin Səudiyyə, Türkiyə baş nazirinin Gürcüstana üst-üstə düşən səfərləri... Kreml və marioneti nədən narahatdır?

yazısı səh.8-də



**Tərtərdəki casus şəbəkəsi Səfər Əbiyevin dövründə yaranıb - şok faktlar**

yazısı səh.6-da



*Sərdar Cəlaloğlu:*

**"Rusiyanın budəfəki "Rüstəm İbrahimbəyovu" çox güclü fiqurdur"**

yazısı səh.9-da



*İlham Şaban:*

**"İlin ikinci yarısında ölkədə vəziyyət stabilləşə bilər"**

yazısı səh.10-da

**25 may 2017**

YENİ MÜSAVAT
N 111 (6725) 25 may 2017



## Prezident "Güzəştli mənzil sistemi haqqında" Əsasnaməni təsdiqlədi

**Prezident İlham Əliyev "Güzəştli mənzil sistemi haqqında" Əsasnamənin təsdiq edilməsi barədə fərman imzalayıb.**

APA-nın məlumatına görə, Nazirlər Kabinetinə tapşırılıb ki, Azərbaycan Respublikası Prezidentinin aktlarının bu Fərmana uyğunlaşdırılmasına dair təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin, Nazirlər Kabinetinin normativ hüquqi aktlarının bu Fərmana uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin, mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının bu Fərmana uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin, fərmandan irəli gələn digər məsələləri həll etsin.

Ədliyyə Nazirliyinə mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların bu fərmana uyğunlaşdırılmasını təmin edib Nazirlər Kabinetinə məlumat vermək, Azərbaycan Respublikasının Prezidenti yanında Mənzil İnşaatı Dövlət Agentliyinə isə fərmandan irəli gələn məsələləri həll etmək tapşırılıb.

## Ən az yatan peşə sahibləri

**"The Guardian" Almaniyada "Frankfurter Allgemeine Zeitung" qəzetinin sifarişi ilə Berlində mənzillənmiş İqtisadi Tədqiqatlar İnstitutunun apardığı araşdırmadan yazır.**

Bu araşdırma zamanı 100-dək peşə sahibindən kimlərin nə qədər yuxu yatdığı aşkar edilib.

Məlum olub ki, ən az yatanlar mühafizə xidmətlərinin əməkdaşlarıdır. Eyni sözü sifarişlə ünvanlara bağlama aparan kuryerlərə və çörəkçilərə də aid etmək olar. Onlar gecələr 6 saatdan daha az yatırlar.

Bəs elə isə yorğunluğunu ən yaxşı çıxaranlar kimlərdir? Araşdırma göstərib ki, mağaza satıcıları gecələr 7 saat 10 dəqiqə yatırlar. Jurnalistlər və aktyorlar da yuxularını yaxşıca alırlar.

Britaniyada Kral İctimai Sağlamlıq Cəmiyyətinin apardığı araşdırma göstərib ki, Birləşmiş Krallıqda adamlar gecələr orta hesabla 6, 8 saat yatırlar. Norma sayılan 7 saatdan o qədər də az deyil. Hərçənd rəyi soruşulanların əksəriyyəti 7, 7 saat yuxuya ehtiyaclarının olduğunu bildirib.

Amerikada Xəstəliklərə Nəzarət və Onların Profilaktikası Mərkəzlərinin 29 ştatda 180 min adamın arasında apardığı sorğu göstərib ki, rəyi soruşulanların 36, 5 faizi kifayət qədər yuxu almadığından gileylənir.

Bu rəqəm kommunikasiya texnologiyaları işçiləri üçün 58, 2 faizdir. Müqayisədə istehsalatda çalışanlar, məsələn, qida emalı və poladəritmə zavodlarının işçiləri daha az yatırlar.

"The Guardian" yazır ki, bütün bunlar qlobal miqyasda maaşların düşdüyü bir vaxtda, yuxudan məhrumiyyətin də artdığını göstərir.

"Lakin gecələr beş saatdan da az yatan peşə sahibləri var! Hansı peşədir o? "Ana" peşəsi" - deyə, qəzet yazır. (BBC).

**"Qaya Mətbuat Yayımı" MMC!**

**- İstənilən qəzet və jurnallar həm də sərfəli qiymətə:**

- Əgər siz qəzet və jurnalların rahatlıqla evinizə və ya ofisinizə çatdırılmasını;
- Mətbuatı aldıqdan sonra abunə haqqını ödəmək və bu ödənişin formasını sərbəst seçmək hüququndan istifadə etmək;
- Tirajınızda lazım gəldikdə dəyişikliklər etmək;

**Ən başlıcası ayda 26 dəfə nəşr olunan "Yeni Müsavat" - 0.60 AZN və bundan əlavə 2500 adda yerli və xarici nəşrlər.**

- Abunə yazılmaq üçün uzağa getmək lazım deyil.

**Telefonla zəng etməyiniz kifayətdir: Bakı şəh. 564-63-45; 598-35-22**

- Respublikanın digər böyük şəhərlərinə də abunə qəbul olunur.

# "Azərbaycanın beynəlxalq arenada qazandığı nüfuzlu mövqedən qürur duyuruq" - Ərdoğan

## Respublika Günü ilə bağlı prezident İlham Əliyevə çoxsaylı təbrik məktubları gəlir

**Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan Azərbaycan prezidenti İlham Əliyevi 28 May-Respublika Günü münasibətilə təbrik edib.**



APA-nın məlumatına görə, Ərdoğanın məktubunda deyilir:

"Hörmətli cənab Prezident, əziz Qardaşım. Azərbaycanın milli bayramı - Respublika Günü münasibətilə Zati-alinizi və Sizin simanızda bütün Azərbaycan xalqını ən səmimi hisslərimlə təbrik edirəm. Qardaş Azərbaycanın müstəqilliyinin bərpasından ötən müddətdə bütün sahələrdə əldə etdiyi uğurları yüksək qiymətləndirərək izləyir, beynəlxalq arenada qazandığı nüfuzlu mövqedən qürur duyuruq. Mən əminəm ki, Sizin qətiyyətli və uzaqgörən rəhbərliyinizlə Azərbaycan gələcəkdə daha mühüm nailiyyətlər qazanacaq.

Ölkələrimiz arasındakı əlaqələrin hər sahədə daha yüksək müttəfiqlik səviyyəsinə yüksəlməsindən məmnunluq duyuruq. Ortaq tarix, mədəniyyət və ənənələrlə sıx şəkildə bir-birinə bağlı olan xalqlarımız arasındakı əməkdaşlığın güclü münasibətlərimiz sayəsində hər sahədə daha da dərinləşərək gələcəkdə də uğurla davam etdiriləcəyinə heç bir şübhəm yoxdur. Fürsətdən istifadə edərək, Zati-aliləri, Sizə - əziz Qardaşıma bir daha möhkəm cansağlığı və xoşbəxtlik, dost və qardaş Azərbaycan xalqına isə əmin-amanlıq və rifah diləyirəm".

Qeyd edək ki, Roma Papası Fransisk, Böyük Britaniya və Şimali İrlandiyanın Kraliçası Ülyahəzrət II Elizabet, Belarus prezidenti Aleksandr Lukaşenko, Pakistan İslam Respublikasının prezidenti Məmnun Hüseyn, Bolqarıstan prezidenti Rumen Radev, Qazaxıstan prezidenti Nursultan Nazarbayev, İtaliya prezidenti Sergio Mattarella, Türkmənistan prezidenti Qurbanqulu Berdiməhəmmədov, Hindistan prezidenti Pranab Mukherci və Qırğızıstan prezidenti Almazbek Atambayev və digər dövlət başçıları da Azərbaycan prezidenti İlham Əliyevi 28 May-Respublika Günü münasibətilə təbrik edib.

## SOCAR İrandakı layihələrdə iştirak etmək üçün razılıq alıb

**SOCAR İranın "E&P Companies" şirkətinin tərəfdaşları siyahısına əlavə olunub. Bunu APA-ya eksklüziv açıqlamasında İranın neft nazirinin beynəlxalq məsələlər üzrə müavini Əmirhüseyn Zamaniniya bildirib.**

Nazir müavini bildirib ki, müvafiq müraciət ötən ay SOCAR tərəfindən daxil olub: "SOCAR ötən ay İrandakı layihələrdə iştirak etmək üçün müraciət edib. Şirkətin müraciətinə baxılıb və ona müsbət cavab verilib. Beləliklə, SOCAR "Shell", Total" kimi nəhəng şirkətlərlə paralel İrandakı layihələrdə iştirak edə və ölkəmizə sərmayə yatıra bilər. Biz SOCAR-ı ciddi oyunçu kimi qəbul edirik. SOCAR İrandakı ciddi layihələrdə iştirak etmək üçün böyük potensiala malikdir. Bu səbəbdən də onun müraciətinə müsbət cavab verilib".

**Onun sözlərinə görə, SOCAR İranda həm qazma, həm də emal sahəsində reallaşdırılan layihələrdə iştirak edə bilər:** "SOCAR-a potensial layihələr təklif olunub və şirkət özü həmin layihələri seçməlidir. Başqa sözlə, biz seçimi SOCAR-ın ixtiyarına buraxmışıq. Bizdə olan məlumata görə, SOCAR layihələrlə bağlı araşdırma aparır".



## Yol polisinin avtomobilləri evakuatorla aparmasına dair yeni qayda müəyyənləşdi

**Azərbaycanda qanunla müəyyən edilmiş hallarda Yol-patrul xidməti (YPX) inspektoru tərəfindən evakuatorun (təxliyyə avtomobili) tətbiqinə dair yeni qayda müəyyənləşdirilib.**

APA-nın məlumatına görə, bu, Daxili İşlər Nazirliyinin Kollegiyasının qəbul etdiyi və mayın 19-da qüvvəyə minmiş "Yol-patrul xidməti haqqında Təlimat"ında əksini tapıb.

YPX inspektoru tərəfindən evakuator (təxliyyə avtomobili) aşağıdakı qaydada tətbiq edilir:

- dayanma və ya durma qaydaları pozulmaqla küçə və yollarda tıxac yaratmış və digər nəqliyyat vasitələrinin və piyadaların hərəkətinin mühüm dərəcədə məhdudlaşdırılmasına səbəb olmuş nəqliyyat vasitəsinin mühafizə olunan duracağa aparılması məqsədilə istifadəsində olan bort-kompüter vasitəsilə inzibati xəta törətmiş şəxsin iştirakı olmadan foto və ya video çəkiliş aparılmaqla nəqliyyat vasitəsinin istifadəçisi barədə inzibati xəta haqqında protokol tərtib edir;
- YPX inspektoru radio-cihaz vasitəsilə qayda pozuntusu barədə növbətçi hissəyə məlumat verir və həmin yerə evakuator çağırır. Evakuatorun tətbiq edilməsi ilə bağlı məlumatlar "Evakuatorla təxliyyə olunan nəqliyyat vasitələrinin qeydiyyatı jurnalı"nda qeydə alınır;
- YPX inspektoru "Nəqliyyat vasitəsinin duracağa göndəriş vərəqəsi"ni doldurur (avtomobilin banında görünən zədələr və nəqliyyat vasitəsinin sahibinin məlumatlandırılması üçün görülmüş tədbirlər barədə göndəriş vərəqəsində qeydlər etməklə) və evakuatorun heyətinə təqdim edir;
- göndəriş vərəqəsinin əsasında evakuatorun heyəti nəqliyyat vasitəsini duracağa aparır.
- Nəqliyyat vasitəsinin evakuatora yüklənməsi əməliyyatı başlandıqda, habelə nəqliyyat vasitəsi yükləndikdən sonra.

## Müəllimlərin dərs bölgüsü zamanı diaqnostik qiymətləndirmənin nəticələri əsas götürüləcək

**Növbəti tədris ilində Azərbaycanda müəllimlərin dərs yükünün müəyyənləşdirilməsi zamanı onların diaqnostik qiymətləndirmədə göstərdikləri nəticələr əsas götürüləcək.**

Təhsil Nazirliyinin İnsan resursları şöbəsinin müdir müavini Eşqi Bağırov APA-ya açıqlamasında bildirib ki, müəllimlərin dərs saatları onların imtahanda göstərdikləri nəticələrə uyğun olaraq müəyyənləşəcək. Onun sözlərinə görə, hər bir təhsil müəssisəsində dərs yükü keyfiyyət göstəricisinə görə müəyyən olunmalıdır.

E.Bağırov qeyd edib ki, imkan daxilində göstəriciləri yüksək olan müəllim daha çox dərs yükü ilə təmin edilməlidir: "Əgər məktəbdə 100 saatlıq dərs yükü varsa, 5-6 müəllim arasında daha yüksək bal toplayan savadlı müəllimə daha çox, zəif nəticə göstərənə isə az dərs verilməlidir. Müəllimlərin dərs yükü hər tədris ilinin əvvəlində-sentyabr ayında müəyyən edilir və xüsusi hallar istisna olmaqla, il ərzində sabit qalır. Yeni tədris ili üçün sentyabr ayında məktəblərdə müəllimlərin dərs bölgüsü aparılarkən onların diaqnostik qiymətləndirmədəki nəticələri əsas götürüləcək. Bu vaxta kimi proses diaqnostik qiymətləndirmənin keçirildiyi bəzi rayonlarda, müəyyən məktəblərdə tətbiq edilirdi. Ancaq diaqnostik qiymətləndirmə ötən il hər yerdə keçirilməmişdi. Bu tədris ilində isə ölkə üzrə bütün müəllimlərin diaqnostik qiymətləndirmədən keçirilməsi tam başa çatacaq və yeni dərs ilindən bu proses hər yerdə qaydalara uyğun olmalı, bütün müəllimlərə şamil edilməlidir".

## Bakı bulvarında faciə: dənizdən çıxarıb dəlixanaya apardılar

**Bakıda 21 yaşlı oğlan özünü dənizə atıb. Lent.az xəbər verir ki, hadisə Dənizkənarı Milli Park ərazisində - Neftçilər prospekti 49 ünvanının qarşısında baş verib. Lənkəran rayon sakini olan 1996-cı il təvəllüdlü Ülvi Şıxbabayev (ad və soyad şərtidir) özünü dənizə atıb.**

Parkın mühafizəçiləri onu xilas edərək təcili tibbi yardım briqadasına təhvil verib. Lakin burada məlum olub ki, intihara cəhd edən gəncin ciddi psixi porblemləri var və ona yerindəcə sakitləşdirici vurulub. Daha sonra əraziyə cəlb edilmiş psixiatrik briqada gənc oğlanı ruhi-əsəb xəstəxanasına aparıb.

Faktla bağlı araşdırma aparılır.

YENİ MÜSAVAT
N 111 (6725) 25 may 2017

**Mayın 21-də Səudiyyə Ərəbistanının paytaxtı Ər-Riyad şəhərində Ərəb-İslam-Amerika Sammiti keçirildi. ABŞ prezidenti Donald Trampın da iştirak etdiyi sammitdə 50-dən artıq ölkənin hökumət və dövlət başçıları, rəsmi təmsilçiləri iştirak edib. Tədbirdə Azərbaycan prezidenti İlham Əliyev də iştirak edib və sammit "Birlikdə güclüyük" devizi altında keçirilib.**

# Azərbaycan iki düşmən müsəlman ölkəsinin arasında

## Ər-Riyadakı sammitin pərdəarxası məqamları - İranla Səudiyyənin siyasi davası müharibə ərəfəsində

Sammitin dünyada terrorizm və ekstremizm hallarının qarşısının alınması, dayanıqlı sülhün təmin edilməsi məqsədilə keçirildiyi bəyan olunub. Eyni zamanda bu toplantı Amerika-İslam dünyası əlaqələrində də mühüm mərhələ kimi xarakterizə olunub. ABŞ prezidenti Tramp müsəlman ölkələrini terror və ekstremizmlə mübarizəyə çağırıb. Toplantı iştirakçıları dinlərarası münaqişəyə son qoyulmasının da önəmini vurğulayıblar. Bu formatda ilk dəfə keçirilən tədbirin ekstremizm, terror və radikalizmə qarşı olduğu vurğulansa da, həm təşkilatçı ölkə olan Səudiyyə Ərəbistanı kralı, həm də ABŞ prezidenti əsas vurğunu İran üzərində ediblər. ABŞ prezidenti deyib ki, İran beynəlxalq terrorizmi dəstəkləyir. Tramp Suriya olaylarında İranı ittiham edərək, Tehranı bölgədə dağıdıcı fəaliyyətləri dəstəkləməkdə ittiham edib.

Oxşar fikirləri Səudiyyə Ərəbistanı kralı da səsləndirib, İranı məzhəb bölücülüyü aparmaqda günahlandırıb. İran XİN isə bu iddiaların bölgədə "İranofobiya" yaymağa xidmət etdiyini və bununla da bölgə ölkələrinə daha çox silah satmaq məqsədi güddüyünü bəyan edib. Eyni zamanda İran XİN ABŞ-ın terrorçulara silah verməyi dayandırmağa çağırdıqlarını bildirib.

Bölgə mütəxəssisləri də hesab edir ki, Trampın Səudiyyə Ərəbistanına gedərək bu ölkə ilə 350 milyard dollarlıq silah satışı müqaviləsi imzalaması, daha sonra müsəlman ölkələrinin demək olar ki, hamısının iştirakı ilə genişmiqyaslı toplantı keçirərək İranı hədəfə alması istər-istəməz bu toplantının əsas hədəfinin və ya hədəflərindən birinin İran olduğunu deməyə əsas verir. Məsələ ondadır ki, 57 müsəlman ölkəsindən yalnız İran, Livan və Sudan Ər-Riyad toplantısına dəvət olunmayıb. Sudan prezidenti Ömər Əl-Bəşir barəsində Beynəlxalq Haaqa Tribunalının axtarış qərarı olması səbəbindən amerikalılar onun Trampla eyni tədbirdə iştirak etməsinə qarşı çıxıblar. Livan prezidenti Mişel Aun isə Hizbullaha dəstək verdiyi üçün Ər-Riyada dəvət olunmayıb. İran isə nəinki dəvət olunmayıb, üstəlik, əsas hədəf göstərilib. Diqqətçəkən odur ki, İran hazırda körfəz ərəb ölkələri, ən əsası da Səudiyyə ilə düşmən münasibətlərinə malikdir. Bir çoxlarına görə, Amerikanın bu qədər böyük həcmdə silah satmasının əsas səbəblərindən biri də regionda İran təhdididir. Silah satışı ərəb ölkələrinin ordularının silah və texniki imkanlarını gücləndirməklə yanaşı, onlar üçün bir Amerika təhlükəsizlik təminatı anlamına gəlir.



Ər-Riyad toplantısının əsas hədəflərindən biri də 18 ölkənin birləşdiyi hərbi koalisiyanın 35 minlik ordunun yaradılması olub. Bununla bağlı artıq müvafiq mərasim keçirilib və qərar elan olunub. Qeyd edək ki, bir çoxlarına görə, bu sammit Yaxın Şərqdə yeni cəbhələşmə olub. Baxmayaraq ki, ənənəvi cəbhələşmə artıq bir neçə ildir mövcuddur.

Toplantıda Azərbaycan prezidenti də iştirak edib. Azərbaycanın hələlik yeni hərbi alyansa qoşulması ilə bağlı məlumat olmasa da, Azərbaycan prezidentinin Ər-Riyada getməsinin İranla münasibətlərə zərbə vuracağı, hətta İranın təzyiqləri ilə üzləşə biləcəyimiz haqqında şərhlərə səbəb olur. Əlbəttə, Azərbaycan hazırda Yaxın Şərqdə son illərdə formalaşan bloklaşmanın iki aktiv üzvü ilə yaxın qonşudur. Şimal qonşumuz Rusiya və cənub qonşumuz İran Yaxın Şərqdə Qərb və onun yerli müttəfiqlərinə qarşı cəbhənin aparıcı ölkələridir. Azərbaycanın dövlət başçısının bu mənada Ər-Riyada getməsi riskli addım hesab oluna bilər. Təbii ki, Bakıda da bunu yaxşı bilirdilər. Amma İ.Əliyevin bütün bunları gözə alaraq "Ərəb-İslam-Amerika" Sammitinə qatılmasının bir sıra səbəbləri ola bilər. Bu səbəbləri aşağıdakı kimi sıralaya bilərik.

**Birincisi,** Azərbaycan toplantıya, sadəcə, müşahidəçi qismində qatılıb və bu prosesin aktiv fazasında iştirak etməyəcəyini büruzə verib. Baxmayaraq ki, son zamanlarda tez-tez Bakının da "İslam Ordusu" Alyansına qatılacağı ilə bağlı xəbərlər intensivləşib. Amma rəsmi Bakı bu xəbərləri təkzib edir. Bu vəziyyəti təbii ki, ərəblər də yaxşı anlayır, çünki İran və Rusiyanın arasında yerləşən Bakını zərbə altında qoymaq olmaz.

**İkinci səbəb** siyasi-diplomatikdir. Azərbaycan uzun illər Ermənistanla əlaqə qurmayan, bütün beynəlxalq tədbirlərdə Azərbaycanın mövqeyini müdafiə edən Səudiyyə Ərəbistanı rəhbərliyinin çağırışını boş qaytara bilməzdi. Çünki S.Ərəbistanı ərəb-müsəlman aləmində nüfuzlu və ciddi təsiri olan ölkədir, Azərbaycan kimi dövlətin onunla düşmənçilik xətti tutması faydalı olmazdı. Yəni həm bir qarşılıqlı yaxşılıq və ərəb dünyasından təcrid olmamaq üçün Azərbaycan rəhbərliyi Ər-Riyada getdi.

Üçüncü mühüm amil iqtisadi səbəbdir. Məlumdur ki, neft qiymətləri düşdükdən sonra Azərbaycan hökuməti ciddi maliyyə sıxıntıları yaşayır. Qərb maliyyə institutları isə Bakıya o qədər də həvəsli borc vermir. Verilən borcların da ciddi şərtləri olur. Amma bunun əvəzinə həm ərəb fondları, həm də İslam İnkişaf Bankı daha səxavətlidir və güzəştli borclar vermək iqtidarındadır. Azərbaycan hakimiyyəti Türkiyə təcrübəsindən çıxış edərək ölkəyə ərəb sərmayəsini cəlb etmək istəyir. Bunun üçünsə ilk növbədə ərəb siyasi dairələri ilə müsbət əlaqələr qurulmalıdır.

Təbii ki, Ər-Riyada səfərin başqa bir səbəbi də Qərbə yaxınlaşmaq, İranın təsirinə qarşı bir mənada balans yaratmaqdır. Ancaq hər bir halda Bakının indi İranla da münasibətləri normaldır, Rusiya, İran və Azərbaycan ortaq layihələr həyata keçirirlər. Yəni Ər-Riyada getməmişdən öncə Azərbaycan rəhbərliyi bu səfərin mümkün reaksiyasını hesablamamış ola bilməzdi.

İstənilən halda Azərbaycan hakimiyyəti bu cür həssas məqamları nəzərə alaraq zərgər dəqiqliyi və şahmat ustalığı göstərməlidi. Əks halda, böyük və təhlükəli dövlətlərin təzyiqi və təhdidi ilə üzləşə bilərik.

❑ **Kənan RÖVŞƏNOĞLU**

# Fransa şirkəti Bakıda mikrorayon tikməkdən imtina edib - ilginc iddia

## Akif Əli: "Danışıqlar aparılır"

**Bu ilin ikinci yarısında Bakının Nəsimi rayonu ərazisində yerləşən 1-ci mikrorayonun hissə-hissə sökültüsünə başlanılacağı planlaşdırılıb. "Xruşşovka" kimi tanınan, müvəqqəti yaşayış üçün nəzərdə tutulan, istismar müddətini başa vurmuş iripanelli yaşayış binaları söküləcək ərazidə yenidənqurma işləri aparılacaq.**

Martın 10-da baş nazir Artur Rasizadə Bakı şəhərinin 1-ci mikrorayonunun yenidən qurulması ilə əlaqədar tədbirlər barədə qərar da imzalayıb. Fövqəladə Hallar Nazirliyinə tapşırılıb ki, "Pilot layihə" kimi, 1-ci mikrorayonda qəzalı vəziyyətdə olan, "Xruşşovka" kimi tanınan yaşayış binalarının və həmin mikrorayonun ərazisindəki digər yaşayış və qeyri-yaşayış təyinatlı tikililərin sökülərək yerində yeni binaların tikilməsi üçün plan hazırlasın. Həmçinin işlərin icrasını özündə əks etdirən Tədbirlər Planının layihəsini hazırlayaraq, Dövlət Şəhərsalma və Arxitektura Komitəsi, Əmlak Məsələləri Dövlət Komitəsi və Bakı Şəhər İcra Hakimiyyəti ilə razılaşdırmaqla, təsdiq edilməsi üçün 15 gün müddətində Nazirlər Kabinetinə təqdim etsin.




Fövqəladə Hallar Nazirliyinin (FHN) Tikintidə Təhlükəsizliyə Nəzarət Dövlət Agentliyinin rəis müavini Elxan Əsədov deyib ki, 1-ci mikrorayonun yenidən qurulması ilə əlaqədar tədbirlər barədə qərara əsasən, köhnə 5 və 9 mərtəbəli yaşayış binalarının sökülməsi və onların yerində yeni yaşayış binalarının inşa edilməsi nəzərdə tutulub. Evləri söküləcək insanlara sonradan yeni binalarda veriləcək mənzillərin sahəsi əvvəlki mənzillərlə müqayisədə 10 faiz artıq olacaq. Söküntü-tikinti işləri aparılan zaman vətəndaşların kirayədə qalmaları üçün onlara kompensasiya da veriləcək.

Ərazidə ümumilikdə 34 binanın sökülməsi, 1729 ailə köçürülməsi nəzərdə tutulub.

Məlumata görə, bu ərazinin tikintisinə podratçı kimi Fransa şirkətini seçilibmiş. "Yeni Müsavat"a daxil olan məlumata görə, bir müddət əvvəl danışıqlar aparılmış Fransa şirkəti tikintidən imtina edib. Bu səbəbdən də ərazidə söküntü işlərinin başlanılması iyun-iyul aylarına planlaşdırılsa da, qeyri-müəyyən vaxta təxirə salınıb.

**Məsələ ilə bağlı məlumat almaq üçün Fövqəladə Hallar Nazirliyinin mətbuat xidməti ilə əlaqə saxladıq. Nazirliyin mətbuat xidmətinin rəhbəri Oqtay Bayramov "Yeni Müsavat"a bildirdi ki, Fransa şirkəti ilə razılıq barəsində hər hansı bir məlumata sahib deyil:** "Lakin mən mayın 23-də Tikintidə Təhlükəsizliyə Nəzarət Dövlət Agentliyinin rəis müavini Elxan Əsədovla 1-ci mikrorayonda aparılan işlər barəsində danışmışam. O, məlumat verdi ki, bütün müvafiq sənədlər Nazirlər Kabinetinə göndərilib. Həmin sənədlər orada təsdiq olunub gələnə qədər gözləyəcəklər. Sənədlər təsdiqləndikdən sonra isə işlər başlayacaq".

**Nazirlər Kabinetinin mətbuat xidmətinin rəhbəri Akif Əli də bildirdi ki, bu barədə konkret məlumata sahib deyil:** "Hansısa tədbirdə və ya digər formada bu barədə heç bir açıqlama verilməyib. Danışıqlar aparılır. Bununla bağlı konkret açıqlama verilməyibsə, mən də heç nə deyə bilmərəm. Ola bilər ki, vəziyyət siz dediyiniz kimidir. Ancaq qeyd etdiyim kimi, bu barədə bizdə heç bir məlumat yoxdur".

Onu da qeyd edək ki, Fransa şirkətlərinin Azərbaycanda tikinti sahəsində müəyyən işləri olub. Fransa Xarici İşlər və Beynəlxalq İnkişaf Nazirliyinin Kontinental Avropa İdarəsinin rəisi Florans Manjen Azərbaycan xarici işlər nazirinin müavini Xələf Xələfovla görüşü zamanı bildirmişdi ki, Fransa Azərbaycanda metronun yenidən qurulması işində əməkdaşlıqda maraqlıdır.

❑ **Əli RAİS**

YENİ MÜSAVAT
N 111 (6725) 25 may 2017



# Rusiyanı indi tanıdıqmı?

Hüseynbala SƏLİMOV

**Rusiyada məhkəmənin Ümumrusiya Azərbaycanlıları Konqresinin bağlanması ilə bağlı qərarına haqlı iradlarımızda həm də anlaşılmaz bir məqam var.**

Məsələ bundadır ki, təkcə son bir ildə Rusiyanın Azərbaycana qarşı atdığı addımların bir çoxu heç də Konqresin bağlanmasından geri qalmır və kifayət qədər hiddət doğuran hadisələr idi.

Biz isə özümüzü elə aparırıq ki, sanki bu illər ərzində Rusiya Dağlıq Qarabağın işğalının iştirakçısı və bu işğalın əsas havadarı olmayıb, sanki bu illər ərzində Rusiya Azərbaycanın daxili və xarici siyasətini özünə sərf edəcək dərəcədə məhdudlaşdırmağa, Azərbaycanın bir müstəqil ölkə kimi oturuşmasına, öz milli maraqlarına cavab verən geosiyasi və siyasi seçim etməsinə mane olmağa cəhd etməyibdir.

Elə davranırıq ki, sanki Konqresin bağlanması haqda qərar böyük bir anlaşılmaz təsadüfdür və yaxud da Rusiyaya heç bir aidiyyəti olmayan hansısa "kənar qüvvə"lərin məkrli planlarının acı nəticəsidir...

Yox, belə deyil, nə anlaşılmazlıqdır, nə də təsadüfdür bu! Rusiyadakı ermənilərin məkrli siyasətinin nəticəsi də deyil, elə Rusiyanın özünün siyasətidir, çünki kiçik bir xalqın on illərlə böyük bir dövlətin boynuna ip salıb öz maraqları üçün ora-bura sürüməsini günah etmək ən azı gülünc bir işdir.

Adam bilirsiniz, nəyə təəccüblənir? Bizim rəsmilərin giley və inciklik dolu açıqlamalarına! "Biz Rusiya üçün belə etdik! Onu etdik, bunu etdik! Amma Rusiya durub bizim Konqresimizi bağladı!" - deyirlər.

Doğrusu, belə "sadəlövhlük"dən lap bayılmaq dərəcəsinə gəlirsən! Hərçənd, bizim rəsmilər elə də sadəlövh insanlar deyillər, iş ölkənin öz daxilinə, öz cəmiyyəti ilə necə davranmağa gələndə bunlarda heç insaf-mürvət qalmır, kiçik etiraza, kiçik yadfikirliliyə elə münasibət sərgiləyir, elə reaksiya göstərirlər, adam yerində quruyub qalır...

Rusiyaya gəldikdə isə özlərini elə aparırlar ki, guya, dostumuz cənab V.Putinin Konqreslə bağlı qərardan heç yerli-dibli xəbəri yoxdur. Halbuki yaxşı yadıma gəlir ki, həmin Putin Rusiyadakı azərbaycanlıların ildə öz ölkələrinə, daha doğrusu, ailələrinə nə qədər pul göndərdiyini hesablayan ilk Rusiya rəhbəri oldu. İndi nə olub? Rusiya rəhbərini və bu ölkənin siyasətini heç tanıyıb-bilməmişikmi?

Demirəm, yaba götürüb Rusiya ilə vuruşaq. Yox, buna qətiyyən ehtiyac yoxdur. Ötən dəfə də yazdım ki, Konqres məsələsindən ifrat dramatik olay düzəltməyə ehtiyac yoxdur. Soyuq başla, təmkinlə bu işi yoluna qoymalıyıq. Rusiyadakı azərbaycanlılardan da çox şey asılıdır. Onların çoxu Rusiya vətəndaşıdır və öz haqlarını müdafiə etmək üçün Avropa Məhkəməsinə qədər gedə bilərlər.

Təbii, biz də bütün ictimai-siyasi və diplomatik resurslarımızı işə salmalıyıq. Azərbaycanın Rusiyadakı səfirliyinin işi gücləndirilməlidir.

Konqres olayı baş verəndə Rusiyadakı səfirliyimizi də qınamaq cəhdləri oldu. Həmin iradları bölüşməsək də bir məsələ ilə biz də razıyıq: ölkələr arasında münasibətlərdə səfirliyin rolu az deyildir.

Ən azı hər hansı bir olayla bağlı səfirlik ölkəsini vaxtında məlumatlandırmalı və necə hərəkət etməklə bağlı ölkəsindən tapşırıq və direktivlər almalı, özləri də ölkə rəhbərliyinə müəyyən tövsiyələr verməlidirlər.

Ona görə də mən ümüdliyəm ki, Konqreslə bağlı məsələ həllini tapacaqdır. Məni başqa məsələ narahat edir. O da təbii ki, Qarabağ və onun ətrafında yaranmış üzücü diplomatik pauzadır.

Əslində "pauza" da demək olmur. Ona görə ki, rusiyalı diplomatlar özlərinin ermənipərəst bəyanatları və hətta replikaları ilə bizləri, necə deyər, darıxmağa qoymurlar.

Baxın, Rusiyanın ötən ilki diplomatik fəallığı elə ötən ilin ilk aylarında qaldı. Sanki Rusiyanın ötən ilki fəallığı ondan ötrü imiş ki, atəşkəs haqda müqavilə daha bir müddətə uzadılsın. Bunu etdilər, Moskvada atəşkəslə bağlı daha bir razılaşma oldu.

Bununla sanki hər şey bitdi. Daha doğrusu, bitmədi, sadəcə, Rusiya yenidən dönüb əvvəlki Rusiya oldu - erməniləri əzizləyib-oxşadı, çörək olmasa da, bol silah-sursat verdi onlara, "İsgəndər"ləri İrəvan küçələrinə çıxarıb erməniləri təzədən qudurtdu.

Bəli, narahatlıq yaradan bunlardır. Biz də daha çox bu haqda düşünməliyik. Özümüzü elə göstərməyək ki, Rusiyanı heç tanımırıq. Elə davranmayaq ki, guya, bütün bunlar qorxulu bir röyadır...

Yox, röya deyil. Sadəcə, gözlərimizi bir az geniş açaq - oyanmaq vaxtıdır, dostlar...



# Qərblə İslam arasında körpü, yoxsa Bakının yeni İslam Konsepsiyası?

## Ortada yeni bölücülük planları var və sivilizasiyalararası toqquşmalar davam edəcək; **deputat:** "Bakı diplomatik mərkəz kimi fərqli dinlərin və millətlərin vahid bir ünsiyyət məkanına çevrilməkdədir..."

**"IV İslam Həmrəyliyi Oyunlarının yüksək səviyyədə keçirilməsi ölkəmizin gücünü göstərir". Bunu Azərbaycan prezidenti İlham Əliyev İslamiadanın qalibləri və onların məşqçiləri ilə keçirilən görüşdə deyib. Dövlət başçısı bildirib ki, oyunların keçirilməsi ilə bağlı artıq Azərbaycan standartları tətbiq olunub.**

İ.Əliyevin sözlərinə görə, bu gün Azərbaycan inkişaf edən müasir mütərəqqi güclü dövlət kimi tanınır və idmançıların uğurları bunu bir daha təsdiq edir. "Oyunların əsas məqsədlərindən biri dostluğun, əməkdaşlığın gücləndirilməsi idi. Biz də buna nail olduq" deyən Azərbaycan prezidenti ölkəmizin müsəlman aləmini Qərb aləmi ilə birləşdirdiyini vurğulayıb. Dövlət başçısı bildirib ki, müstəqilliyimiz ən böyük sərvətimizdir və IV İslam Həmrəyliyi Oyunlarında əldə etdiyimiz qələbə müstəqilliyimiz möhkəmləndirilməsinə verilən növbəti töhfə və hədiyyədir (APA).

Azərbaycan prezidentinin İslam Həmrəyliyi Oyunlarından sonra Səudiyyə Ərəbistanında keçirilən İslam ölkələri zirvəsinə qatılması da mühüm hadisə kimi dəyərləndirilir. Xüsusilə də bu ölkədəki sammitdə ABŞ prezidenti Donald Trampın da iştirak etməsi, İslam dünyasının əsas problemlərindən bəhs olunması dünya gündəminin ciddi müzakirə mövzularındandır. Ancaq yerli ekspertlərimiz əmindir ki, Azərbaycan xarici siyasətdə özünün prinsiplərinə sadiq qalaraq bu dəfə də ər-Riyad zirvəsindən kənarda saxlanılan İrana qarşı hər hansı koalisiyada yer almayacaq, balanslı mövqeyini qoruyub-saxlayacaq. Bakının həm Qərblə münasibətləri qoruyub saxlaması, həm İranla əlaqələrdə ölçülü-biçili davranması, həm də Tehranla soyuq müharibə dövrünü yaşayan Səudiyyə ilə normal münasibətləri hazırkı dövr üçün ideal mövqe sayılır. Üstəlik, Azərbaycan İslam Həmrəylik Oyunlarına ev sahibliyi etməklə dünyanın 1 milyarddan artıq əhalisinin, azı 57 İslam ölkəsinin nəzərlərini özünə cəlb etməyi bacardı, hətta bir-biri ilə münasibətləri olmayan İslam ölkələrinin təmsilçilərini də bir araya gətirməyə nail oldu. Hesab olunur ki, Azərbaycan prezidenti əslində xarici siyasətdə atdığı addımları ilə ortaya Yeni İslam Konsepsiyası qoyub.

**YAP-ın icra katibinin müavini, deputat Siyavuş Novruzov moderator.az-a bu oyunların həm İslam dünyası, həm də bütövlükdə bəşəriyyətə ciddi mesaj olduğunu vurğulayıb.** "Azərbaycan bu yarışlarda yeni standartlar müəyyənləşdirdi. Hansı ki, gələcək oyunlarda bu standartların qorunub saxlanılmasına ehtiyac var. Azərbaycan hansı tədbirə ev sahibliyi edirsə, onu yüksək səviyyədə təşkil edir. Bunu "Eurovision" da, Avropa Oyunları da, IV İslam Həmrəyliyi Oyunları da sübut etdi" - S.Novruzov deyib. **Deputat deyib ki, Azərbaycan Qərblə Şərqi birləşdirən bir dövlətdir:** "Azərbaycanda Avropa Oyunlarının ardınca IV İslam Həmrəyliyi Oyunları keçirildi. Bu onu göstərir ki, Azərbaycan bütün başəri dəyərlərə önəm verən tolerant, dünyəvi bir dövlətdir. Bizim məqsədimiz odur ki, İslam dövlətləri bir-birilərinə əl tutsunlar, yardımçı olsunlar. Müharibələrə qoşulmasınlar. İslam ölkələrində yaşayan insanlar da müharibədən əziyyət çəkməsin. IV İslam Həmrəyliyi Oyunları həm Azərbaycanın təbliği, həm İslama verdiyi dəyər, həm də İslamın sülh, əmin-amanlıq, tolerantlıq dini olmasını ortaya qoymaq baxımından da önəmli oldu".

"Gördüyünüz kimi, müasir dünyada İslamla identifikasiya edilən böyük bir məkanı və 1 milyarddan çox əhalini Qərb dünyası ilə toqquşdurmaq üçün hər cür təxribatlara əl atılır. Xilafət təhlükəsi adı altında İslamı dışlamaq və daşlamaq siyasəti aparıcı ölkələrin rəsmi kursunda ön yerə çıxıb". Bu fikirləri isə **deputat Zahid Oruc** "Yeni Müsavat"a açıqlaması zamanı bildirdi.

O xatırlatdı ki, günlər öncə müsəlman dünyasının müqəddəslərinin uyuduğu torpağa səfərə gələn yeni Amerika prezidentinin hansı konsepsiya ilə çıxış edəcəyi çoxlarını düşündürürdü: "Çünki okeanın o tayında bütün seçki boyu din dartışmaları edəndən sonra Donald Trampı ər-Riyadda görmək sıradan bir hadisə sayıla bilməzdi. Sammit iştirakçılarının sayı, seçim prinsipi və tribunadan edilən çağırışlar göstərdi ki, yeni münaqişələr qacılmazdır və 100 milyardlıq hərbi bağlaşmaların hədəfi yenə də müsəlmanlardır".

**Deputat bildirdi ki, Azərbaycan prezidenti həmin sammitdə iştirak etməsinə baxmayaraq, ölkəmizin hansı prinsiplərdən çıxış edərək xarici siyasətini qurduğunu indiyədək hər kəsə bəlli edib:** "İslam həmrəyliyi üçün böyük töhfələr verən bir ölkə yeni məzhəb savaşlarına qətiyyən yol verməz! Gördüyünüz kimi, hətta "İslam NATO-su" kimi qələmə verilən yeni formatın həmin tədbir öncəsi beynəlxalq medianın gündəminə ötürülməsi təsadüfi deyildi. Halbuki İŞİD terroru fonunda Qərb alyansı bir sıra müsəlman ölkələrini də müttəfiq elan edərək yaratdıqları hərbi koalisiyanı Suriyaya yeritməyə çalışırdı. Onda qorxu və təhlükə mənbəyi kimi kultivasiya edilən bir dini rəng üzərindən hərbi ittifaqın qurulmasına hansı maraqlar naminə razılıq verirlər? Deməli, ortada yeni bölücülük planları mövcuddur və sivilizasiyalararası toqquşmalar davam edəcək".

**Z.Oruc dedi ki, Azərbaycan ərəb dünyasında keçirilən mühüm görüşlər zamanı öz paytaxtından dünyaya sülh və barış mesajları verməkdəydi:** "İdman arenasında birləşənləri siyasətdə bir yerə gətirmək və ya ən azı böyük müharibələrdən çəkindirmək ən yaxşı yoldur. Digər tərəfdən, Azərbaycan ərazi bütövlüyü problemi yaşadığı bir dönəmdə Qərb dünyası ilə yaxşı münasibətlərin nümunələrini təqdim edib. İndi Bakı diplomatik mərkəz kimi fərqli dinlərin və millətlərin vahid bir ünsiyyət məkanına çevrilməkdədir. Əlbəttə, söhbət İslam dünyasında liderliyə can atmaqdan gedir. Bizim iddia və ambisiyalarımızın dəqiq ölçüsü var. Lakin dövlətimizin yerinə yetirdiyi missiya ərazimizdən və əhalimizin sayından qat-qat böyükdür. Şərqlə Qərb arasında ortaqlıq yalnız məkan ölçüsündə qəbul edilə bilməz. Bundan ötrü real siyasət aparmalısan. Azərbaycan din səngəri qazmır. Əksinə, müxtəlif bayraqları cihadçı və ya işğalçı orduların başının üstündən aşağı salaraq humanitar siyasətə daşıyır, mənəvi yaxınlaşma, dəyərlərin mübadiləsi və iqtisadi əməkdaşlıq müstəviləri qurur. Təhlükəsizliyimiz və regional sabitlik siyasətinin fundamentində duran işlərdən biri də budur. Ölkə tarixi rolunu düzgün təyin edəndə onu forposta çevirmək istəyənlər öz planlarından vaz keçir və sülh üçün, dialoq və danışıqlar naminə səfərbər olunurlar. Xarici siyasət kursu belə olan ölkələr təəssüf ki, çox deyil".

**Deputat bir məqama da diqqət çəkdi:** "Baxın, son beynəlxalq tədbirdə suriyalı və yəmənli idmançılar təhlükəsiz bir məkan taparaq insanlıq, ləyaqətli mübarizə və həmrəylik üçün öz gücləri göstərirdilər. Onların ölkəsini isə xarabazarlığa çeviriblər və həmin adamların qardaşları Yaxın Şərqdə, yaxud qara qitənin digər səngərlərində ölüm-dirim savaşına qatılmağa məhkum oldular. Azərbaycanın və dünyanın yanaşma fərqi bundadır".

❑ E.PAŞASOY

YENİ MÜSAVAT
N 111 (6725) 25 may 2017

## İqtidar idarəetmədə yeni düzən planını işə salır

**İslamiada yekunlaşdıqdan sonra hökumətdə neçə vaxtdır gözlənilən ixtisarların başlanacağı barədə ötən saylarımızın birində xəbər vermişdik. Hökumətə yaxın mənbə iddia etmişdi ki, hakimiyyət böyük bir məmur ordusu ilə yollarını ayırmağa hazırlaşır.**




# Nazir müavinləri ixtisara düşür - siyahı

### Güc strukturları və Baş Prokurorluq istisna olmaqla, birləşdirilən nazirlik və komitələrdə maksimim iki müavin üçün ştat saxlanılacaq; Bakı Şəhər İcra Hakimiyyətində də rəhbər postlarda ixtisar olacaq; icra başçılarına isə...

Bu istiqamətdə redaksiyamıza vaxtaşırı məlumatlar daxil olmaqdadır. Qeyd olunur ki, dəyişiklik Nazirlər Kabinetinin, Prezident Administrasiyasının və prezidentin iqtisadi müşavirlərinin iştirakı ilə hazırlanan geniş sənəddə "yuxarıdan aşağıya" bütün idarəetməni tənzimləmək, daha operativ bir komanda formalaşdırmaq məqsədi güdür.

Xəbərlərdə bildirilir ki, birləşdiriləcək nazirlik və dövlət komitələrinin *(yalnız güc strukturları və Baş Prokurorluq istisna olmaqla)* siyahısı artıq dövlət başçısına təqdim edilib. "Ləğv ediləcək və başqa qurumlara birləşdiriləcək təsisatların son siyahısı prezidentin qərarına bağlıdır, dəqiqləşdirmələr və yenidən işlənməsi də mümkündür" deyə, xəbəri verən mənbə deyib.

Bildirilir ki, nazirlik və fəaliyyəti davam etdiriləcək komitələrdə maksimim iki müavin *(istisna hallar mümkündür)* üçün ştat saxlanılacaq. Çünki elə nazirliklər və komitələr var ki, orada 3, hətta 4 müavin ştatı var ki, onlar mütləq ixtisar olunmalıdır. Komitələrdə isə bir müavin olacaq. Bu da hökumətin həm bürokratik aparata nəzarət imkanlarını yaxşılaşdıracaq, həm də dövlət idarəetmə aparatında çeviklik yaradacaq.

Nazir müavinlərinin müvafiq işlə təmin edilməsi də gözlənilir ki, bu, pensiya yaşına çatanlara aid edilməyəcək. "Atlanmalar" *(kadrların yerdəyişmələri və yerləşdirilmələri)* haqda dəqiq bilgi yoxdur, amma ehtimal etmək olar ki, xüsusilə iqtisadi sahədə işləyənlərin yeni və ya birləşdirilən qurumlarda yerləşdirilməsində problem olmayacaq. Amma spesifik nazirliklərin birləşdirilməsində həm ciddi ixtisarların, həm də rəhbər vəzifəlilərin *(Ziya Məmmədov və bir müavinin nümunəsini yada salmaq kifayətdir)* işsiz qalması qaçılmaz olacaq. Bu, çox ciddi bir islahatlar paketidir və narazıların olması təbiidir. Eynilə Bakı Şəhər İcra Hakimiyyətində də rəhbər postlarda ixtisarlar olacaq. Gənclər və İdman İdarəsi, İqtisadiyyat Komitəsi, Yaşıllaşdırma Təsərrüfatı Birliyi və Şəhər Kino Xidməti İdarəsi kimi strukturların birləşdiriləcəyi deyilir. Nazirlər Kabinetinə ciddi "əl gəzdiriləcək". Ən böyük "şişmə"nin də məhz Nazirlər Kabinetində olduğu söylənilir.

İddia olunur ki, ciddi islahatlar regional idarəetmədə də aparılacaq. Müavinlərin ixtisarı rayon icra hakimiyyətlərinə də şamildir, icra başçısının yalnız bir müavini olacaq ki, o, həm humanitar, həm sosial məsələləri kurasiya etməlidir. Bundan başqa, "büdcəyə oturmuş" xeyli ştatlar var ki, onların səlahiyyətləri ya icra aparatında, ya da müvafiq nazirlik və ya komitələr arasında bölüşdürülməlidir. İcra başçıları postunun ümumiyyətlə ləğvi ilə bağlı xəbərlər də çoxdandır ağızdan-ağıza dolaşır. Mənbəmiz deyib ki, amma bu, indilikdə baş verməyəcək. Çünki belə olarsa, icra aparatında illərdir formalaşmış nəzarət mexanizmi sıradan çıxmış olar. Bu məsələ gələcəkdə Azərbaycanın ərazi vahidlərinin dəyişdirilməsi və vilayətlərin yaradılmasında planlaşdırıla bilər. Dünyanın bir sıra ölkələrində qubernator sistemi özünü doğruldub ki, Azərbaycanda bunun tətbiqi Qarabağ probleminə görə ləngiyir. Çoxdan danışılır ki, ölkədə 7-10 arası vilayətin yaradılması planı var.

Bugünlərdə hökumətin iqtisadi planlarından xəbərdar olan deputat Vahid Əhmədov da 10 milyonluq Azərbaycanda 19 nazirlik və 9 dövlət komitəsinin olmasını, idarəetmə aparatının həddən artıq şişirdilməsini demişdi. Deputat demişdi ki, ölkənin dövlət başçısı tərəfindən təsdiq edilmiş inkişaf strategiyasında inzibati aparatın ixtisarı nəzərdə tutulub. **"Görünür, tezliklə sistem dəyişiklikləri olacaq. Azərbaycanın minlərlə müxtəlif dərəcəli məmuru saxlamasına ehtiyac yoxdur. Ölkəyə strateji istiqamətlərdə işləyəcək hökumət tələb olunur"** deyə, deputat əlavə etmişdi.

Deputat xatırladıb ki, keçən ilin sonunda baş nazirin müavini Əli Əhmədov KİV-də islahatların yeni konsepsiyasının hazırlandığı barədə açıqlama verib. Həmin konsepsiya çərçivəsində idarə sistemində də dəyişikliklər gözlənilir.

❑ **"YM"**

# Parlament Rəsulzadəyə həqarət edən deputatı cəzalandıracaqmı...

**Vaxtaşırı Milli Məclisin bəzi deputatlarının görkəmli dövlət xadimləri haqda xoşagəlməz ifadələr işlətdiklərinin şahidi oluruq. Bu prosesdə deputat mandatı əlinə keçdikdən sonra Azərbaycan Sosial Demokrat Partiyasının sədri Araz Əlizadə daha aktiv iştirak edir. Fəaliyyətsizliyi ilə gündəmdən tamam silindiyini görən bu şəxs varlığını sübut etmək üçün Azərbaycan Xalq Cümhuriyyətinin banisi Məhəmməd Əmin Rəsulzadə barəsində hər kəsin etirazına səbəb olacaq ittihamlar səsləndirir. O, son olaraq Rəsulzadənin Azərbaycan üçün heç nə etmədiyini bildirib.**

Media və sosial şəbəkələrdə partiya sədri bu hərəkətinə görə ağır cavablar alır.

Əlizadə bu məsələdə tək deyil. Onun həmkarı Naqif Həmzəyev də 2015-cü ilin dekabrında Rəsulzadəni "vətən xaini" elan etmişdi...

Maraqlıdır ki, deputatların görkəmli dövlət xadimlərini aşağılamasına Milli Məclis rəhbərliyi rəsmi mövqe bildirmir. A.Əlizadəyə dəfələrlə etdiyi anormal çıxışlarına görə xəbərdarlıq belə edilməməsi qınaqlara səbəb olur.

**İqtidaryönlü deputat Zahid Oruc bu mövzunun parlamentdə müzakirəsinə böyük ehtiyacın olduğunu bildirdi:** "Öncəliklə mərhum prezident Heydər Əliyev haqqında danışarkən ulu öndərə dünyasını dəyişəndən sonra müxalif camiə daxilində deyilən sözləri xatırladaq. Onlar Rəsulzadə, Xətai və bu tipli şəxslərə önəm verilməsini tələb etdikləri halda, bəzən Heydər Əliyev əleyhinə çox kəskin çağırışlarının şahidi olurduq. Heydər Əliyevin Azərbaycan dövlətçiliyindəki danılmaz rolu var. Nəzərə alaq ki, müasir Azərbaycan dövlətçiliyinin də qurucusu odur. Burada hörmət və ehtiram həm də Azərbaycan tarixinə, dövlətçiliyinə münasibətdir. Biz bunları önə çəkərkən, həmin müxalif düşərgə özünü kənara çəkirdi. Bildirirdilər ki, bu məsələdə azad münasibət göstərmək haqlarıdır. Bu məsələdə parlamentin üzvlərinin bir xətt üzrə hərəkət etmələri nə qədər başa düşülən mövqe olsa da, amma siyasi cəhətdən bu elə də asan deyil. Çünki bizlər azad fikirli insanlarıq. Burada müxtəlif münasibətlər olacaq. Bununla bərabər, hesab edirəm ki, qeyd olunan məsələ üzərində düşünmək mümkündür. Tarixi yanaşma necə olmalıdır? Tarixi şəxsiyyətlərə verilən dəyər hüquq kateqorisiyasında rəsmiləşməlidirmi? Məsələn, Türkiyədə Mustafa Kamal Atatürkə həqarət edənlərə qarşı cəza müddəaları işə düşür. Dövlətçilik uğrunda xidmətləri olan şəxslər qorunub saxlanılmalıdır. Bununla bağlı qanunvericilikdə hansısa addımlar atmaq barədə düşünmək lazımdır. Buna eyni zamanda siyasi dairələrdə dəstək qazandırılmasına da ehtiyac var. Burada ictimai fikirlər də önəmlidir. Məsələnin müzakirəyə ehtiyacının olduğunu qəbul edirəm".



**Zahid Oruc:** "Məsələnin müzakirəyə ehtiyacının olduğunu qəbul edirəm"



**Fazil Mustafa:** "Rəsulzadə, Elçibəylə bağlı tənqidlərə normal yanaşıram, çünki..."

**BQP başqanı, deputat Fazil Mustafa parlament səviyyəsində bu məsələyə mövqe bildirilməsini doğru saymır:** "Demokratik respublikanın parlamentini götürək, orada həm millətçilər, həm də islamçılar var idi, hətta ermənilər də təmsil olunurdular. Kommunistlərlə baxışlar üst-üstə düşmürdü. Bu gün parlamentin bir deputatı əsassız olaraq Rəsulzadənin ünvanına müxtəlif fikirlər səsləndirirsə, buna da bir az dözümlü yanaşmaq lazımdır. Bəlkə də bu, cəmiyyətin mövzuya daha həssas yanaşmasına bəhrə verir. Rəsulzadəni nə qədər əsassız ittiham edirsənsə, onun haqqını tanımaqdan imtina edirsənsə, əksinə, o sevgini daha çox artırır. İnsanlar deyilənləri dəqiqləşdirmək üçün daha çox öyrənməyə meyl edirlər. Ona görə burada təhlükəli bir şey görmürəm. Belə açıqlamalar həmin insanların özünə hörmətsizlik gətirir, Rəsulzadənin özünə nə hörmətsizlik gətirə bilər ki? Kimsə deyir ki, Rəsulzadənin Azərbaycan tarixində xidmətləri olmayıb, desin, əsas odur ki, təhqir eləməsin. Kimsə deyir ki, Əbülfəz Elçibəy saxta yolla prezident seçilib, desin, bu təhqir deyil ki. Özünün yanlış mülahizəsini deyir. Azərbaycanda ən təhlükəli şey yalançı millətçilik, bu tipli məsələlərin müzakirəsini aparmağa hazır olmayan insan tipləridir. Bunların birinin arqumentli mövqeyini görə bilmirsən. Amma biri islamçı, biri millətçidir, imkanları olsa insanın başını yararlar. Bu tipli məsələlərdə əslinə qalsa, ideoloji zəmində müzakirələr açılır. Ağlı başında olanlar bu müzakirələrə qoşulub, daha sağlam fikrin cəmiyyətdə yer alması üçün müəyyən dərəcədə fəaliyyət göstərə bilirlər. Ona görə belə fikirləri top-tüfənglə qarşılamağın əleyhinəyəm. Bu məsələlərdə daha sağlam xətt olmalıdır. Bununla bağlı parlament səviyyəsində təbii ki, etirazlar səslənir, mətbuatda da bu mövzuda fikirlərimizi bildiririk. Bu məsələdə qətiyyən hər hansı bir güzəştimiz yoxdur. Amma istənilən halda bunu faciə kimi qəbul etmək olmaz. Diqqət yetirin, bu gün ölkəmizdə bəlkə də milli qəhrəman adına ən layiq şəxs ölkənin xilaskarı kimi qəbul edilən adamlardan biri Nuru Paşadır. Adına bir məktəb, xəstəxana, hərbi təqaüd varmı? Onu xatırladacaq bir şey varmı? Amma bu o demək deyil ki, Nuru Paşanın dəyəri aşağıdır. Onlarla insan belə onun haqqını tanıyırsa, demək, gələcəkdə onun haqqını qaytaracağıq. Çünki bu düşüncədə olanlar artacaq. Bu baxımdan, Rəsulzadə, Elçibəylə bağlı tənqidlərə normal yanaşıram".

❑ **Cavanşir ABBASLI**

YENİ MÜSAVAT
N 111 (6725) 25 may 2017



# Onlar kimdir, Fərman bizim Fərmandır...

*Xalid KAZIMLI*

**Professor Fərman Ceyranlının Gürcüstanda həbs olunması xəbərini saytlardan oxuyanda öz-özümə fikirləşdim ki, ona olan vəfa borcumu ödəmək üçün mütləq nəsə yazmaq, bu adamın şəxsiyyəti barədə oxucularda müəyyən təəssürat yaratmaq lazımdır.**

Mən onun adını çoxdan eşitmişdim, bir-iki dəfə də telefonla danışmışdıq, amma üzbəsurət tanışlığımız yox idi.

4 il öncə elə oldu ki, qarşılaşası olduq. Ailə üzvlərimizdən birinin cərrahi müdaxiləyə ehtiyac olan (və ya olmayan) problemi vardı.

4-5 klinika gəzdik, 7-8 həkimlə ünsiyyətdə olduq, hərə bir şey dedi, analizlər-manalizlər də öz yerində. Etibar etdiyim ən yaxın həkim dostlarım belə çalışdıqları özəl klinikaların bu əməliyyatın qiymətinin 1000 manat (o vaxtın puluyla 1200 dollar) olduğunu deyirdilər. Onlar bunu bir az da utana-utana dilə gətirirdilər. Çünki özlərindən asılı deyildi.

Ortada səhhət, can söhbəti olandan sonra o pulu düzəltmək çətin deyildi. Tapacaqdıq.

Amma bizim camaatda patoloji "bıçaq altına düşmək" qorxusu var axı. Heç kəs bunu istəmir. Hamı son ana qədər "bıçaq altına düşməyə" müqavimət göstərir, yalnız əlac büsbütün kəsiləndə əməliyyata razılıq verir.

Bizdə durum eləydi ki, müqavimət göstərmək, bir az da araşdırma aparmaq üçün vaxt vardı.

Ona görə də dostlardan biri məni Fərman Ceyranlının üstünə göndərdi, dedi, bir professorla da məsləhətləş. Getdik, görüşdük. O, məni 40 ilin tanışı kimi qarşıladı. Xəstənin bura qədərki diaqnozlarını, epikrizlərini incələdi, müayinə etdi. Sonda doktor dedi ki, əslində cərrahi müdaxiləyə ehtiyac yoxdur, olsa belə, 200-300 manatla başa gələ bilər, ancaq ən yaxşısı iynə-dərmandır. İnandırdı. Bir az çətin tapılan preparat təyin etdi. Cəmi 60 manata həmin preparatı da tapdıq. Müalicə başladı və iki həftənin içində problem həll olundu.

Bu hadisədən bir qədər sonra Fərman Ceyranlı buradakı klinikasını bağlayıb ölkədən gedəsi oldu. Onun klinikasına külli miqdarda cərimə kəsmişdilər, ödəməsi zor idi.

Doktor ata yurduna, Gürcüstana üz tutdu. O zaman dostlar deyirdi ki, Fərman doktor bizim kisəmizdən getdi, xəstəmiz olanda üstünə qaçırdıq, hesab oxumadan baxırdı, minimal xərclə xəstəmizin həyatını xilas edirdik, indi necə olacaq.

Bir çox pasiyentləri doktorun ardınca Gürcüstana getməli oldular.

İndi məlum olur ki, Fərman həkimin başına Gürcüstanı da dar ediblər.

Əlbəttə, istənilən cərrahın heç də bütün əməliyyatları uğurlu olmur, ola da bilməz. Bunun əlacsız xəstəliyə düçar olanları, günü keçmiş ahılları var və bu cür xəstələrin ömrünü uzatmaq üçün nəinki ən yaxşı həkimlər, hətta müasir tibb elmi də acizdir.

Əldə etdiyimiz məlumata görə, Fərman həkimin budəfəki problemi özü ilə bağlı deyil, onun klinikasında fəaliyyət göstərən bir həkimin lisenziyasının vaxtının iki gün keçməsi ilə bağlıdır.

Birincisi, bu, o qədər də böyük ciddi qanun pozuntusu deyil, həkimin lisenziyası bu gün səhər bitirsə, bu, onun peşəkarlığını avtomatik olaraq azaltmır ki, o, neçə müddət öncə təyin edilmiş əməliyyatı təxirə salsın. İkincisi, buna görə həmin həkimin özü məsuliyyət daşıyır. Üçüncüsü, hər bu cür texniki xarakterli qüsurlara görə tibb professorunu həbsə almaq qətiyyən düzgün deyil. Bu, onun yüzlərlə xəstəsinin həyatı bahasına başa gələ bilər.

Böyük ehtimalla Fərman Ceyranlının başına gələn bu vaqiə siyasi motivlidir və sırf onun siyasi baxışlarına görədir. Bir müddət əvvəl o, parlament seçkilərində namizədliyini irəli sürmüşdü və fəal təbliğat aparırdı.

O da ola bilər ki, doktorun rəhbərlik etdiyi klinikanın uğurlu fəaliyyət göstərməsi, gündən-günə populyarlaşması onun maddi imkanları haqqında kimlərdəsə yanlış və şişirdilmiş təəssürat yaradıb və onların iştahını qabardıb, indi onlar professorun qazancına şərik olmaq istəyirlər.

Hər halda, Gürcüstan İsveç, Norveç deyil ki, qanunun aliliyi daima öndə olsun və heç kəs sahibkarları əbəs yerə incitmək fikrində olmasın. Gürcüstan kriminal ünsürlərin və korrupsiyaya meylli özbaşına məmurların boy göstərdiyi Cənubi Qafqaz ölkəsidir. Bu ölkə Saakaşvilinin vaxtında qonşularından çox qabağa çıxmışdı, amma yavaş-yavaş geriyə qayıdır, qonşularına tay olur.

Yəqin ki, Fərman Ceyranlı ilə bağlı məsələ də bir yolla çözüləcək və haqq-ədalət yerini tapacaq.

Bu yazını ona görə yazdım ki, biz belə həkimlərimizin qədrini bilməliyik, onlar öz ölkəmizdə çalışmalıdırlar və öz ölkəmizə faydalı olmalıdırlar. Onların başqa ölkələrdə nə işi var ki, hüquqsuz duruma düşəndə də kömək edə bilməyək.

# Tərtərdəki casus şəbəkəsi Səfər Əbiyevin dövründə yaranıb - şok faktlar

## "Yeni Müsavat"ın illər öncə yazdıqları….

**Baş Prokurorluq, Dövlət Təhlükəsizlik Xidməti, Müdafiə Nazirliyi və Daxili İşlər Nazirliyinin Tərtər rayonunda ermənilərə işləyən bir qrup hərbçi və mülki şəxsin ifşası ilə bağlı bəyanatı hələ də aktualdır. Hazırda bu məsələ cəmiyyətdə çox ciddi şəkildə müzakirə olunmaqdadır. DTX sədri Mədət Quliyev bir neçə gün öncə məsələ ilə bağlı verdiyi açıqlamada bildirib ki, casus şəbəkəsi ordumuza 1988-1990-cı illərdən sızıb.**

Məsələ burasındadır ki, həmin illərdən ötən müddət ərzində şəbəkənin fəaliyyətinin həddən ziyadə açıq fəaliyyəti ortalıqda olub. Hətta mətbuat səhifələrinə qədər də gəlib çatıb.

Məsələn, "Yeni Müsavat"da 2008-ci ilin dekabrında Tərtər rayonunun Qapanlı kəndi ərazisində yerləşən "N" saylı hərbi hissənin ermənilərlə üzə-üzə olan posta basqınla bağlı xəbər dərc olunub. Həmin xəbərdə deyilirdi ki, posta hücum etmiş 4 naməlum silahlı şəxs 1 əsgərimizi öldürüb, 1 kiçik çavuşu isə yaralayıb. Bu barədə redaksiyanı bilgiləndirən mənbənin sözlərinə görə, 2008-ci il dekabrın 27-nə keçən gecə idmançı görkəmli, xüsusi hərbi geyimli, üzü maskalı 4 nəfər postumuza qəfil hücum edib. Postda olan 7 əsgər və bir kiçik çavuşun silahlarını götürən qrup üzvləri hərbçilərimizi yuxudan oyadaraq onların əl-qolunu bağlayıb. Bir-biri ilə Azərbaycan dilində səlis danışan silahlılar hərbçilərimizi sorğu-suala tutub.

Onlardan biri əsgərin ona diqqətlə baxdığını görüb və yaxınlaşaraq onu tanıyıb-tanımadığını soruşub. Əsgərin "tanıdım" cavabından sonra həmin əsgəri və kiçik çavuşu Tərtər rayonu istiqamətinə aparıblar. Onlar rayon mərkəzinin yaxınlığında əsgəri öldürüb. Kiçik çavuş qaçıb canını qurtarmaq istəyəndə isə ona da atəş açılıb. Çavuşun öldüyünü güman edən silahlılar ərazidən uzaqlaşıb. Hadisədən bir neçə saat sonra postu dəyişməyə gələn hərbçilərimiz oradakı əsgərləri əl-qolu bağlı vəziyyətdə görüb. Bundan sonra həyəcan siqnalı verilib və postdan naməlum istiqamətə aparılan əsgərlə çavuşun axtarışlarına başlanılıb. Əsgərin meyiti tapılıb, çavuşu isə huşsuz vəziyyətdə tapıblar.

Həmin dövrdə hadisə ilə bağlı MTN, Hərbi Əks-Kəşfiyyat İdarəsi və Hərbi Prokurorluq əməkdaşlarından ibarət xüsusi əməliyyat-istintaq qrupu yaradılıb. 2 sentyabr 2010-cu ildə MTN basqının üstünün açılması ilə bağlı məlumat yaymışdı. Bu gün artıq ləğv olunan MTN-in məlumatında da həmin adlara rast gəlirik. Məlumatda bildirilirdi ki, Tərtər Hərbi Prokurorluğu tərəfindən cinayət işi başlanılaraq istintaqın davam etdirilməsi üçün Respublika Hərbi Prokurorluğuna göndərilib. Cinayətləri törətmiş şəxslər müəyyən edilmədiyindən cinayət işinin istintaqı 6 yanvar, 2010-cu il tarixdə dayandırılıb.



Sonradan MTN bu işi "Sumqayıt camaatı"nın tərkibindəki "Sahil camaatı"na daxil olan şəxslərin adına çıxardı.

O vaxt yayılan rəsmi məlumatda deyilirdi ki, "Abdulməcid" ləqəbli İlqar Mollaçiyev və "Həmzət" ləqəbli Telman Abdullayev "Sahil camaatı" adlı silahlı qrup yaradıblar. Rəsmi məlumatda bildirilirdi ki, bu şəxslər və digər qrup üzvləri qanunsuz olaraq zabit və əsgər paltarları geyiniblər, tapançalarla və soyuq silahlarla silahlanaraq döyüş postunda dayanmış əsgərlərin olduğu səngərə hücum ediblər. Posta çatanda orada olan əsgər onlardan parolu soruşub. Qrup üzvlərindən Əsgər Məmmədov parolu söyləyib və hərbi hissədən yoxlayıcı olduqlarını bildirərək əsgərlərə yaxınlaşıblar. Silahlı birləşmənin üzvləri postları yoxlamaq adı ilə həmin əsgərləri kənara apararaq düşmənlə üzbəüz səngərdə xidmət edən əsgərlərdən birini səsboğucusu olan tapançadan başına atəş açmaqla öldürüblər, digərinə isə güllə yarası xəsarəti yetiriblər. Sonra onlar hərbi hissəyə məxsus 1 ədəd "SVD" markalı snayper tüfəngini, bu silaha aid içində 30 ədəd patron olan 3 ədəd sandıqçanı, 2 ədəd "AKMS" markalı avtomat silahı və onlara aid içində 60 ədəd patron olan 2 ədəd sandıqçanı özləri ilə götürərək gediblər.

İstisna deyil ki, o dövrdə Tərtərdəki hərbi posta basqını "Sahil camaatı"nın "ayağına" yazmaqla bağlı hesab olunan cinayəti "açıblar".

***

Səfər Əbiyevin nazir olduğu dövrdə Azərbaycan ordusunda casus şəbəkəsinin əl-qol açması üçün münbit şəraitin olduğunu təsdiqləyən geniş yazılar "Yeni Müsavat"ın 2009-cu ilin iyununda işıq üzü görən saylarında da dərc olunub.

Həmin ilin mayında Respublika Hərbi Prokurorluğunda 5 nəfər hərbçinin işi üzrə ibtidai istintaq yekunlaşıb. "Yeni Müsavat"ın əldə etdiyi ittiham aktından belə aydın olurdu ki, "N" saylı hərbi hissənin zabiti, leytenant Xəqanı Bəkir oğlu Cavadov kiçik çavuşlar - Elçin İbad oğlu Məmmədov, Samir Müxlis oğlu Tağıyev və əsgər Süleyman Lətifşah oğlu Əliyevlə əlbir olaraq qulluq mövqeyindən istifadə etməklə tabeliklərində olan əsgərləri zorlayıb və ermənilərin xeyrinə casusluğa cəlb edib. Ermənilər də həmin əsgərlərdən istifadə edərək ordumuzun mövqeləri barədə məlumat almaqla yanaşı, onların əli ilə Azərbaycan ərazisində partlayışlar törətməyi planlaşdırıblar.

**Həmin yazıdan sitat:** *"Cinayət işində adı keçən 5-ci hərbiçi isə leytenant Rəşad Razim oğlu Abışovdur. O, dəstə başçısı leytenant E.Məmmədova qanunsuz olaraq odlu silahın komplekt hissələrini, döyüş sursatı, partlayıcı maddələr və qurğular verməkdə təqsirləndirilir. İttiham aktına görə, 2008-ci ilin fevralından başlayaraq, "N" saylı hərbi hissənin zenit-pulemyot manqasının komandiri, kiçik çavuş Elçin İbad oğlu Məmmədov digər kiçik çavuş Samir Tağıyevlə birlikdə əsgər Elməddin Əliyevi digər əsgər Nurlan Novruzovu döyməyə məcbur ediblər. Onların əmri əsasında E.Əliyev N.Novruzovun əllərini qapıya bağlayıb. Bundan sonra isə kiçik çavuşlar əllərini bir-birinin çiyninə qoyaraq əsgər N.Novruzovun qarın nahiyəsinə təpiklə zərbələr vurublar. Elməddin Əliyevi də yumruqla N.Novruzovun qarnından vurmağa məcbur ediblər. Bütün bu işgəncələr barəsində əsgərlərdən biri taqım komandiri Xəqani Cavadova məlumat versə də, sonuncu bu məlumatları qulaqardına vurub. İstintaq zamanı leytenantın əsgərlərlə çavuşların amansız rəftarına göz yummasının səbəbləri də üzə çıxıb. Məlum olub ki, hələ 2007-ci ilin sonlarında kiçik çavuş Elçin Məmmədovla əlbir olmaqla Xəqanı Cavadov ermənilərlə işbirliyinə razılıq verib. Erməni hərbçilər X.Cavadova "Tufan", E.Məmmədova isə "Best Tufan" ləqəbi verməklə onları casusluğa cəlb ediblər. 2007-ci ilin dekabr ayının əvvəllərində kiçik çavuşla leytenant əsgər Nurlan Novruzova "koma"ların yanına getməsini əmr edib və yolda onu azdıraraq düşmən postuna aparıblar.*

*Ermənilərin "Andrey" adlı hərbçisi Nurlanı videokameraya çəkməklə zorladıqdan sonra ondan casusluq fəaliyyəti göstərməsini tələb edib. Nurlandan xidmət etdiyi posta kimin və hansı səbəbdən gəlməsi, gəlmiş şəxsin hansı vəzifədə işləməsi, Şəmkir və Gədəbəy rayonlarında yerləşən hərbi hissələrdəki əsgərlərin sayı barədə məlumat toplayıb onlara ötürməlірinə dair tapşırıqlar verilib".*

Həmin dövrdə mətbuatda bu məsələ geniş müzakirələrə səbəb olsa da, Səfər Əbiyev tabeliyindəki hərbi hissələrdə baş verənlərlə bağlı əməli tədbirlər görülməsinə, casusların, ermənilərlə əlbir olanların ifşasına yönələn göstərişlər verməyib. "Niyə"sini ondan bu gün də soruşmaq gec deyil.

❑ **E.MƏMMƏDƏLİYEV**

# ABŞ iki dövlətlə müharibə astanasında

## Ağ evin ilk hədəfində İran, yoxsa Şimali Koreyadır; politoloqlar fərqli fikirdədir…



**Aprel-may aylarında Amerika Birləşmiş Ştatlarının Şimali Koreya və İranla kəskinləşən münasibətləri kritik həddə çatmaqdadır. Artıq dünya yeni müharibə təhlükəsini hiss etməyə başlayır. Proseslərin bu şəkildə davamının sonda müharibə ilə nəticələnəcəyi ehtimalı yüksəkdir. Belə ki, nə ABŞ bu iki dövlət qarşısında geriyə addım atır, nə də onlar Birləşmiş Ştatlar qarşısında geri çəkilmək fikrindədir.**

Artıq dünya ABŞ-ın ilk olaraq bu iki dövlətdən hansı ilə müharibəyə başlayacağı ilə bağlı “baş sındırır”. Çoxları hesab edir ki, Rusiya faktorunu nəzərə alan ABŞ öncə Şimali Koreya ilə haqq-hesab çürüdəcək. Çünki İranın yerləşdiyi region Şimali Koreyaya nisbətən rəsmi Vaşinqton üçün əlverişli deyil.

**Politoloq Elxan Şahinoğlu hesab edir ki, ABŞ Koreya ilə müharibə riskinə getməz:** “Trampın xarici siyasətdəki əsas prioritetləri hələ bəlli deyil. Doğrudur, o, seçkiqabağı çıxışlarında deyirdi ki, beynəlxalq terrorçulara qarşı kəskin mübarizəyə başlayacaq. Ancaq hələ ki Amerika təyyarələrinin Suriyada boş hava limanını bombalamasından başqa ortada konkret heç nə yoxdur. Beynəlxalq terrorçular Suriya, İraq, Liviya və Yəməndə kök salıb, müharibələrdə iştirak edirlər. Tramp hələ ki Amerika qoşunlarını bu ölkələrdən heç birinə göndərib terrorçularla mübarizəyə başlamayıb. Tramp Şimali Koreya liderini də çox hədələdi, Amerika hərbi gəmilərini Koreya sahillərinə göndərdi. Ancaq nəticə yoxdur. Şimali Koreya lideri ölkəsində əvvəlkitək nüvə sınaqları həyata keçirir və Tramp administrasiyasının onu yola gətirmək üçün planı yoxdur. Belə olan halda Trampın Şimali Koreya ilə müharibəyə başlayacağını zənn etmirəm. Tramp bunun neçə böyük fəlakətə gətirəcəyini anlayır, özü anlamasa belə, müşavirləri nüvə dövləti ilə müharibənin riskləri haqqında ona müfəssəl məlumat veriblər. İstənilən ABŞ prezidenti hakimiyyətdə olduğu dövrdə haradasa müharibə edib. Biri böyük, digəri kiçik müharibə edib. Ancaq bütün hallarda ordu hansısa ölkəyə göndərilib. Bu, ya kiçik Qrenada adasında hakimiyyətin zorla devrilməsi olub, ya da İraq və Əfqanıstandakı müharibələrdə iştirak olub. Ancaq Amerikanın hərbi müdaxilələri heç də həmişə beynəlxalq aləmin xeyrinə olmayıb. İraqda diktator Səddam Hüseyni devirdilər, yerində parçalanmış dövlət, təriqət savaşları və DAİŞ (İŞİD) ”qazandılar". Yaxud Liviya. Müəmmər Qəzzafi də diktator idi, ancaq onun dövründə Liviya Şimali Afrikanın ən varlı ölkəsi idi. NATO müdaxilə etdi, müxalifət hücuma keçdi, diktator güllələndi. Ancaq nəticə İraqdakı kimidir. Ölkə parçalanıb, maliyyə vəsaitləri tükənib, terror bu ölkədə yuva salıb. Ona görə də Amerikanın bu kimi müdaxilələri hansısa problemi həll etmək əvəzinə, onu daha da dərinləşdirir".

**Politoloq iki dövlətlə müharibədə rəsmi Vaşinqtonun müttəfiqlərinin az olacağını düşünür:** “Amerika üçün indiki zamanda İran və ya Şimali Koreyaya qarşı mümkün müharibə risklidir. Birincisi, bu müharibədə Amerikanın müttəfiqləri az olacaq, Rusiya isə Çini də yanına alaraq çalışacaq ki, bölgədə anti-Amerika əhval-ruhiyyəsini gücləndirsin. Avropanın özü də Trampın planlarından ehtiyatlanır. Azərbaycan Dağlıq Qarabağı çıxmaq şərtilə, yaxın ətrafda istənilən müharibənin əleyhinədir. Çünki məsələn, Amerika yenidən İranı hədəf götürərsə, bu Azərbaycanın maraqlarına cavab verməyəcək. Birincisi, belə bir müharibə İrandan Azərbaycana qaçqın axınını sürətləndirəcək ki, bu bizi böyük humanitar böhrana sürükləyəcək. İkincisi, Amerika-İran gərginliyi avtomatik İran-Azərbaycan münasibətlərini də gərginləşdirir. Çünki biz nə qədər ”Amerikanın İrana qarşı planlarında yer almırıq və almayacağıq" desək də, Tehran Vaşinqtonun müttəfiqi kimi dəyərləndirərək bizi də hədəf seçəcək. Ona görə Amerikanın İrana müdaxiləsi bizim maraqlara ziddir. İranın liberal sayılan prezidenti Həsən Ruhani növbəti 4 ilə dövlət başçısı seçilib və nüvə çalışmalarını bərpa etmək kimi fikri yoxdur".

**“Sivilizasiyalar və konfliktlər” Analitik Mərkəzinin rəhbəri Əhəd Məmmədli iki dövlətlə ABŞ-ın müharibə edəcəyi ilə bağlı fikirlərin daim gündəmdə olduğunu söylədi:** “Təxminən 2005-ci ildən ABŞ-ın İranı vuracağı deyilir. Bunun mümkün olmadığını düşünürəm. Qərb son iki yüz ildə kolonial müharibələr başlayan dövrdən Şərqə qarşı ”qamçı-kökə" siyasəti işlədib, əsas da müsəlman şərqinə qarşı. İrandakı mövcud rejim hakimiyyətə gələndən bu yana ABŞ-la düşmənçilik başladı. Şah rejimi devrildiyi zaman Tehranda ABŞ səfirliyi yandırıldı, səfirlik işçiləri girov götürüldü. Məntiqlə o hadisədən sonra ABŞ İranı vurmalı idi, çünki səfirlik hər ölkənin ərazisi sayılır. Söhbət İranın güclü və ya zəif olmasından getmir. İranı sıradan çıxartmaq avtomatik olaraq İslam dünyasını birləşdirmək deməkdir. Bu da İsrail, ABŞ, Böyük Britaniya, Avropa Birliyi və Rusiyanın maraqlarına uyğun deyil...

Dünyanın və regionun indiki mövcud durumunda Suriya, Liviya, Yəmən, Ukrayna problemlərinin həll olunmadığı vaxtda daha geniş və böyük fəsadlarla dolu nəticələr verə biləcək müharibə ocaqlarının yaranmasına heç kəs imkan verməz. Bir anda düşünək, ABŞ İranı vursa, haradan vuracaq? Körfəz ölkələrində yerləşən hərbi bazalardan vurmalıdır. Bu da bilavasitə Ərəb körfəz monarxiyalarının da müharibəyə qoşulmasına gətirib çıxaracaq. Çünki avtomatik olaraq, İran da cavabında amerikalıların ərəb müttəfiqlərini vuracaq. Suriya problemi içində üzən Türkiyə, Yaxın Şərq və Qərbə bundan qat-qat daha böyük problem lazımdırmı? Və ya təsəvvür edək, ABŞ Şimali Koreyaya zərbələr endirir, haradan bu zərbələri endirəcək? Əlbəttə, həmin regionun müttəfiq ölkələrində yerləşən hərbi bazalardan. Belə olan halda divara sıxışan Şimali Koreyanın kommunist rejimi cavabında Cənubi Koreya və Yaponiyaya saldıracaq. Şimali Koreyanın Çin və Rusiya ilə həmsərhəd olduğunu nəzərə alsaq, onda görün bu müharibədə düz və dolayısı ilə neçə ölkə iştirak edəcək? Yaxın Şərqdə alov sönməyə-sönməyə, Uzaq Şərqi alovlandırmaq lazımdır? Bütün bunlardan irəli gələrək, nə İran, nə də Şimali Koreya ilə ABŞ və müttəfiqlərinin müharibə edəcəyinə inamım sıfırdan da aşağıdır".

❑ **Cavanşir ABBASLI**



# Rusiya ilə siyasi-diplomatik toqquşma hara qədər davam edəcək…

## Şimal qonşumuzla gərginliklərə təmkinli yanaşılması təklif olunur; **politoloq:** “Rus qoşunları təmas xəttinə “sülhməramlı qüvvələr” adi ilə qaytarılsa, Qarabağ biryolluq əlimizdən gedəcək”

**“Mövcud vəziyyəti siyasi-diplomatik toqquşma kimi dəyərləndirməzdim. Rusiya ideya və prinsiplərin dövləti deyil. Ruslarda heç zaman qızıl orta prinsipi olmayıb. Onlar üçün yaxşı və pis, dost və düşmən anlayışları var. Və bu yaxşı və pis, dost və düşmən anlayışları öz maraqlarına uyğun olaraq yerlərini dəyişə bilər”.**

**Politoloq Elçin Mirzəbəyli** bu fikirləri Rusiya və Azərbaycan arasında son zamanlar hökm sürən soyuq münasibətləri, daha doğrusu, şimal qonşumuzdakı ayrı-ayrı dairələrin təzyiq və təhdidlərini “Yeni Müsavat”a şərh edərkən bildirdi. Siyasi təhlilçi dedi ki, biz Rusiyanın Türkiyəyə münasibətində də bunun şahidi olduq: “”İstanbula bomba atmaq lazımdır" deyənlər qısa bir zamandan sonra Türkiyəyə olan sevgilərindən məst olduqlarını açıqladılar. Heç bir əsaslandırma aparmadan, utanmadan... Bu faktorlar Rusiyanın siyasətində də özünü ifadə edir. Hazırda bizim gördüyümüz və görə bilmədiyimiz bütün təzyiqlər heç də qlobal geosiyasi maraqlarla əlaqəli deyil. Ola bilsin ki, ortalıqda korporativ maraqlar, yaxud hərbi-sənaye kompleksinin və ya hansısa başqa bir sahənin arzu və istəkləri var. Bu barədə yalnız ehtimallarımı ifadə edə bilərəm. Amma əminəm ki, bu maraqlar qismən təmin olunarsa, Azərbaycan Rusiya KİV-nin təqdimatında bəşər tarixinin ən uğurlu dövləti, Rusiyanın əvəzedilməz dostu kimi təqdim olunacaq".

**Azərbaycanın rəsmi səviyyədə şimal qonşusuna kəskin cavablar verməsi, onunla “nota dili” ilə danışması barədə təkliflərinə rəğmən E.Mirzəbəyli daha təmkinli davranmağı zəruri sayır:** “Biz istiqanlı bir xalq olduğumuz üçün bəzən Rusiyanın təbliğat maşınının informasiya təxribatlarına müəyyən qədər emosional yanaşırıq. Bəzi şeylərə önəm vermək lazım deyil, amma diqqətə alıb yola davam etmək lazımdır. Yaranmış vəziyyətin müsbət tərəfləri də var: Artıq Azərbaycanda Rusiya ilə birgə olmağın mümkünsüzlüyünü hər kəs başa düşüb. 5-ci kolonun da dili..., daha doğrusu, səsi kəsilib, arqumentləri də tükənib”.

**Rusiyanın təzyiqlərinə qarşı Azərbaycanda milli-demokratik qüvvələrin fəaliyyətindən istifadə oluna bilərmi? Bir çoxları hesab edir ki, söhbət müstəqilliyimizə təhdiddən söhbət gedirsə, milli qüvvələr, müxalifət də kənarda qalmamalıdır. E.Mirzəbəyli hesab edir ki, Azərbaycanda sözün əsl mənasında milli-demokratik qüvvələri dövlətə qarşı istifadə etmək mümkün deyil:** “Əgər söhbət bu epitetə iddia edən, əməldə isə bunun əksini sərgiləyən bir qrup nüfuz müvəkkilindən gedirsə, ”milli şura", “milli nataşa”, yaxud “milli ivan”lar belə bir gücə və potensiala, ən əsası isə ictimai dəstəyə malik deyillər. Azərbaycanın istiqlalı üçün gerçəkdən şər imperiyasına qarşı mübarizə aparan, öz prinsiplərinə, ideyalarına bağlı olan çoxluq isə hər zaman dövlətin, bayrağın, istiqlalın yanında olacaq. Buna şübhə etmirəm".

**Politoloq Hikmət Hacızadə də Rusiya-Azərbaycan münasibətlərində belə gərginliklərin çox olduğunu, lakin axırda səngidiyini bildirdi:** “Hələ ki böyük problem yoxdur. Allah betərindən saxlasın! Balaca ölkə özünü təmkinli aparmalıdır. Rusiyanin bəzi rəsmiləri də məhz bunu bizə vaxtaşırı xatırlatmaq istəyirlər”.

**Azərbaycana qarşı təzyiqlər Lavrov səviyyəli ermənipərəstlərin özfəaliyyətidir, ya dövlət siyasətidir? Bu suala cavabında H.Hacızadə dedi:** “Dövlət siyasətidir. Belə mühüm məsələlərdə ancaq Rusiyanin mövqeyi səsləndirilə bilər”.

**H.Hacızadə də hesab edir ki, milli - demokratik qüvvələrin bu məsələdə bir böyük vəzifəsi var:** “Qarabağ məsələsinin həllində müstəqilliyimizi də qorumaq vəzifəsi. Belə ki, rus ordusunun təkrar ölkəyə qaytarılmasının qarşısını almaq. Rus qoşunları təmas xəttinə sülhməramlı qüvvələr adı ilə qaytarılsa, hesab edin ki, Qarabağ biryolluq əlimizdən gedəcək və bundan başqa, Azərbaycan artıq nə xarici, nə də daxili siyasətdə müstəqil addım ata bilməyəcək”.

❑ **Cavìd TURAN**

YENİ MÜSAVAT
N 111 (6725) 25 may 2017



# Yapon və YAP-ın imperatorları

Zamin HACI
zaminhaci@gmail.com

**Cürbəcür internet mifləri var, bunlardan biri də belədir ki, guya Yaponiya imperatorları heç vaxt xarici səfərə çıxmırlar. Çünki yapon qanunlarına görə, imperatorun ayağı dəyən istənilən torpaq Yaponiya ərazisi sayılmalı imiş. Nəticədə dünya dövlətləri ilə absurd toqquşmalardan qaçmaq üçün yaponlar imperatoru xaricə buraxmırlar.**

Əlbəttə, bunun yalan olduğunu yoxlamaq çox asandır. Elə internetdə yüngülcə araşdıranda yapon imperatorunun bu ilin martında Vyetnama səfər elədiyini görmək mümkündür. Ancaq "gop da olsa maraqlıdır" söhbətindəki kimi, bu mif də əyləncəlidir, ekzotikdir. Hərçənd yapon imperatorları 2-ci Dünya savaşında amerikanlara uduzandan sonra elə dustaq kimi bir şeydirlər, faktiki oyuncaq vəzifə daşıyırlar. Hazırkı imperator Akihito müəllim isə keçən il imperatorluqdan bezdiyini, bu işdən əl çəkməyə hazırlaşdığını bildirmişdi. Sağ əli bizim vəzifə kreslosuna calaq olmuş məmurların başına...

Ümumiyyətlə, imperator olasan və bundan könüllü əl çəkəsən - biz azərbaycanlılar üçün fantastik durumdur. Ağlasığmazdır. *(Keçən il bu hadisəni danışdığım bir neçə nəfər özünü avtobusun altına atdı, hələ də ailələrinin üzünə baxa bilmirəm)*. Ancaq yuxarıda yazdığım mifin bizim ölkəyə xeyli bənzəri vardır.

Bizdə də məmurlar, nazirlər, rəis və prokurorlar ayaqları dəyən ərazini özlərinə aid eləməyi sevirlər. Hətta bir nazir haqda anekdot vardı, gedir dağda qəşəng villa görür, almaq istəyir. Cangüdəni göndərir, villanın gözətçisi deyir bura satılmır, mümkün deyil və yiyəsinin adını çəkir. Cangüdən qayıdıb deyir ki, möhtərəm nazir, elə bu villa zati-alinizin özünə məxsus imiş, yadınızdan çıxıbdır.

Qamarlama siyasəti keçmiş MTN və Rabitə Nazirliyinə, keçmiş olmasına az qaldığı açıq görünən Beynəlxalq Banka aid cinayət işlərində tez-tez özünü göstərir. Bu idarələrin işçiləri özlərini əsl "YAP-ın imperatorları" kimi aparıblar. Əl-ayaq qoyduqları hər biri yeri qapazlayıblar. Məzəlidir ki, indi onların keçmiş həmkarları - hazırda vəzifədə olan "imperatorlar" da eyni məntiqlə dəri soyurlar. Misal üçün, rabitə nazirinin aparat müdiri olmuş Vidadi Zeynalov şikayətlənir ki, onun bütün əmlakının, hətta dədəsinin 1947-ci ildə aldığı evin də üzərinə həbs qoyulubdur. Deyir, bəyəm, 1947-ci ildə Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi var idi?

Pardon. Bu, siyasi baxımdan yanlışdır. Nazirlik o vaxt olmaya bilərdi, ancaq mənimsəmənin əsası qoyulardı. Elə casus söhbəti çıxanda Mədət müəllim haqlı olaraq qeyd etdi ki, bunlar bir-iki günün casusu deyil, 1988-ci ildən bəri ermənilərə işləyiblər. Hələ bu nisbətən cavan casuslardır, mən ölkəmizdə adam tanıyıram ki, 1400 il bundan qabaqdan - Albaniya hökmdarı Cavanşirin vaxtından ermənilərə casusluq edir. Nəsillikcə bu işlə məşğuldurlar. Hamısını öldürüb Formula-1 yarış zolağının asfaltı altında basdırmalıyıq. Şair demişkən, qoy millətdə ruh yaşasın!

Sözgəlişi, Beynəlxalq Bankın məhkəmə işi ilə bağlı yazılarda oxuduğum əla bir detalı oxuculara çatdırmaq istərdim. Fantastikadır. Təsəvvür edin, kimsə BB-dən 1 milyon dollar kredit götürmək üçün müraciət edib, kreditin məqsədi bölümündə isə açıq-aşkar yazıbmış: "Rüşvət vermək üçündür". Bank da heç bir sorğu-sualsız, vətənimiz Azərbaycanın reallıqlarını nəzərə alaraq həmin krediti veribmiş.

Əsl imperatorlara layiq sənədləşmədir. Hünərin var, etiraz elə. Guya Cahangir müəllim istəsə, o krediti verməyə bilərmiş? Ay-hay... Allah *(bəlkə də daha çox Şeytan)* bilir 1 milyon dollar kredit üçün məqsədin rüşvət olduğunu açıq yazan lotu kimin adamı imiş...

# Moskva üç paytaxta qarşı əsəb savaşında - mühüm gəlişmə

**Azərbaycan, Türkiyə və Gürcüstan müdafiə nazirlərinin üçtərəfli Batumi görüşü başa çatdı. Görüşdə konkret sənəd qəbul olunmasa da, regionun bu üç mühüm dövləti arasında hərbi sferada strateji əməkdaşlığı daha da dərinləşdimək barədə qərar verildi, o sırada birgə hərbi təlimlərin önəminə xüsusi diqqət yönəldildi. İlk ortaq təlimlərin gələn ay keçirilməsi nəzərdə tutulur.**



## İrəvan-Moskva birliyinə qarşı yeni sipər: Bakı-Tiflis-Ankara oxu

### Müdafiə nazirlərinin Batumi görüşü, Azərbaycan prezidentinin Səudiyyə, Türkiyə baş nazirinin Gürcüstana üst-üstə düşən səfərləri... Kreml və marioneti nədən narahatdır? Rusiya rəsmi KİV-ində erməninin imzası ilə üç paytaxta qarşı getmiş təxribatçı yazının pərdəarxası...

Şübhəsiz ki, belə üçlü hərbi əməkdaşlıq formatı müstəsna olaraq sözügedən dövlətlərin özlərinin təhlükəsizliyini gücləndirmək niyyəti güdür və hansısa 4-cü, 5-ci dövlətin əleyhinə yönəlməyib. Amma bununla belə, deyəsən, Bakı-Ankara-Tiflis hərbi əməkdaşlıq oxu, ümumiyyətlə, Azərbaycan-Türkiyə-Gürcüstan əməkdaşlıq formatı Rusiyada ciddi qıcıq yaradıb, onun marioneti - işğalçı Ermənistanı isə əməllicə təlaşlandırıb.

Belə olmasaydı, nazirlərin Batumi görüşü günü Rusiyanın dövlət agentliyi olan "RİA-Novosti"də Gevorq Mirzəyan ad-soyadlı birisinin imzası ilə son illər yüksəliş dövrü yaşayan Azərbaycan-Türkiyə-Gürcüstan əməkdaşlığını hədəfə alan "Qafqaz yalançı triumviratı: niyə Bakı-Ankara-Tiflis oxu baş tutmaya?" təxribatçı yazı dərc olunmazdı.

Gürcüstanla Türkiyə və Azərbaycanın arasını vurmağa, Rusiyanın Tiflis üçün önəmini qabartmağa hesablanmış bu yazının Rusiyanın dövlət KİV-də getməsi onu göstərir ermənin cızma-qarasının arxasında bilavasitə Kremlin sifarişi və iradəsi dayanır. Bunu isbatlayan dəlillərdən biri də odur ki, müəllif Gevorq Mirzəyan Rusiya hökuməti yanında Maliyyə Universitetinin Politologiya Departamentinin dosentidir.

***

**Artıq Azərbaycan XİN-in mətbuat xidmətinin rəhbəri Hikmət Hacıyev yazıya münasibətini bildirib. O, belə bir təxribatçı məqalənin Rusiyanın rəsmi KİV-ində peyda olmasından təəssüf hissi keçirdiyini və məqsədin də xoş niyyətdən doğmadığını qeyd edib; yazını "ədəbsiz şərh" adlandırıb (APA).**

**Sitat:** "Azərbaycanın qonşu dövlətlərlə münasibətlər qurması məsələsində kiminsə, xüsusən erməni əsilli Qevorq Mirzəyan adlı şəxsin şübhəli, ədəbsiz şərhinə və təhlilinə ehtiyacı yoxdur. Ermənistan istisna olmaqla, Azərbaycanın bütün qonşuları ilə qarşılıqlı hörmətə və əməkdaşlığa əsaslanan əlaqələri var. "Soyuq müharibə" əhval-ruhiyyəsində olan və terminologiyasından istifadə edən Q.Mirzəyana xatırlatmaq istərdim ki, Azərbaycan mehriban qonşuluq siyasəti yürüdərək Cənubu Qafqazda və onun hüdudlarından kənarda uğurlu və qarşılıqlı faydalı regional əməkdaşlıq modellərinin müəllifidir. Mirzəyanın vətəni olan Ermənistan hərbi gücdən istifadə edərək Azərbaycan ərazilərini işğal edib, işğal olunmuş ərazilərdə Azərbaycan xalqına qarşı qanlı etnik təmizləmə törədib. Ermənistanın destruktiv siyasəti Güney Qafqazda sülhün, tam və hərtərəfli regional əməkdaşlığın formalaşmasına ciddi maneədir. Türkiyənin Qarabağ münaqişəsində mövqeyinə gəldikdə isə Mirzəyana xatırlatmaq istərdim ki, Türkiyənin münaqişənin həllində mövqeyi ədalətə, beynəlxalq hüququn norma və prinsiplərinə və BMT Təhlükəsizlik Şurasının məlum qətnamələrinə əsaslanır. Rusiyanın dövlət informasiya agentliyində belə bir yazıya yer verilməsi ciddi sual doğurur. Görəsən, bu, məqsədyönlü xarakter daşımır ki?"

***

Əlbəttə ki, məqsədyönlü xarakter daşıyır. XİN sözçüsü açıq deməsə də, söhbət əslində ÜAK-ın ləğvinin ardınca Rusiyanın Azərbaycana qarşı növbəti demarşından gedir - həm də bu dəfə erməni mirzəsinin əli ilə. Odur ki, yaxşı olardı, Azərbaycan tərəfi cavab haqqından istifadə edib "RİA-Novosti"də öz mövqeyini dərc etdirəydi. Bu, Hikmət Hacıyevin cavabı şəklində də ola bilər....

Məqalənin təsadüfi olmadığına dair daha bir dəlil-sübut: iş ondadır ki, həmin təxribatçı yazı peyda olan gün, yəni müdafiə nazirlərinin Batumi görüşü ilə eyni vaxtda Türkiyə baş naziri Binəli Yıldırım Gürcüstanda rəsmi səfərdə idi. Səfər zamanı əsas diqqət mərkəzində olan mövzu isə tərəflər arasında iqtisadi inteqrasiyanın dərinləşməsi, o sırada Bakı-Tiflis-Qars dəmir yolunun inşası məsələsi, digər mövzular olub. Səfər həmçinin prezident Rəcəb Tayyib Ərdoğanın gələn ay Gürcüstana planlaşdırılan səfərini hazırlamaq niyyəti güdürdü.

**Bakı-Tiflis-Qars dəmir yolu layihəsindən danışan Türkiyə baş naziri bu dəmir yolunun tezliklə işə düşəcəyinin anonsunu verib:** "Qafqazdan Orta Asiyaya və Uzaq Şərqə, digər tərəfdən isə Anadolu vasitəsilə Avropa və Londona uzanacaq bu ortaq dəhliz tarixi İpək Yolunun vacib hissələrindən biri olacaq. Strateji anlamda bölgə üçün çox önəmli layihədir. Yaxın bir neçə ayda açılışı birlikdə həyata keçirəcəyik. Layihə üç ölkə arasında əlaqələri çox daha irəliyə daşıyacaq. Layihənin əsas iştirakçıları Azərbaycan, Gürcüstan və Türkiyə ilə yanaşı, Türkmənistan, Qazaxıstan, Çin və digər tərəfdən, Avropa və Balkan ölkələri də layihəyə qoşulacaq. Bu, bölgənin taleyini dəyişəcək".

***

Məsələ də elə ondadır ki, bölgənin taleyini dəyişəcək bu kimi iri layihələr sonuc etibarilə həm də region ölkələrinin Rusiyadan asılılığını azaldacaq, paralel surətdə qardaş ölkənin önəmini artıracaq, işğalçı Ermənistan isə daha güclü təcrid durumuna düşəcək. Moskva və onun marioneti Ermənistanın narahatlığı bu xüsusda başa düşüləndir.

Bundan əlavə, Azərbaycan, Türkiyə və Gürcüstan strateji əhəmiyyətli Cənub Qaz Dəhlizi layihəsinin də mühüm iştirakçılarıdır. Avropanın Rusiya qazından asılılığını bir az da azaldacaq və Ermənistandan yan keçəcək bu layihədə də Rusiya təbii ki, maraqlı deyil, onu 2017-ci ildə reallaşdırmağa çalışdığı "Türk axını"na rəqib hesab edir.

**Bu xüsusda politoloq Elxan Şahinoğlunun şərhi yerinə düşür. Politoloq deyir:** "Türkiyə, Azərbaycan, Gürcüstan müdafiə nazirlərinin mütəmadi görüşləri hər üç ölkənin xeyrinədir. Üç ölkə strateji müttəfiq olmaqla regional inkişafda müstəsna rol oynayır. Onları ümumi sərhəddən əlavə böyük enerji layihələri və boru xətləri də birləşdirir. Üstəgəl, yaxın zamanda Bakı-Tiflis-Qars dəmir yolu da istifadəyə veriləcək. Deməli, bu cür layihələrin həm də təhlükəsizlik məsələləri həll olunmalıdır. Bu baxımdan, üç ölkənin müdafiə sferasına cavabdeh şəxslərin müxtəlif layihələrin təhlükəsizlik məsələlərini müzakirə etməsi vacibdir. Üç ölkə arasında ortaq hərbi təlimlərin intensivləşdirilməsinə də ehtiyac var, Azərbaycan-Gürcüstan-Türkiyə hərbi əməkdaşlığı bölgədə Rusiya-Ermənistan hərbi ittifaqına qarşı sipər rolu oynamalıdır. Dağlıq Qarabağ uğrunda müharibə başlasa, Gürcüstan Azərbaycanla Ermənistan arasında neytral qala bilməyəcək, seçim etmək məcburiyyətində qalacaq".

***

**Rusiya-Ermənistan ittifaqını qorxudan sözsüz ki, həm də bu amildir - Qarabağ məsələsində Azərbaycan-Türkiyə-Gürcüstan sipərinə tuş gəlmək riski, münaqişənin Moskva-İrəvan ssenarisi üzrə həllinin fiasko olma ehtimalı.**

**Nəhayət, yazıya dəxli olan daha bir mühüm detal barədə. Maraqlıdır ki, Mirzəyanın məqaləsi həm də Azərbaycan prezidenti İlham Əliyevin Səudiyyə Ərəbistanına səfəri günlərinə təsadüf edir. Politoloq Qalib Hüseynliyə görə, prezidentin ər-Riyadda ABŞ prezidenti Donald Trampın da qatıldığı İslam sammitində iştirakı son vaxtlar Azərbaycan əleyhinə addımlar atan Moskvaya bir xəbərdarlıq mesajı sayılmalıdır.** "Bu, Kremlə bir mesajdır ki, Bakı geniş seçim imkanına malikdir və günün birindı öz siyasi oriyentirini dəyişə bilər", - politoloq vurğulayıb.

**Mirzəyanın təxribatçı məqaləsini həm də bu mesaja Moskvanın reaksiyası kimi qəbul eləmək lazım gəlir.**

❑ **Analitik xidmət**

YENİ MÜSAVAT
N 111 (6725) 25 may 2017

**2013-cü ildə keçirilən prezident seçkilərinə təxminən bir il qalanda tanınmış kinodramaturq Rüstəm İbrahimbəyov siyasi meydanda parlamağa başladı və qısa zamanda elə bir proses həyata keçirildi ki, İbrahimbəyov ənənəvi müxalifət düşərgəsinin əksər hissəsi tərəfindən lider qəbul edildi. Ardınca Rusiyada Azərbaycan əsilli bir qrup məşhur adamdan ibarət "Milyarderlər ittifaqı" yaradıldı.**

# "Rusiyanın budəfəki "Rüstəm İbrahimbəyov"u çox güclü fiqurdur"

## Tanınmış müxalifət partiyası liderindən heyrətamiz açıqlamalar; **Sərdar Cəlaloğlu:** "Azərbaycan daxilində seçkilərdə rusiyapərəstlərdən ibarət çox ciddi problem yaradan güc formalaşdırılacaq..."

Beləliklə, get-gedə aydın oldu ki, Rüstəm İbrahimbəyov, "Milyarderlər ittifaqı" və Milli Şura Moskvanın Azərbaycandakı prezident seçkiləri öncəsi təşkil etdiyi layihədir. Bununla Azərbaycan iqtidarına təzyiq etmək məqsədi güdülüb. 2018-ci il prezident seçkilərində də yeni bir "Rüstəm İbrahimbəyov ssenarisi"nin və növbəti bir "İbrahimbəyov"un meydana çıxarılacağı ehtimalının yüksək olduğu barədə son günlər bir sıra siyasətçilərin açıqlama və proqnozlarına rast gəlirik. Budəfəki ssenaridə ənənəvi müxalifət partiyalarının iştirak edib-etməyəcəyinə gəlincə, qeyd olunur ki, bu dəfə bir qədər fərqli şəkildə proses gedə bilər.

**Bu barədə ADP sədri Sərdar Cəlaloğlu "Yeni Müsavat"ın suallarına cavabında sensasiya doğuracaq açıqlamalar verdi. Sərdar Cəlaloğlu bildirdi ki, Rusiya 2018-ci ildə Azərbaycanda keçiriləcək prezident seçkilərinə artıq hazırlıq istiqamətində addımlar atmağa başlayıb:** "Yeni ssenaridə iştirak üçün Azərbaycan daxilində siyasi qüvvələr içərisindən tərəfdaşlar tapılacaq və həmin qüvvələr ortaya çıxacaq. Bu iş rusperəst qüvvələrin müxalifətdə olan uzantıları ilə, həm də birbaşa ruspərəstlərin özləri ilə şəxsi kontaktlar yolu ilə aparılacaq. Azərbaycanda ordu daxilində hüquq-mühafizə orqanlarının rəsmi açıqlamalarına görə, agentlər var imiş. İndi görün, cəmiyyət və siyasi qüvvələr içində nə qədər adam tapacaqlar ki, Rusiyanın qeyd etdiyim projesində yer alsın. Azərbaycan daxilində seçkilərdə çox ciddi problem yaradan güc formalaşdırılacaq. Daxildəki rusperəst qüvvələrdən və onların təsir dairəsində olan siyasi qüvvələrdən ibarət bir cəbhə formalaşdıracaqlar".

**ADP sədrinin sözlərinə görə, 2013-cü ildə Milli Şuranın yaranması zamanı Azərbaycandakı rusiyapərəst qüvvələr o proyektdə, Milli Şuranın təşkilatlanmasında iştirak eləməyib:** "Bu işdə Azərbaycandan kənardakı



qüvvələr, məsələn, Abbas Abbasov, bir qrup azərbaycanlı milyarder iştirak edirdi və Rüstəm İbrahimbəyov qabağa verilmişdi. Rüstəm İbrahimbəyovun vasitəsilə də əslində rusiyapərəst olmayan bir neçə ənənəvi tanınmış müxalifət partiyası prosesə cəlb edilmişdi. Bu dəfə isə ssenari bir qədər fərqli olacaq. Bu dəfə Moskva Azərbaycan daxilindəki rusiyapərəst qüvvələrin iştirakı ilə bir format yaradacaq və bu format-təşkilat 2013-cü ildə yaradılmış Milli Şuradan güclü olacaq. Çünki bu dəfə yaradılacaq təşkilatın Azərbaycan hakimiyyəti daxilində çox ciddi dəstəyi olacaq. Bu da daha ciddi hadisələrin baş verməsi üçün zəmin yaradacaq, hakimiyyətə daha böyük təzyiq olacaq. Budəfəki projedə ənənəvi müxalifət qüvvələri ya cəlb olunmayacaq, ya da iştirakları epizodik, köməkçi xarakteri daşıyacaq. 2018-ci il prezident seçkilərində AXCP və Müsavat Partiyası üzərində oyun qurulmayacaq. Daha çox hakimiyyət daxilində olan, hakimiyyətlə bu və ya başqa şəkildə əlaqəsi olan qüvvələrin iştirakı ilə qurulacaq budəfəki ssenari. 2013-cü ildə Rusiyada yaşayan rusperəst qüvvələr vasitəsilə bir neçə müxalifət partiyasını prosesə Rüstəm İbrahimbəyovun vasitəsilə cəlb etməklə Milli Şura formatı yaradılmışdı. Bu dəfə Rusiyanın hakimiyyət daxilindəki ruspərəstlər və onların uzantıları ilə apardığı işin nəticəsi olaraq meydana hansısa adda güc çıxacaq".

**"Belə bir projedə məqsəd sona qədər getməkdir, yoxsa yenə də hansısa mərhələdə Moskva prosesi dayandıracaq" sualını S.Cəlaloğlu belə cavablandırdı:** "Keçən dəfə Rusiya Azərbaycanda maraqlarını təmin etmək, nələrsə qoparmaq istəyirdi. Buna müəyyən qədər nail olduğu üçün də məlum ssenarini bəlli mərhələdə dayandırdılar, hakimiyyətlə anlaşdılar. Bu dəfə isə Rusiya Azərbaycanın siyasi kursunun dəyişilməsinin qarşısını almaq istəyir. Ona görə də bu dəfə asanlıqla razılaşmaq mümkün deyil. Rusiya axıra qədər gedə bilər. Bu baxımdan da düşünürəm ki, 2013-cü il prezident seçkilərindən fərqli bir mənzərə olacaq. Hakimiyyəti məcbur etməyə çalışacaqlar ki, Rusiyanın istədiyi istiqamətdə getsin. Əgər Azərbaycan hakimiyyəti Qərb dairələrinin dəstəyi ilə Qərb istiqamətində iş aparmaq istəyəcəksə, Moskva bunun qarşısını almaq üçün sonadək gedəcək. Qruplararası dava gedəcək".

**"2013-cü ildə qurulan məlum ssenaridə lider rolunda Rüstəm İbrahimbəyov seçilmişdi. Sizin haqqında yuxarıdakıları söylədiyiniz ssenarinin lideri kim olacaq" sualına isə Sərdar Cəlaloğlu belə cavab verdi:** "Təxmin edirəm kim olacaq, ancaq hələlik adını çəkmək istəmirəm".

**"Təxmin etdiyiniz həmin şəxs Azərbaycanda, yoxsa Rusiyada yaşayır, hazırda dövlət vəzifəsindədir, yoxsa ictimai vəzifədə, biznesdə, yoxsa müxalifətdə" suallarını isə ADP sədri bu cür cavablandırdı:** "Həmin şəxs Azərbaycanda yaşayır, hansı sahədə olduğunu isə hələlik demək istəmirəm. Bircə onu deyə bilərəm ki, Rusiyanın budəfəki "Rüstəm İbrahimbəyov"u çox güclü fiqurdur, Rüstəm İbrahimbəyovdan yüz dəfə güclüdür".

**Sərdar Cəlaloğlu açıqlamalarını baş verənləri, prosesin gedişatını izləyib gəldiyi nəticə ilə əsaslandırdığını vurğuladı:** "Mən nəzəriyyəçiyəm, başqa siyasətçilərdən fərqli olaraq hadisələrin həm də nəzəri modellərini özüm üçün hazırlayıram. Tutaq ki, qarşıdan prezident seçkiləri gəlir və iki variant var; ya status-kvonun dəyişməsi, ya dəyişilməməsi. Birinci variantda Rusiya heç bir problem yaratmaz. İkinci variant seçilsə isə ciddi manevələr, təzyiqlər yaradacaq. Son zamanlar Rusiyanın Ermənistanı gücləndirməyə başlaması, ÜAK-ın qeydiyyatının ləğvi, Rusiyadan azərbaycanlıların deportasiya edilməsi məsələsinin ortalığa atılması ondan xəbər verir ki, Rusiya status-kvonun dəyişdirilməsi ehtimalının olduğunu düşünür və indidən hərəkətə keçib. Rusiyanın Azərbaycana 3-4 təsir vasitəsi var: birincisi, Dağlıq Qarabağ problemi, ikincisi, Rusiyada yaşayan azərbaycanlılar, üçüncüsü, Azərbaycanda gücə sahib rusiyapərəstlər və etnik, dini azlıqlar. Gördünüz ki, artıq bu vasitələrin bir neçəsi işə salınıb. Düşünməyin ki, mənim dediklərim boş, havadan deyilmiş fikirlərdir. Özümdən nələrsə uydurmuram".

❑ **Etibar SEYİDAĞA**



# İŞİD-in silahını Britaniyaya tuşlamasının səbəbləri...

## **Təhlükəsizlik eksperti:** "Belə fikirlər səslənir ki, Britaniyanın Avropa Birliyindən imtinası onun hədəf seçilməsində rol oynayıb, amma..."

**Dünyada təhlükəli terror qruplarının artıq təkcə zəif, daxilində qarşıdurmalar olan dövlətləri deyil, dünya siyasətində güc sahibi olan böyük ölkələri də hədəfə aldıqları müşahidə edilir. Rusiya, Fransa, Almaniya, Britaniya kimi dünya nəhəngləri də İŞİD-in hədəfindədir.**

Ən son terror hədəfi olan dövlət Britaniyadır.

Britaniyanın Mançester şəhərində idman-konsert arenasında 22 nəfərin ölümünə səbəb olan terror aktı və Britaniya hökumətinin bundan sonra verdiyi bəyanatlar Avropa nəhəngi olan bu dövləti İŞİD-in silkələdiyini göstərir.

Britaniyanın baş nazir Tereza Mey təhlükəsizlik tədbirləri çərçivəsində ölkənin bəzi bölgələrinə əsgər yerləşdiriləcəyini deyib. Mey ölkədə terror təhdidinin ən yüksək səviyyə olan "kritik" səviyyəsinə yüksəldiyini və bunun yeni hücumların olmasının mümkün olması mənasına gəldiyini bəyan edib.

Xatırladaq ki, hələ 2016-cı ilin dekabrında İŞİD-in Böyük Britaniyanı terror aktlarının törədildiyi ölkələrin sırasına qatmağı planlaşdırdığı barədə xəbər yayılmışdı. Qeyd edilirdi ki, ən güclü hücum təhlükəsi 2017-ci ildə olacaq. Bu barədə "The Guardian" nəşrinin məlumatında bildirilirdi. Nəşr qeyd edirdi ki, Böyük Britaniyada 30 ay ərzində 11 terror aktının qarşısı alınıb. Onlardan bir neçəsi İŞİD-lə birbaşa əlaqəli olub.

Bəzi siyasi ekspertlər isə İŞİD-in yaranmasında əli olan dövlətlərdən birinin Britaniya olduğuna işarə edərək bildirirlər ki, indi İŞİD-in silahı məhz bu ölkəyə çevirməsi maraqlı suallar doğurur.

Bəziləri isə iddia edir ki, Britaniya hansısa addımlarına görə İŞİD-in əli ilə cəzalandırılır.

**Təhlükəsizlik üzrə ekspert İlham İsmayıl isə "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, İŞİD-in yaradılmasında Böyük Britaniyanın maliyyə dəstəyinin rol oynadığını söyləmək üçün əsaslar yoxdur. İŞİD-ə qoşulanların əksəriyyətinin ideoloji hazırlığı olmasa heç bir maliyyə dəstəyinin ciddi nəticəsi olmaz. İdeoloji hazırlıq olmadan heç kim yalnız pula görə özünü partlatmaz. Britaniyada son teraktda da canlı bombadan istifadə olunub. İŞİD-in arxasında konkret hansısa dövlətin dayandığını da söyləmək düzgün olmazdı:** "İŞİD yarandı və onun yaranmasına hansı dövlətdə yaşayan hansı zəngin ailələrin dəstək verdiyi bəllidir. Təbii ki, bəzi ölkələrin xüsusi xidmət orqanlarının da rolu var. Lakin onlar İŞİD yaranandan sonra dəstək verməyə başlayıblar, gizli əlaqələr qurublar. Lakin konkret heç bir dövlət, o cümlədən Britaniya İŞİD-in yaranmasında xüsusi təşəbbüsçü olmayıb. İŞİD Fransada da, Almaniyada da terror aktları həyata keçirib. İŞİD konkret bir dövlət tərəfindən birbaşa idarə olunan terror təşkilatı deyil. Terror təşkilatları yaranır. Sonradan bəzi dövlətlər onlardan istifadə etməyə çalışır. İŞİD də yarandı və sonradan, həmçinin indi bəzi dövlətlər onlardan istifadə edir. Xüsusilə Suriya ilə bağlı məsələlərdə hiss olunur ki, burada təkcə İŞİD-in yox, eyni zamanda supergüclərin təsirləri var. Bu, olmasaydı, İŞİD çoxdan darmadağın olub bitə bilərdi".

**Ekspertin fikrincə, İŞİD təhlükəsi təkcə Britaniya üçün deyil, əksər dövlətlər üçün real olaraq qalır:** "İŞİD-in hələ sıradan çıxarılmaması bəzi qüvvələrə sərf edir. Çünki Bəşər Əsədin, bölgənin perspektiv taleyi həll olunur. Ona görə də İŞİD-dən istifadə edirlər. Bəzi dövlətlər İŞİD-in ələ keçirdiyi neftayırma zavodlarından hələ də ucuz neft almaqda davam edirlər. Şərqi Avropa ölkələri isə İŞİD-ə silah satmaqda davam edirlər. Hər şeyin əsasında maliyyə dayanır, amma İŞİD-də həm də ideologiya var. Gücü həm də bundadır. Təhlükə hələ də qalır. Britaniyanı İŞİD-in yaradılmasında ittiham etmək mümkün və düzgün deyil".

**İlham İsmayıl İŞİD-in Britaniyanı hədəf seçməsində müxtəlif ehtimalların səsləndirildiyini, həmin ehtimalların bəzilərinin əsaslı görünmədiyini qeyd etdi:** "Belə fikirlər səslənir ki, Britaniyanın Avropa Birliyindən imtinası onun hədəf seçilməsində rol oynayıb. Amma bu ehtimalı irəli sürənlər yada salmalıdırlar ki, Avropa Birliyinin ən qatı tərəfdarı olan üzvlərindən Almaniya və Fransada da İŞİD terror aktı həyata keçirib. Britaniyada terror aktı o demək deyil ki, onu Avropa Birliyindən çıxdığı üçün qorxudurlar, cəzalandırırlar. Belə bir şey yoxdur".

❑ **Etibar SEYİDAĞA**

YENİ MÜSAVAT
N 111 (6725) 25 may 2017

**"Yeni Müsavat"ın "Bizim qonaq" rubrikasında bu dəfə müsahibimiz Neft Araşdırmalar Mərkəzinin rəhbəri İlham Şabandır. Onunla dünya enerji bazarındakı durum, neftin qiyməti, Azərbaycanın iri enerji layihələrinin gətirəcəyi mənfəət və sair barədə söhbətləşdik.**



# "İlin ikinci yarısında ölkədə vəziyyət stabilləşə bilər

## İlham Şaban: "Növbəti onillik Azərbaycanın qaz sənayesi üzərindədir və bu mif deyil"



**"İndi dünya enerji tələbatı az olan yeni avtomobillər, ağıllı ev alətləri, hətta ağıllı evlər, ağıllı şəhərlər yaradır. Nəticədə enerji məhsullarına olan tələbat 10 dəfədən artıq aşağı düşür"**

**"Ola bilər ki, ilin sonuna doğru neftin orta qiyməti 55-60 dəhlizinə keçsin"**

***- İlham bəy, dünya neft bazarındakı hazırkı durumu necə dəyərləndirirsiniz?***

- Hazırda dünya bazarında neftin qiyməti ilə bağlı yüksəliş qeydə alınır. Bu yüksəlişin də obyektiv səbəbləri var. Əsas səbəb odur ki, bir gün sonra OPEK-in Vyanada toplantısı keçirilir. Bu, OPEK və qeyri-OPEK ölkələrinin ənənəvi görüşüdür. Bu görüş ərəfəsində bazar iştirakçılarına çox pozitiv siqnallar göndərilir. Bu pozitiv siqnalların əsas məğzi odur ki, 2018-ci ilin I rübünün sonuna qədər yenidən hasilatın dondurulması ilə bağlı qərar qüvvədə qala bilər. Bu qərar 2016-cı ilin noyabr ayının 30-da qəbul edilmişdi. İkinci amil isə odur ki, ötən ilin dekabr ayının 10-da 11 ölkə bu razılaşmaya qoşulmuşdusa, Rusiyanın energetika naziri Aleksandr Novakın qeyd etdiyi kimi, daha 3-5 ölkə bu təşəbbüsə qoşula bilər. Bunların arasında Türkmənistanın, Norveçin və digər ölkələrin adını çəkmək olar. Norveç ötən gün rəsmi surətdə elan edib ki, mənim öz siyasətim var və hasilatımı heç bir ölkə ilə uzlaşdıra bilmərəm. Ancaq buna baxmayaraq, neft bahalaşmaqda davam edir. Əgər dünən neftin 1 barelinin qiyməti 53,86 dollar səviyyəsində idisə, bu gün 54, 25 səviyyəsində cərəyan edir. Bu isə o deməkdir ki, bazarda əhval-ruhiyyə yüksələn xətlə davam edir. Bazar iştirakçıları Vyanada keçirilən konfransdan daha çox pozitiv enerji alırlar.

***- Bəs proqnozlarınız necədir? OPEK-in toplantısında nələrə nail olunacaq?***

- Ötən 5 ayın yekunlarına nəzər salsaq, bazarda neft ehtiyatları ilə bağlı dinamikaya baxsaq görərik ki, həqiqətən həcmlər azalmağa doğru gedir. Bunun nəticəsidir ki, neftin orta qiyməti 4 ayın yekunlarına görə, 53,5 dollardır. 2016-cı ilin orta qiymətini götürsək, "Brent" markalı neftin orta qiyməti 43,5 dollardır. Qiymət artımı göz qabağındadır.

***- ABŞ-ın şist neft hasilatını artırması bu prosesə necə təsir edir?***

- Bəli, ABŞ hasilatı artırır. Əgər biz ötən ilin dekabr ayının sonundakı hasilatın həcmini götürsək, gündəlik hasilat 8,9 milyon bareldən yüksəkdir. Bu gün isə artıq 9,270 milyon bareldir. Proqnozlar belədir ki, hasilatın həcmi bu ilin 4-cü rübünün sonuna kimi 9,4 milyona, ilin sonuna kimi isə 9,5 milyon barelə kimi çata bilər. Ancaq bu, ABŞ üçün rekord deyil. Bu ölkədə 2014-cü ildə neftin qiymətinin ən yüksək olduğu dövrdə hasilatın həcmi 9,6 milyon barel olmuşdu. Dünya neft tarixində elə bir dövlət olmayıb ki, 4 il ardıcıl olaraq gündəlik hasilatı milyon bareldən artıq artırsın. ABŞ belə bir rekorda imza atıb. Bu da oradakı şist neft yataqlarında hasilatın artırılması hesabına baş verir. Şist neft yataqlarında hasilat çox sürətlə artır. Orada neftin maya dəyəri 189 dollar idisə, indi 40 dollara düşüb. Onlar hazırda çox yüksək dinamika nümayiş etdirirlər. Həftəlik hasilat daim artır. Amerika xam neftin ixracında maraqlı deyil. Bu ölkə emal sənayesinə görə dünyanın ən yüksək effektiv sənayesinə malik bir ölkədir. Onlara neftin istənilən qiyməti sərfəlidir. Çünki onlar nefti emal edib daha baha satırlar. 1 ton xam neftdən neft məhsullarının alınmasına görə dünyada ABŞ şirkətlərinin tayı-bərabəri yoxdur. Onlar neft məhsullarını ixrac edirlər. Ona görə də Amerika üçün xam neftin satılması o qədər də vacib deyil. Bu ölkə üçün neft almaq daha önəmlidir.

***- Neftin qiyməti ilə bağlı ilin sonuna doğru proqnozlar necədir? Azərbaycan üçün bu qiymətlər nə vəd edir? Ölkəmiz hasilatı azaldacaqmı?***

- Azərbaycan hasilatın azaldılması ilə bağlı üzərinə götürdüyü öhdəlikləri tam şəkildə yerinə yetirdi. Ölkəmiz ötən ilin oktyabrında neft hasilatının 35 min barel azaldılmasını üzərinə götürmüşdü. Bu ilin sonuna artıq neft hasilatı 781 min barel azalıb. Bu da artıq öhdəliyə əməl edilməsidir. Ancaq mart ayında gündəlik hasilat bundan daha aşağı idi. Aprel ayında hasilatımız yüksəldi və ona görə də belə bir rəqəm alındı. İndi ortalama hasilatın nə qədər olacağı iyun ayının nəticələrinə görə məlum olacaq. Faktiki olaraq cari il üçün hökumətin proqnozları bu idi ki, 2016-cı illə müqayisədə hasilatımız 1 milyon ton azalmalı idi. Bu, təbii azalmadır. Əvvəlki illərin proqnozlarına baxsaq, bu 2016-cı ildə baş verməli idi. Bizdə yeganə sektor neft -qaz sektorudur ki, hökumət burada mütəhərrik qərarlar qəbul edir. Çox çevik siyasət yürüdür. Bir məsələni təsəvvür edin ki, neft 54, 3 dollardan 25 faiz aşağı düşdü, qiymət ucuzlaşdı. Bundan başqa, gərək neftin həcmi də 1 milyon ton azalaydı. O zaman bu, Azərbaycana böyük zərbə olardı. Ona görə də Azərbaycan yanvar ayının sonunda şirkətlərlə qərar qəbul etdi ki, daha çox qazın neft quyularına vurulması məsələsi həll edilsin. Neftin aşağı düşmə tempi aradan qalxsın. Nəticədə hasilatın azaldılmasının qarşısı alınsın. İlin yekunları ilə bağlı rəqəmlər onu göstərdi ki, Azərbaycanın ən əsas hasilatçısı Azəri-Çıraq-Günəşli üzrə hasilat artdı. Əgər 2015-ci ildə gündəlik hasilat 634 min barel idisə, 2016-cı ildə 630 min barel oldu. Bu, çox yaxşı bir nəticə idi. Düzdür, Azərbaycana verilən səmt qazının həcmləri azaldı. Bunun əvəzində, neftin qiymətlərinin ucuzlaşmasına baxmayaraq Azərbaycanın Neft Fonduna gələn gəlirlər gözləntilərdən yüksək oldu. Azəri-Çıraq-Günəşlidən 5,1 milyard dollar vəsait daxil oldu. Ancaq əvvəllər güman edilirdi ki, bu 4 milyarddan bir qədər artıq ola bilər. Yəni əlavə qazanc əldə edildi. Hazırda neftin qiymətləri proqnozu üstələyir. Vyana toplantısı ilə bağlı bazara müsbət siqnallar daxil olur. Bazar da bunun əsasında uzun müddət ətalətlə neftin qiymətini sabit saxlayacaq. Ola bilər ki, ilin sonuna doğru neftin orta qiyməti 55-60 dəhlizinə keçsin. Söhbət "Brent" markalı neftdən gedir. "Azəri-Layt" markalı neft bundan 1 dollar bahadır. DSK-nın məlumatında deyilir ki, cari ilin 4 ayının yekunlarına görə, neft hasilatında 1 milyon 329 min 100 ton azalma var. Aprel ayında da artıq hasilat artmağa doğru gedir. Digər aylarda da stabilləşmənin olacağı gözlənilir. İllik təqribən 1,1-1,2 milyon ton səviyyəsində azalma olacaq. Ancaq qiymətlərin ötən illə müqayisədə 25 faizə yaxın artması ona gətirib çıxaracaq ki, ölkəmizin neftdən qazancı ötənilki səviyyədən artıq ola bilər. Hələ ki neftdən itirəcəyimiz qazanc yoxdur.

***- İlham bəy, Azərbaycanın qaz hasilatından əldə etdiyi gəlirlər nə zaman neftə alternativ ola biləcək?***

- ARDNŞ prezidenti Rövnəq Abdullayev də bildirib ki, 2025-ci ildən sonra qazdan əldə etdiyimiz gəlirlər neft gəlirləri ilə bərabərləşəcək. Ondan sonra isə qaz layihələrindən əldə edilən gəlirlər nefti üstələyəcək. Təbii ki, neftin qiyməti ilə qazın qiymətini bərabər tutmaq olmaz. Eyni həcmdə olan qazın və neftin qiyməti bərabər deyil, qazın qiyməti neftin qiymətinin yarısını təşkil edir. Azərbaycanda yaxın və orta perspektivdə neft həcmləri kifayət qədərdir. Biz hazırda 40 milyon ton neft hasil etdiyimizi nəzərə alsaq, 10 il sonra bu həcmlər təqribən 5-6 milyon ton azala bilər. Bəs necə ola bilər ki, o zaman qazın gətirdiyi gəlir nefti üstələsin. Beynəlxalq audit şirkətləri gəlirləri hesablayarkən ümumilikdə layihə üzrə hesablayırlar, kondensatdan gələn gəlirləri ayırmırlar. 2020-ci ildən sonra ki, "Şahdəniz-2" layihəsi Avropaya ayaq açacaq, 2021-2022-ci ildə hər il 6 milyon ton kondensat hasil edəcək. Şahdəniz layihəsinin kondensatdan gətirdiyi gəlir qazdan gətirdiyi gəlirin təqribən yarısına bərabər olacaq. Ancaq layihə qaz layihəsi olduğu üçün həmin gəlirlər də qaza aid edilir. "Abşeron" layihəsindən də yarım milyon ton kondensat hasil ediləcək. İkinci bir məsələ isə ondan ibarətdir ki, bu gün Azərbaycan Dövlət Neft Şirkəti qaz-kimya komplekslərinə iri investisiyalar qoyur. SOCAR-ın Karbomid zavodu və iki polimer zavodu tikiləcək. Bu zavodlarda xam qaz məhsula çevriləcək. Bu məhsul xam qazın qiymətindən 2,5 dəfə baha satılacaq. Bundan əlavə, Sumqayıtda böyük kimya parkı tikilir. Bu yarım fabrikatlar isə kimya parkı üçün əlavə baza olacaq və onun gətirdiyi əlavə dəyər də nəzərə alınmalıdır. Getdikcə genişlənən bu zənciri nəzərə alsaq, deyə bilərik ki, qazın gətirdiyi gəlir nefti üstələyəcək. Bizdə neftdə cəmi bir seqment var ki, o da xam neftdir. İkincisi isə emaldır və o da Heydər Əliyev adına Neft Emalı Zavodudur ki, 2020-ci ilə qədər təmir olunacaq. Orada avro 5 standartlarına uyğun neft məhsulları istehsal olunacaq, daxili bazara, qismən də ixraca yönəldiləcək. Ona görə də faktiki olaraq qaz layihələri Azərbaycanın gələcəyidir. Növbəti onillik Azərbaycanın qaz sənayesi üzərindədir və bu mif deyil.

***- İlham bəy, neft ehtiyatlarının gələcək nəsillərə saxlanılması nə dərəcədə doğru bir qərardır? Bir halda ki, dünyanın enerji balansında neft məhsulunun yeri getdikcə azalır?***

- Əgər biz 40 il əvvələ nəzər salsaq, görərik ki, ötən əsrin 70-ci illərində neftin dünya enerji balansında rolu 50 faizdən artıq olub. Hazırda isə 32 faizə düşüb. Təqribən 2035-ci ilə 20 faizə düşəcək. Bir məhsulun ki, dünya enerji balansında xüsusi çəkisi getdikcə azalır, o ənənəvi enerjinin üzərində dayanmağın mənası nədir? Gərək biznesi şaxələndirəsən. Dünyanın əksər neft şirkətləri artıq bizneslərini şaxələndiriblər. Onlar qeyd edirlər ki, 2050-ci ilə qədər ənənəvi enerji məhsulları neft və qaza tələbat olacaq. Ancaq bununla belə, milyardlarla vəsaiti alternativ enerjiyə qoyurlar. Alternativ enerji deyəndə külək və su dəyirmanları nəzərdə tutulmur. Bunlar köhnəlmiş üsullardır. İndi dünya enerji tələbatı az olan yeni avtomobillər, ağıllı ev alətləri, hətta ağıllı evlər, ağıllı şəhərlər yaradır. Nəticədə enerji məhsullarına olan tələbat 10 dəfədən artıq aşağı düşür. Alternativ enerji enerji səmərəliliyi üzrə innovativ texnologiyalar və onun tətbiqi paketləridir. Bunun nəticəsində 2015-ci ilin sonunda 550 milyonluq Avropanın neft məhsulları istehlakı 1985-ci il səviyyəsinə düşüb. Azərbaycanda isə heç kim bunu düşünmür.

***- Yaxın gələcəkdə Azərbaycan iqtisadiyyatını nə gözləyir?***

- Ötən il Azərbaycan iqtisadiyyatı üçün çökmənin dibi oldu. ÜDM 3,8 faiz aşağı düşdü. Postsovet məkanında buna görə sonuncu yeri tutduq, bunu hökumət dilə gətirməsə də, MDB Statistika Komitəsinin saytında qeyd olunub. Azərbaycan prezidenti də çıxışında vurğuladı ki, ötən il bizim üçün ağır oldu. Mən hesab edirəm ki, bu il ötən ilkindən yaxşı olacaq və ildən-ilə vəziyyətimiz düzələcək. Moody's beynəlxalq agentliyi proqnoz verib ki, gələn il bizdə vəziyyət ürəkaçan olmayacaq. Hökumətin proqnozu ÜDMP-nin 1 faiz artımıdır. Bu agentlik isə yenə də mənfi göstərici proqnoz edib. İndi 4 ayın yekununa görə, aşağı düşmə tempi 1,2 faizdir. Hələ ki vəziyyət ürəkaçan deyil. Ancaq ilin ikinci yarısında vəziyyət stabilləşə bilər. Ancaq bizim ixrac əməliyyatları və iri enerji layihələri ilə bağlı xərclərimiz həddindən artıq çoxdur. Bu ilin əvvəlində "Şahdəniz" və Cənub Qaz Dəhlizi layihələrinin xərclərinin 50 faizdən çoxu tamamlandı. Valyuta aparan xərclərimiz azalacaq. Gələn il artıq "Şahdəniz 2" layihəsi işə düşür, ilin ikinci yarısında Türkiyəyə ilk qazın ixracı planlaşdırılır. Bizə isə bir neçə il lazım olacaq ki, onun gəlirini hiss edək. Birdən-birə ortaya Beynəlxalq Bank kimi məsələlər çıxmasa, müsbətə doğru tendensiya ola bilər.

❑ **Nərgiz LİFTİYEVA**
**Fotolar Məğrur MƏRDİndir**

YENİ MÜSAVAT
N 111 (6725) 25 may 2017

Azərbaycan Respublikasının Prezidenti yanında
Kütləvi İnformasiya Vasitələrinin İnkişafına
Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan,
Dağlıq Qarabağ münaqişəsi haqqında
həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması,
Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**

# Azərbaycandan Xocalı aeroportu ilə bağlı çağırışlar - vurulmalıdır!!!

## İşğalçı ölkənin növbəti nəbz yoxlamasına kəskin reaksiyalar gəldi; **Elxan Şahinoğlu:** "Torpaq bütövlüyümüz bərpa olunmayana qədər nə Xankəndinə, nə də Xankəndindən uçuşlara imkan verməməliyik!"; **Qarabağ qazisi Rey Kərimoğlu:** "Xocalı aeroportunu bəribaşdan vurub sıradan çıxarmaq lazımdır"







**Beynəlxalq təşkilatların, xüsusilə də ATƏT-in Minsk Qrupu həmsədrlərinin loyal, bir sıra hallarda isə müdafiə xarakterli çıxışları işğalçı Ermənistanı daha çox aqressiv mövqe sərgiləməyə sövq edir. Elə bunun nəticəsidir ki, düşmən ölkə Azərbaycanın işğal olunmuş ərazisində yerləşən Xocalı aeroportunun istifadəyə veriləcəyi ilə bağlı xəbərlər yaymağa başlayıb.**

Məlumata görə, "Yell Extreme Park" layihəsi çərçivəsində aeroportdan 2 yerlik təkmotorlu təyyarələr havaya qalxacaq və Şuşaya qədər uçuşlar gerçəkləşdirəcək. "Xankəndi-Şuşa reysi ilə uçuşlar başlayacaq. Bu layihə ekstremal turizm həvəskarları üçün nəzərdə tutulub", - deyə "Yell Extreme Park" layihəsinin rəhbəri Tiqran Çibuxçyan məlumat verib.

Şübhə yox ki, bu, ermənilərin nəbz yoxlama əməliyyatıdır. İşğalçı tərəf kiçiktutumlu təyyarələri Xocalı aeroportuna gətirməklə Azərbaycanın reaksiyasını yoxlamaq, buna uyğun olaraq digər qərarlarını vermək istəyir. 2011-ci ildə 8 milyon dollara yenidən rekonstruksiya olunan Xocalı aeroportundan İrəvana uçuşların gerçəkləşəcəyi elan olunsa da, rəsmi Bakının sərt xəbərdarlığından sonra Ermənistan rəhbərliyi bu uçuşları həyata keçirməyə cürət etməmişdi. Üstəlik, o zaman Azərbaycan tərəfinin kəskin reaksiyası, xəbərdarlıqları, beynəlxalq qurumlara çağırışları İrəvanı bu həyasız addımından geri çəkilməyə vadar etdi.

Düzdür, bir sıra hallarda Sərkisyan oğrun-oğrun Qarabağa uçur və onun havada ikən vurulması barədə çağırışlar da səslənir. Ancaq hər halda, bu uçuşlar sistemli xarakter daşımır. Xocalı aeroportunun işə salınması halında isə artıq buraya uçuşların həyata keçirilməsi adiləşə, proseslərin davamında isə Azərbaycanın mülki uçuşların qarşısını güc yolu ilə almaq cəhdi beynəlxalq səviyyədə sərt reaksiya ilə qarşılana bilər. Erməni mətbuatı yazır ki, təxminən gün ərzində 20-yə qədər davam edəcək uçuşların təkcə Şuşaya deyil, həmçinin Kəlbəcər ərazisindəki alban monastırı istiqamətində gerçəkləşdirilməsi nəzərdə tutulur.

Hələlik rəsmi Bakı məsələyə reaksiya verməyib. Bir qayda olaraq Azərbaycan XİN mətbuat yazılarına deyil, rəsmi şəxslərin açıqlamalarına reaksiya verir. Ancaq şübhə etmirik ki, məsələ ciddiləşərsə, əvvəlki kimi, Bakının sərt reaksiyasının şahidi olacağıq.

Bu arada təəssüf doğuran bir xəbər də yayılıb. Belə ki, ABŞ Prezidenti Administrasiyası Konqres qarşısında 2018-ci maliyyə ilində öz büdcə tövsiyələrini açıqlayıb. "Trend"in məlumatına görə, administrasiyanın büdcəsinə əsasən, Ermənistana yardım 67 faiz - 20,4 milyon dollardan 6,8 milyon dollaradək azaldılacaq. Gürcüstan və Ukrayna üçün maddi yardımların müvafiq olaraq 58 və 70 faiz azaldılması nəzərdə tutulur. Azərbaycana yardım isə 90 faiz azaldılacaq. Ümumilikdə ölkəyə bir milyon dollar ayırmaq planlaşdırılır.

Ermənistan mətbuatı Azərbaycana yardımın 90 faiz azaldıldığı halda, Ermənistana güzəşt edilməsini önə çəkib. Əslində Vaşinqton işğalçı Ermənistana sanksiya tətbiq etməli olduğu halda, ona yardımın limiti ilə bağlı daha çox güzəşt edir. Bundan əvvəl də dəfələrlə işğalçı Ermənistan və Qarabağ separatçılarına göstərilən maliyyə yardımının həcminin 2 milyardı ötməsinə Bakıdan kəskin etirazlar olub. Azərbaycana qarşı illər boyu "907-ci düzəliş" adlı sanksiya qərarını qüvvədə saxlayan ABŞ həmsədrlik prinsiplərinə zidd addım ataraq işğalçını maliyyələşdirib. Həmin vəsaitlər isə dolayısı ilə Azərbaycanın əleyhinə yönəlib. Belə olan təqdirdə təbii ki, erməni işğalçıları Tərtəri ələ keçirmək planını icra etməyi düşünəcək qədər həyasızlaşacaqdılar. Üstəlik də Rusiyadan Azərbaycana qarşı təzyiqlərin artması, bugünlərdə Ermənistana növbəti silah partiyası və vertolyotların göndəriləcəyi barədə anonsların edilməsi şəraitində işğalçının Xocalı aeroportunu istifadə açıqlamaları yayması təsadüfi deyil.

Şübhə yoxdur ki, işğalçı ölkə idarə olunur və məqsəd Azərbaycana daha çox təzyiqlərin edilməsidir. Ancaq Azərbaycanın siyasi və hərbi ekspertləri bizim qan yaddaşımız olan, dəhşətli soyqırım aktının törədildiyi Xocalıya uçuşların rahat şəkildə həyata keçirilməməsindən ötrü ən sərt addımlara gedilməsini zəruri sayırlar.

**"Hiss olunur ki, Ermənistan hakimiyyəti işğal altındakı Xocalı hava limanını işə salmaq üçün növbəti plan hazırlayıb. Hava limanını yenidən qursalar, təmirə pul xərcləsələr də, illərdir çalışdıra bilmirlər. Çünki beynəlxalq birlik bu məsələdə Azərbaycanın mövqeyini haqlı sayır". Bu politoloq Elxan Şahinoğlu "Yeni Müsavat"a açıqlamasında bildirdi. Ekspert xatırladtı ki, Beynəlxalq Aviasiya Təşkilatı da Dağlıq Qarabağın səmasının Azərbaycana aid olduğunu vurğulayır və bütün uçuşların rəsmi Bakının icazəsi ilə mümkün olduğunu təsdiqləyir:** "Bundan başqa, separatçılar onu da bilirlər ki, belə olan halda Azərbaycan hərbi hava qüvvələrinin hava məkanımızı pozan və əmrlərə tabe olmayan istənilən təyyarəni vurmaq hüququ var. Ona görə də Ermənistan hakimiyyəti Xocalı hava limanından istifadə etməkdən qorxur. Buna baxmayaraq, hansısa yol axtarırlar ki, hava limanı işlətsinlər. Elə Xankəndi ilə Şuşa arasında təkmotorlu təyyarələrin uçuşa qalxması haqqında xəbərlər də bu qəbildəndir. Bizim və beynəlxalq aləmin nəbzini yoxlamaq istəyirlər. Bu, sırf təxribatdır".

E.Şahinoğlu qeyd etdi ki, onun uşaqlığı Ağdam-Şuşa yollarında keçib və o yerlərə yaxşı bələddir: "Xankəndindən Şuşaya bir neçə kilometrlik məsafə var. Kimə desən ki, Xankəndindən Şuşaya təyyarə uçacaq, buna gülər. Sadəcə, bu cür reyslərlə daxili uçuşları həyata keçirmək istəyirlər ki, guya Bakının əlində bu təyyarələri vurmaq üçün əsası olmasın. Yəni demək istəyirlər ki, bölgədən xaricə uçuşlar həyata keçirmirlər ki, təyyarələr vurulsun. Ancaq məsələnin məğzi dəyişmir. Şuşa işğal altındadır və ora hardan olursa-olsun uçuşlar həyata keçirilə bilməz!"

**Politoloq məsələyə qəti münasibəti zəruri sayır:** "Fikrimcə, Azərbaycan XİN bu qanunsuzluğu bir daha beynəlxalq ictimaiyyətin və Ermənistan hakimiyyətinin diqqətinə çatdırmalı və nəticələr haqqında xəbərdar etməlidir. Nə vaxt münaqişə həll olunar, Dağlıq Qarabağ və digər torpaqlarımız üzərində suverenliyimiz bərpa olunar və buna müvafiq sülh anlaşması imzalanar, bundan sonra Xankəndindən İrəvana, Moskvaya və başqa yerlərə uçuşlar həyata keçirmək olar. Torpaq bütövlüyümüz bərpa olunmayana qədər isə nə Xankəndinə, nə də Xankəndindən uçuşlara imkan verməməliyik!"

**Ekspert hesab edir ki, burada Rusiya amilinin olub-olmaması Bakının addımlarına təsir etməməlidir:** "Birinci növbədə XİN-in sərt açıqlamasına ehtiyac var və həmin açıqlamada Ermənistanın hərbi-siyasi müttəfiqinə də xəbərdarlıq ünvanlanmalıdır ki, vassalını təxribatlardan çəkindirsin, yoxsa özləri istəmədikləri halda müharibə başlaya bilər".

**Sabiq hərbi birlik komandiri, ehtiyatda olan general-leytenant Yaşar Aydəmirov bununla bağlı bildirib ki, ölkəmizin hava hücumundan müdafiə sistemləri tək Xocalı aeroportunda deyil, bütün Dağlıq Qarabağ ərazisində olan uçuş aparatlarını məhv etmək imkanına qadirdir (azvision.az). General qeyd edib ki, erməni KİV-ləri belə məlumatlar yaymaqla Azərbaycanı qıcıqlandırmağa çalışır:** "Dəfələrlə qeyd olunub ki, uçuşlar həyata keçirilsə, Azərbaycan tərəfi tədbirlər görəcək. Buna baxmayaraq, müxtəlif zamanlarda belə təxribatçı fikirlər yayıblar. Həmin ərazilər Azərbaycanındır və Hava Hücumundan Müdafiə Qoşunları onları məhv etmək imkanına malikdir. Ölkənin həm siyasi, həm də hərbi rəhbərliyi bunu bir neçə dəfə bəyan edib".

Qarabağ müharibəsi veteranı Rey Kərimoğlu da işğalçıya sərt reaksiyanı zəruri sayır: "Ermənilər işğal elədiyi bizim torpaqlarda qızıl çıxarır. Biz də durub baxırıq. Azərbaycan bəyanat verməlidir ki, oranı vuracağam. Və nəticəsi olmasa, oranı vurmaq lazımdır. Vurmasan belə, bir köpəyoğlu gedib orada işləməz! Cəbrayılda, Şuşada ev tikir, erməniləri məskunlaşdırır. Oranı vurmaq lazımdır. Onda bizim işğal altındakı ərazilərdə tikintini dərhal saxlayacaqlar! Qondarma dövlətlərində - Xankəndində seçki keçirir, öz əzizlərinin məzarını ziyarətə gedən dinc vətəndaşlarımıza məhkəmə qurur. Xankəndini vurmaq lazımdır. Ondan sonra bir də seçki keçirsə, mən pis adamam... Bu qədər silahı niyə almışıq?! Atmaq lazımdır, vurmaq lazımdır. Kimsə ciddi etiraz da edə bilməyəcək. Niyə? Çünki o ərazilər işğal altındadır. Bunu BMT, o cümlədən ABŞ da, Fransa da, Rusiya da təsdiq edib. Ermənilərlə atəşkəs sazişində yazılmayıb ki, onlar orada nə istəsə edə bilər. Atəşkəs imzalanıb, ərazimizin istismarı yox. O cümlədən də Xocalı aeroportunu bəribaşdan vurub sıradan çıxarmaq lazımdır. Belə olmasa, konkret nəticə olmayacaq".

Bu arada ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin mandatına uyğun olaraq, mayın 25-də Tərtər rayonu ərazisində yerləşən Azərbaycan və Ermənistan qoşunlarının qarşıdurma xəttində növbəti monitorinqin keçirilməsi planlaşdırılır. Müdafiə Nazirliyinin verdiyi xəbərə görə, monitorinqi Azərbaycan tərəfindən şəxsi nümayəndənin səhra köməkçiləri Gennadi Petrika və Martin Şuster, Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmiş və nəzarət olunan Azərbaycan ərazisində şəxsi nümayəndənin səhra köməkçiləri Mixail Olaru və Saymon Tiller keçirəcəklər. Ondan sonra ATƏT-ın fəaliyyətdə olan sədrinin, daha sonra isə həmsədrlərin regiona səfəri planlaşdırılır. Ancaq bu səfərlər təcavüzə son qoyulmasına yox, böyük savaşın başlanmamasına hesablanıb, təəssüf ki. Əks təqdirdə, Ermənistanın Xocalı aeroportu ilə bağlı sərsəmləmələrinə ilk reaksiya ATƏT-dən gələrdi...

# Xaricdə yaşayanlar və xaricə köçənlər... qalanlarda niyə qıcıq doğurur?

## Psixoloqlar sübut edir - qəliblər təkcə həsəd hissi yaratmır

**Son günlər Green Card (Amerikada yaşamaq üçün yaşıl kart) udanların kimliyi cəmiyyətə məlum olduqca bununla bağlı müzakirələr artmağa başlayıb. Daha doğrusu, Amerikada yaşamaq fürsəti əldə edənlər burada qalanlar tərəfindən qıcıqla qarşılanır. Məsələn, bir neçə gün boyunca müğənni Elariz Məmmədoğlunun Green Card udması və Amerikaya köçəcəyi ilə bağlı xəbərlər yayıldı. Müğənni özü bu informasiyanı təkzib etsə də, qısa müddət sonra müraciət edənin onun özü yox, həyat yoldaşı olduğu üzə çıxdı.**

Amma bununla belə, cəmiyyətdə bu faktla bağlı qıcıqlı reaksiyalar həddən artıq çox idi. İnsanlar müğənninin Azərbaycanda yaxşı yaşaya bildiyi halda, hansı səbəbdən ölkəni tərk etməsi məsələsini müzakirə etdilər, onun bu addımını tənqid atəşinə tutdular.

Fakt isə onu göstərir ki, təkcə Amerikaya yox, Avropanın istənilən ölkəsinə mühacirət edən şəxslərə qarşı da eyni reaksiya keçərlidir. Yəni onların həyatını hansısa formada yaxşılaşdırmaq üçün yeni məkan - təbii ki, Azərbaycandan daha yaxşı məkan - seçmələri yerdə qalanlarda qıcıq doğurur. Bu, daha çox sosial şəbəkədə özünü göstərir. Mühacirətdə olan insanların ölkə barədə dedikləri ən kiçik tənqid belə qıcıqla qarşılanır. Böyük əksəriyyət ona "belə çox bilirdin, ölkədə qalardın" tipli cavablar verir. Hətta hər kəsin düşündüyü mətləbləri söyləsə belə, neqativ reaksiya doğurur.

Psixoloqlar isə müəyyənləşdiriblər ki, insanların içində daim yerdəyişmə arzusu olur. Bu arzu bir çox hallarda səyahət, evin, iş yerinin dəyişdirilməsi formasında gerçəkləşir. Amma daha böyük mənada yerdəyişməni cəsarəti olanlar həyata keçirir. Mühacirət bir çox hallarda cəsarət işidir. Bunu evini, həyatını, gələcəyini dəyişdirmək istəyənlərin ata biləcəyi ən mühüm addım da adlandırmaq olar.

Azərbaycan kimi ölkələrdə yaşayanlar üçünsə sinif adlamaq, daha yüksək səviyyədə yaşaya bilmək üçün mühacirət son illərin ilkin şərtlərindəndir. Təsəvvür edin ki, çox adam bunu düşünür və kimlərsə cəsarətini toplayıb, böyük riskə girir, sonucda isə qazanır. Psixoloqların fikrincə, qəliblər - onların hansı sahədə qalib olmasının xüsusi əhəmiyyəti yoxdur - digərlərində ciddi qıcıq doğurur.

Green Card hekayəsi də bunun kimidir. Amerika bir çoxlarının xəyallarını bəzəyir. Orda hər kəsə iş fürsətinin təqdim edilməsi, hansısa formada sıfırdan başlayıb yüksəlmə şansının olması çoxlarını şirnikləndirir. Təbii ki, bu məqamda reallığı da yaddan çıxarmaq olmaz. Azərbaycanda olduqca yaxşı səviyyədə pul qazanmaq imkanı olan, eləcə də cəmiyyətdə yeri, statusu olan şəxslər üçün mühacirət ciddi travmadır. Onlar köçdükləri ölkədə hər şeyə sıfırdan başlamaq məcburiyyətindədilər. Necə deyərlər, Azərbaycanda biznesmen olan şəxsin Amerikada taksi sürücüsü kimi işləməsi də mümkündür, küçə süpürgəçisi kimi də. O baxımdan da xaricə köçmə, Amerikada yaşama fürsəti qazanmaq təkcə qibtə edilməsi situasiya deyil. Bu, həm də enerjini, iradəni toplayıb, bütün çətinliklərə sinə gərmək, hər şeyə sıfırdan başlamaq, körpə kimi iməkləmək deməkdir.

Bilməyənlər üçün xatırladaq ki, ABŞ dövlətinin ildə 1 dəfə keçirdiyi pulsuz lotereya proqramına müraciət etməklə onu əldə etmək mümkündür. Bu proqrama qoşulmaq Amerikada *(və ya xaricdə)* qanuni şəkildə yaşamağın və ya işləməyin ən asan yoludur. Belədə isə Green Card insana çox şey qazandırır. Bunlardan biri ailə üzvlərinizlə birlikdə, Azərbaycan vətəndaşlığınızı itirmədən Amerikada daimi yaşamaqdır. Digəri Amerikada qanuni şəkildə istədiyiniz işdə işləmək və ya oxumaq, eləcə də Azərbaycanı Amerikada tanıtmaq imkanı qazanmaqdır.

Müraciət edə biləcək şəxslərin kimliyi ilə bağlı hər hansı məhdudiyyət yoxdur. 17 yaşdan yuxarı hər kəs (və ya orta məktəbi bitirmiş hər kəs) bunun üçün müraciət edə bilər. Üstəgəl, müraciət etmək üçün ingilis dili tələb olunmur.

Konqresin təsdiqlədiyi Müxtəliflik İmmiqrant Viza Proqramı hər il Dövlət Departamenti tərəfindən idarə olunur. Milliyyət və İmmiqrasiya Aktının 203-cü bölməsi (c) Birləşmiş Ştatlara immiqrasiya göstəriciləri tarixən aşağı olan ölkələrin vətəndaşları "müxtəliflik immiqrantları" adlanan viza ilə (DV) təmin edir.




Lotereyada seçilmiş ərizəçilər müxtəliflik vizası almaq üçün sadə, ancaq sərt tələblərə uyğun gəlməlidirlər. Kompüter ərizəçilər arasında təsadüfi seçim aparacaq.

Vizalar altı coğrafi region üzrə aparılır və hər bir regionda heç bir ölkə bir il ərzində mümkün DV lotereyalarının yeddi faizindən çoxunu ala bilməz.

Bu, işləmək üçün xarici ölkələri, xüsusən də Amerikanı "gözəltı" edən vətəndaşlarımız üçün ciddi informasiya sayılır.

Müraciət üçün şərtlərə gəlincə, Green Card almaq istəyən şəxsin ən azı məktəb dərəcəsi və ya 2 illik iş təcrübəsi olmalıdır. Fərdi müraciət üçün yaş məhdudiyyəti 18-ə qədərdir. Yəni 18 yaşdan aşağı olanların valideynləri müraciət edə və ərizədə uşaqlarının da adını göstərə bilər.

Amerikada yaşayan hər bir adama yaşamaq və işləmək icazəsi verilir. Ona təcili tibbi yardım lazım olanda edilir. Amma ABŞ sosial yardımlar ölkəsi deyil. Sosial yardımlar ölkə vətəndaşları üçündür. Çox adam düşünür ki, Green Card alsa, ABŞ hökuməti onu işlə təmin edəcək. Bu, yanlış yanaşmadır. Creen Card udmaq Amerikada leqal şəkildə iş tapa, yaşaya bilmək icazəsi deməkdir. Bunun özü elə böyük bir təminatdır.

Lotereya qaliblərini xüsusi kompüter proqramı təsadüfi yolla seçir. Kompüter proqramının seçdiyi ərizəçiləri sonradan ABŞ-ın regional konsulluqları müsahibəyə, yəni canlı ünsiyyətə dəvət edir. Burda seçim aparılmır, sadəcə, ərizəçinin Green Card lotereyasında qeydiyyatdan keçmək üçün verdiyi məlumatlar əyani şəkildə yoxlanır.

Green Cardda qeydiyyatdan keçmək üçün ödəniş tələb olunmur. Amma ingilis dilini bilməyən və ya hansısa səbəbdən anket-ərizəni doldurmaqda çətinlik çəkənlər yardım üçün firmalara müraciət edir ki, bu zaman da xidmət haqqı ödənilir.

Amma bu məsələdə saxtakarlıqla məşğul olanlar da var. Saxta şirkətlər ərizəçilərə yazırlar ki, ABŞ hökuməti qeydiyyat üçün hansısa məbləğdə pul istəyir. Və ya reklam edirlər ki, 1000 dollar ödəyin, sizə Green Card qazanmağa təminat verək. Dövlət Departamenti də bəyan edir ki, heç kim, hətta departament rəsmisi də sizə bu təminatı verə bilməz. Bayaq dediyim kimi, seçim xüsusi kompüter proqramı ilə təsadüfi aparılır.

Anketi ABŞ Dövlət Departamentinin saytına daxil olmaqla əldə etmək olar. Anketi o saytdan doldurmaq lazımdır. Hansısa şirkət sizə Green Card almaq üçün yardımını təklif edirsə, bu, o deməkdir ki, onlar anketin doldurulması üçün texniki yardım edirlər. Sonradan kod göndərilir. Bəzi şirkətlər bunu edir. Bu xidmətin qiyməti 50 dollardır.

❑ **Sevinc TELMANQIZI**




## Azərbaycan İnvestisiya Şirkəti "Texnikabank"a yatırdığı 6 mln. manatı qaytara bilmir

**"Azərbaycan İnvestisiya Şirkəti" ASC (AİŞ) tərəfindən 21 iyul 2015-ci il tarixdə 5 mln. manat və 31 iyul 2015-ci tarixdə 1 mln. manat olmaqla, cəmi 6 mln. məbləğində vəsait 3 ay müddətinə illik 6%-lə "Texnikabank" ASC-də müvafiq hesablarda depozitə yerləşdirilib. "APA-Economics" xəbər verir ki, bu barədə Hesablama Palatasının rüblük bülletenində qeyd edilən məlumatda deyilir.**

Bülletendə qeyd edilib ki, depozit müqaviləsinin şərtlərinə əsasən, ödənilməli olan depozit faizləri vaxtında təmin edilmədiyinə görə AİŞ müqavilə üzrə bütün öhdəliklərin icra edilməsi ilə əlaqədar olaraq, 8 sentyabr 2015-ci il tarixdə banka məktubla müraciət edib. Qeyd edilən müraciətin tələbləri yerinə yetirilmədiyinə görə AİŞ 16 sentyabr 2015-ci il tarixli məktubla depozitə yerləşdirilən vəsaitlərin (100%) vaxtından əvvəl geri qaytarılmasını tələb edib.

Vəsaitlərin qaytarılması bank tərəfindən təmin edilmədiyi üçün AİŞ 7 dekabr 2015-ci il tarixdə 2 saylı Bakı İnzibati-İqtisadi Məhkəməsinə depozit hesablarına daxil edilmiş əmanətlərin qaytarılması haqqında iddia ərizəsi ilə müraciət edib. Məhkəmənin 23 fevral 2016-cı il tarixli qərarı ilə "Texnikabank"a təyin edilən ləğvedici "M.M.M. Perfect Consulting" MMC-yə 6 mln. manat əmanətin və bank tərəfindən ödənilməli olan faiz ödənişləri üzrə borcların (95 min manat), cəmi 6 mln. 95 min manat məbləğdə vəsaitin ödənilməsində dəstək göstərilməsi barədə 17 fevral 2016-cı il tarixli məktubla müraciət edib.

Bülletendə qeyd edilib ki, hazırkı tarixə həmin məbləğin şirkətə qaytarılması təmin edilməyib.

Sənədin müəllifləri qeyd edir ki, 2015-ci ildə AİŞ-in vəsaitinin banklara qoyulmuş depozit hesabına əldə etdiyi orta faiz gəlirləri 1 mln. 375,4 min manat olduğu halda, depozitə qoyulmuş həmin vəsaitlərdən bir hissəsinin, yəni əsas borc və faiz üzrə 6 mln. 95 min manat (gəlirdən 4,4 dəfə çox) məbləğin şirkətə vaxtında qaytarılmaması bu məbləğin təminatı üzrə böyük risklərin (ümidsiz borc) yaranması ilə nəticələnib.

YENİ MÜSAVAT
N 111 (6725) 25 may 2017

**2016-cı ildə prezident İlham Əliyev məmurlara xarici avtomobillərdən düşüb, Naxçıvan Avtomobil Zavodunun (NAZ) istehsalı olan "LİFAN"a minməyi tövsiyə etdi. Həmin ərəfədə bir çox məmurlar açıqlama verərək, yerli istehsal olan avtomobilə keçəcəyini bildirsə də, zavodun fəaliyyəti ilə bağlı məlumatlardan görünür ki, məmurlar sözlərini əmələ çevirməyiblər.**

# Məmurlarımız hansı avtomobildə gəzir...

## Ölkədə vəzifəli şəxslərin xidməti avtomobilləri daha çox alman istehsalıdır

Belə ki, ötən ay Dövlət Statistika Komitəsinin rəsmi məlumatında qeyd olunub ki, Naxçıvan Avtomobil Zavodu (NAZ) istehsalı bir neçə ay öncə dayandırıb. Komitənin hesabatına görə, bu il ərzində ölkədə avtomobil istehsal edilməyib.

Son məlumata görə, sözügedən zavod may ayında məhdud sayda avtomobil istehsalına başlayıb.

Öncə onu qeyd edək ki, dünyada məmurların xidməti avtomobilləri ilə bağlı fərqli təcrübələr var. Avtomobil istehsalı ilə məşğul olan inkişaf etmiş ölkələrdə məmurlar yerli istehsala üstünlük verirlər. Lakin bu, heç də ən son model, bahalı avtomobil olmur. Hətta həmin ölkələrin səfirliklərində də xidməti maşınlar öz dövlətlərinin istehsalı olur.

Məsələn, Gürcüstanda heç bir məmur 15 min avro dəyərindən yuxarı xidməti avtomobilə minə bilməz. 2012-ci ildə isə Tiflis meriyasının sərəncamında olan avtomobillərin əksəriyyəti hərracda satıldı və əldə edilən vəsait şəhərin büdcəsinə daxil oldu.

Rusiyada da bu kimi məhdudiyyətlər var. Belə ki, şimal qonşumuzda məmurlar 2 mln. rubldan bahalı xidməti avtomobilə sahiblənə bilməz. Eyni qayda Çində də mövcuddur. Bu ölkədə məmurlar 20 min avrodan bahalı avtomobil istifadə edə bilməzlər. Həmçinin qadağa avtomobilin mühərrikinə də aiddir. Belə ki, avtomobilin mühərrikinin həcmi 1,8 litrdən artıq ola bilməz. Ölkədə məmurlar yalnız yerli istehsal olan avtomobillərdən istifadə etməlidir.

İtaliyada da məmurlar yalnız yerli istehsal olan avtomobillərdən istifadə edir. Fransada da vəziyyət eynidir. Ölkə başçısı daxil olmaqla, bütün məmurlar yerli istehsaldan olan avtomobillərdən istifadə etməlidir.

Dünyanın ən qüdrətli ölkəsi olan ABŞ-da da məmurlara mühərrikin həcmi böyük olan avtomobillərdən istifadə qadağan edilib. Bu ölkədə məmurlar kompakt qənaətcil avtomobillərdən istifadə edir. Həmçinin avtomobillərin qiyməti ilə bağlı da məhdudiyyət var. Belə ki, prezident istisna olmaqla, başqa məmurların istifadəsində olan avtomobilin qiyməti 20 min dolları ötməməlidir. İstirahət günlərində məmur xidməti avtomobildən istifadə edərsə, bunun xərcini öz cibindən ödəməlidir. Bu ölkədə də əsas üstünlük yerli avtomobillərə verilir. Digər inkişaf etmiş ölkələrdə olduğu kimi, ABŞ-da senator və konqresmenlərin xidməti avtomobilləri yoxdur.

Bəzi ölkələrdə isə məmurlar, ümumiyyətlə, avtomobildən istifadə etməyərək, velosiped sürürlər. Məsələn, Danimarkada parlamentin spikeri başda olmaqla, bütün deputatlar işə velosipedlə gəlir. Velosipeddən istifadə edənlər arasında yapon məmurları da var. Yaponiyada ümumiyyətlə, məmurlar xidməti maşınlardan istifadə etmir. Burda əsas məqsəd təbiətin mühafizəsidir. Estoniya kimi ölkələrdə isə məmurlar avtomobillərini xüsusi şirkətlərdən kirayə götürürlər.



Bəs Azərbaycanda vəziyyət necədir?

Azərbaycanda məmurların əksəriyyətinin xidməti avtomobili mövcuddur. Ölkədə daha çox Almaniya istehsalı olan avtomobillərə üstünlük verilir. Xüsusilə də bu, bahalı "BMW"lərdir. Lakin statistikaya baxdıqda görmək olur ki, neftin qiymətinin ucuzlaşması, manatın dollara nisbətdə dəyərdən düşməsi bu məsələyə də təsir edib. Belə ki, 2012-ci ildə yayılan statistikaya görə, 2006-cı ildən 2011-ci ilədək Azərbaycanda xidməti avtomobillərin alınmasına dövlət büdcəsindən 400 milyon manat vəsait xərclənib. 2016-cı ildə nəqliyyat vasitələrinin alınması üçün dövlət büdcəsindən cəmi 6.5 milyon manat ayrılıb. Statistik rəqəmlərdən aydın olur ki, ölkədə məmurların istifadə etdikləri avtomobillərin qiyməti 70-100 min manat arasında dəyişir. Yalnız məmurların xidməti avtomobillərinə çəkilən xərclər təkcə onların alınması zamanı xərclənən vəsaitlə bitmir, il ərzində də bu avtomobillərin təmiri üçün büdcədən pul ayrılır...

Milli Məclisin 11 komitə sədrinin xidməti avtomobili "Mercedes E-Class"dır. Onların əvvəlki xidməti avtomobilləri "Nissan Maxima" olub. Bu avtomobillərin qiyməti 80-100 min manatdır. İcra başçılarının əksəriyyəti isə "BMW"lərdə gəzirlər. SOCAR-ın rəhbər şəxslərinin xidməti avtomobilləri "Audi" və "Mercedes"dir.

Nazirlərimiz də əsasən "Mercedes" və "BMW"lərdən istifadə edir.

**İqtisadçılar hesab edirlər ki, xidməti avtomobillə bağlı Azərbaycan dünya təcrübəsindən yararlanmalıdır. İqtisadçı ekspert Natiq Cəfərli bildirib ki, bir zamanlar bu barədə heç bir nəzarət yox idi:** "Demək olar ki, bir neçə il öncə bütün dövlət və hökumət idarələrinin avtomobil parkı dəyişdirildi və əsasən alman maşınlarına, xüsusilə də "BMW"lərə üstünlük verildi. O zaman da Azərbaycanda həmin şirkətin rəsmi distribütoru sabiq sosial müdafiə naziri idi. Neft pulları ölkəyə axdığı üçün bu xərclərə ciddi fikir verilmirdi. Ancaq son dövrlər xarici avtomobillərin alışı xeyli dərəcədə azalıb. Xarici avtomobillərdən asılılığımız onsuz da davam edəcək. Çünki ölkədə yerli avtomobil istehsalı yoxdur. Lakin xarici ölkələrdə olduğu kimi, biz də bununla bağlı müəyyən limit qoymalıyıq ki, misal üçün, məmurun xidməti avtomobilinin qiyməti 20 min manatdan baha olmasın. Ölkədə istehsal olunan "LİFAN" avtomobillərinin də demək olar ki, bütün detalları xaricdən, xarici valyuta ilə alınırdı. Buna görə də həmin avtomobillərin istehsalı Azərbaycan üçün heç də ucuz başa gəlmir. Keyfiyyət və servis də çox aşağı səviyyədə olduğundan bu avtomobillər baha başa gəlir. Ona görə də dövlət qurumları və vətəndaşlar xarici avtomobillərə üstünlük verirlər. Manatın dollara nisbətdə ucuzlaşması nəticəsində gətirilən detallar da bahalaşdığı üçün zavodun fəaliyyəti dayandırılıb. Bu baxımdan, deyə bilərəm ki, "Naz-Lifan"ın perspektivi yoxdur. Digər ölkələrdən fərqli olaraq Azərbaycanda detalların heç bir faizi də istehsal olunmur. Ona görə də yerli istehsalın inkişaf etdirilməsi üçün illər lazımdır".

❑ **Əli RAİS**

# "Leş ət" mafiyasını niyə durdurmaq olmur?

## Murdar cəmdək satanlara qarşı daha bir əməliyyat keçirildi; icraçılar tutuldu, sifarişçilər yenə kənarda qaldı

**"Leş ət" mafiyasına qarşı daha bir əməliyyat baş tutub. 1 tona yaxın at ətini satmaq istəyən iki şəxs Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsi əməkdaşlarının əlinə keçib. Əməliyyat Balakən rayonunda baş tutub. Mənşəyi məlum olmayan külli miqdarda ətin satılması barədə əməliyyat məlumatı daxil olub. Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən verilən məlumata görə, Baş İdarə əməkdaşları tərəfindən həyata keçirilən təxirəsalınmaz tədbirlər nəticəsində rayon sakini Səddam Muradov və qohumu Kənan Göylərov çəkisi 1 tona yaxın mənşəyi məlum olmayan əti satmaq istəyən zaman saxlanılıblar.**



**Saxlanılan şəxslər ifadələrində müvafiq dövlət qurumlarının nəzarətindən kənar at ətinin tədarükü ilə məşğul olduqlarını, Balakən, eləcə də ətraf bölgələrdən əldə etdikləri xəstə və ölü atları kəsərək həmin ətləri mal əti adı altında satmaq istədiklərini bildiriblər. Kəsilmiş at cəmdəklərindən götürülən nümunələr laborator müayinəyə göndərilib. Ekspert rəyi ilə müəyyən edilib ki, aşkar edilən ət isitifadəyə tam yararsızdır və insan sağlamlığına ciddi təhlükə yarada bilər. Qeyd edilən faktla bağlı toplanmış materiallar prosessual qərar qəbul edilməsi üçün Baş İdarənin İstintaq Şöbəsinə göndərilib.**

Leş at ətini mal əti adı altında satmaq aydındır ki, mümkün deyil. Çünki alıcıların böyük əksəriyyəti mal ətini digər ətlərdən ayıra bilir. Buna görə də tutulanların at ətlərini mal əti adı altında bazarda 1-2 kiloqram şəklində istehlakçılara satmaq niyyətində olmaları inandırıcı görünmür. Çox güman 1 tona yaxın leş, xəstə atların əti kolbasa və sosiska hazırlayan sexlərə gedib çıxacaqdı.

**"Azad İstehlakçılar Birliyi"nin (AİB) sədri Eyyub Hüseynov mövzu ilə bağlı qəzetimizə açıqlamalarında dəfələrlə bildirib ki, əsas məsuliyyətə cəlb edilməli şəxslər həmin ətləri sifariş edənlərdir.**

**AİB sədrinin dediklərindən sitat:** "Ən azı müəyyən edə bilərlər ki, tələbkar kimdir. 6-7 ton at-eşşək, murdar, ölmüş heyvanın ətini satandan soruşa bilərlər ki, ay bala, bu qədər at-eşşəyin ətini hara, kimə aparırsan? Bunu niyə soruşmurlar? Soruşurlarsa, niyə tələbkarların cəzalandırılması haqda 1 dənə olsun belə məlumat yoxdur? Olsaydı, yəqin ki, bu gün Azərbaycanda "leş mafiyası" fəaliyyətini bu qədər şəbəkələşdirib genişləndirə bilməzdi. Atın-eşşəyin cəmdəyi azı 100 kiloqram olur. Bazarda ətin kiloqramı 10-12 manatdır. "Leş mafiyası" ətin kiloqramını 5 manatdan satır. Hər 100 kiloqram ət üçün 500 manat qazanc var. Belə ətin satışına görə cərimə dəfələrlə azdır. 50-100 manat cərimə ödəyib, yenidən qayıdırlar öz işlərinə. Tələbkarlar böyük biznes sahibləridir. Qanunlarda boşluq var. İstehlakçı hüquqlarının qorunmasına dair qanun zəifdir. Qanun deyir ki, istehlakçını 100 manata qədər aldatmaq olar. Yəni it ətini quzu əti adı altında alıcıya sat, bunun üçün məsuliyyət yoxdur. 101 manat oldusa, məsuliyyət var. 10 ton murdar əti 3-5 kiloqram olmaq şərti ilə sata bilərsən. Qanunla bu yaramaz əmələ görə satıcının məsuliyyəti yoxdur. Cərimə də elədir ki, onu asanlıqla ödəyə bilirlər".

Xatırladaq ki, bir müddət əvvəl 1999-cu ildən Gəncə şəhərində fəaliyyət göstərən "Elba 999" MMC-nin anbarında 6 ton murdar, ölmüş atların əti aşkar edilmişdi. Şirkətin bir neçə rayonda filialları, o cümlədən Daşkəsəndə kəsim fabriki var. "Elba 999" MMC-nin Gəncədə və Bakıda "Has Dönər Haus" dönər şəbəkələri var. Deyilənə görə, həmin dönər məntəqələrində əhaliyə murdar ətdən hazırlanmış yeməklər satılıb. Bu baxımdan, Balakəndə tutulan 1 ton murdar ətin hansı şirkətə aparılmasını da müəyyən etmək vacibdir.

❑ **E.MƏMMƏDƏLİYEV**

YENİ MÜSAVAT
N 111 (6725) 25 may 2017

# Dəhşətli qətllər cəmiyyətin psixologiyasını korlayır

## Qəddar görüntüləri izləyən uşaqların beyin reaksiyaları bir müddət sonra zəifləyir



**Elə gün olmur ki, dünya mediasında, eləcə də Azərbaycanda qəddar qətllərə dair xəbərlər, şəkillər, video yayılmasın. İraqda apardığı əməliyyatlarla bütün dünyanı dəhşətə gətirən "İraq Şam İslam Dövləti" (İŞİD) terror təşkilatı etdiyi vəhşiliklərlə məşhurdur. İnternetdə İŞİD-in başkəsmə görüntüləri də yerləşdirilib.**

Həmin görüntülərlə paralel 18+, 16+ tipli xəbərdarlıq nişanları qoyulsa da, bütün bunlar olduqca mənfi tendensiyadan xəbər verir. Gənclər, yeniyetmələr sözügedən mənzərələrə baxır, baxdıqca gördükləri onların gözündə adiləşir... Bunu zarafata salaraq imitasiya etmə cəhdləri ilə yanaşı, şüuraltındakı izləri də az deyil. Bundan başqa, mediada qəddar qətllərlə bağlı informasiyaların da sayı get-gedə artır. Az qala hər gün müxtəlif xarakterli, əzazil qətllər mediada geniş yer alır. Gənclər, yeniyetmələr bundan necə ziyan görə bilər? Necə zərbə alar, onun davranışlarına hansı formada təsir göstərər?

Amerikanın səhiyyə qurumları bu mövzu ilə bağlı maraqlı araşdırma aparıb. Araşdırmada yaşları 14-17 arasında dəyişən 22 oğlan uşağına içərisində şiddət görüntüləri olan videolar nümayiş etdirilərək, reaksiyaları araşdırılıb. Araşdırmaçılar müəyyənləşdiriblər ki, sürəkli bu görüntüləri izləyən uşaqların beyin reaksiyaları bir müddət sonra zəifləyib. Araşdırma heyətində yer alan həkim Cordon Grafman bildirib ki, şiddət görüntüləri bir müddət sonra yeniyetmələrdə aqressiyanın, hücumun məqbul olması barədə təəssürat yaradır.

Belə ki, tərkibində aqressiya, şiddət olan 60 klip gənclərə izlədilib. Görüntülərin böyük əksəriyyəti küçə davası və yumruqlaşma səhnələri olub. Şiddət səhnələri bir-birindən nisbətən ağır, yüngül olması ilə fərqlənib. Nəticə etibarilə məlum olub ki, yüngül dərəcəli zorakılıq səhnələri uşaqlarda heç bir reaksiya yaratmayıb. Onlar buna adi oyun kimi yanaşıblar. Reaksiyanın dərəcəsini ölçmək üçün uşaqların bu görüntüləri izləyərkən nə qədər tərləməsi də müşahidə edilib. Çünki tərləmə emosional reaksiyanın elementlərindən biri hesab edilir. Dr. Cordan Qrafman deyib ki, bu araşdırma daim şiddət səhnələrinə məruz qalan uşaqların müəyyən müddət sonra laqeydləşdiyini, şiddəti normal halda qarşıladığını ortaya çıxarıb. Bu da onun aqressiv davranışlar nümayiş etdirməsini asanlaşdırır. Çünki adi halda aqressiyanı tormozlayan emosional reaksiyalar belə şəxslərdə azalmış olur.

**Amma İngiltərədə uşaq və gənclərin media ilə münasibətlərini araşdıran professor Deyvid Bukinqam şiddətin bir cəmiyyət bəlası olduğunu və çoxlu sayda cəmiyyət faktorunu özündə birləşdirdiyini deyib. Sırf bədən fəaliyyətlərinə baxaraq şiddətin səbəblərinin ölçülə bilməyəcəyini deyən professorun sözlərinə görə, burada daha ciddi faktorlar var:** "Daim şiddət səhnələri izləyən insanlarda bir müddət sonra onun adiləşməsi ilə yanaşı, təkrarlama arzusu da baş qaldırır. O hesab edir ki, əgər bu əməlləri etmək bir dəb halını alıbsa və ya bunu edənlər təəccüb, qorxu, diqqət yarada bilirsə, bu yolla diqqət mərkəzində olmaq mümkündürsə, o zaman təkrarlamaq olar".

Xüsusən uşaq və yeniyetmələr sosial öyrənmə yolu ilə televiziyada izlədikləri dialoqları, sözləri, jest və davranışları təqlid edir və öyrənirlər. Onlar zaman keçdikdən sonra şiddət və aqressiyanı da bir problem həll etmə üsulu, bir var olma şəkli və özünü ifadə etmə forması olaraq mənimsəyirlər. Şiddətə, ölümə, hücuma, ağrıya və sairə qarşı laqeydləşmə, reaksiyasızlaşma bütün bunlara qarşı immunitet yaradır. Bu anlayışlar, görüntülər və davranışlar getdikcə normallaşmağa və qəbul edilməyə başlayır. İnsanlar qurbanın yaşadıqlarını, onun ağrılarını daha az qavramağa başlayırlar. Əsəbilik, kin, nifrət, hiddət, intiqam kimi hissləri həm daha tez-tez, həm də daha çox hiss edir, yaşayırlar. Dünyayı və həyatı tanımağa, anlamağa və öyrənməyə çalışdıqları bir inkişaf dönəmində "yaxşılar-pislər", "qəhrəmanlar-antiqəhrəmanlar" bölgüsü olduqca çarpıq şəkildə beyinlərdə yer alır.

Çap və elektron mediada şiddət 4 cəhətinə görə diqqət çəkir:

**1.Şiddətin sıxlığı və müddəti;**

**2.Şiddətin detalları, canlılığı;**

**3. Şiddətin təqdim edilmə forması, hekayə forması;**

**4. Şiddətin nəticə və təsirlərinin göstərilib-göstərilməməsi.**

Televiziyadakı proqramların 61 faizi şiddət xarakterlidir. Onun 54 faizi özündə ölümü əhatə edir. İnsanların televiziyanı, internet mediasını izləmə faizi artdıqca kabuslarının, qorxu və qayğılarının, gərginliyinin artdığı da təsdiqlənib. Eyni zamanda televiziya izləmə müddəti ilə depressiya, post-travmatik stress pozuqluğu, yuxu və yemək qrafikindəki pozğunluq da paralel artır.

❑ **Sevinc TELMANQIZI**

**İzrail ənənəsi əsasında özəl tibbi sahədə 20 illik təcrübə!**
**XƏSTƏLİKDƏN ƏZAB ÇƏKƏN İNSANLARA ƏSASƏN KİŞİLƏRƏ!**
**DİQQƏT!!! AXIRINCI ŞANS!!!**

Azərbaycanda və yaxud xaricdə diaqnozun təsdiqi və tam müalicəsi mümkün olmayıbsa, **doktor VAİZ SƏMƏDOV** şəxsi tibbi metodikası ilə Sizin uğurlu və daha qarantili olaraq aşağıdakı xəstəliklərinizi keyfiyyətli müayinə və müalicə edə bilər.

✳ **Diaqnozu bilinməyən ağır hallar;**
✳ **Xərçəngə şübhəli olan prostat düyünlü adenoması. Prostatitlər; Qipertrofiya və ya Atrofiya**
✳ **Cinsi zəiflikdən tam impotensiyadək, marağın və aktların azalması;**
✳ **Vaxtından tez toxum ifrazatı (səbəbdən asılı olmayaraq)**
✳ **Toy gecəsinin uğursuzluqları (kişi tibbi problemlər)**
✳ **Sidikdə və ya spermada qan;**
✳ **Spermanın azalması və itməsi;**
✳ **Kişi cinsi orqanının birdən əyilməsi və balacalması;**
✳ **Oğlan uşaqlarında cinsi orqanların (penisin və xayaların) inkişafdan qalması;**
✳ **Hormonal və infeksion səbəbli sonsuzluq (kişi və qadınlarda);**
✳ **Tala-tala və hərtərəfli saçların tökülməsi;**
✳ **Gecə-gündüz uşaq və böyüklərdə sidik aktların pozulmaları; Enurez**
✳ **50 yaşdan sonra oynaqlarda və onurğada baş verən qeyri travmatik ağrılar və hərəkət çətinlikləri;**
✳ **Seksual inamsızlıq, gərginlik və qorxu nevrozları.Yuxu pozğunluqları**
✳ **Zöhrəvi xəstəliklərdən sonra qalıqlar və ağırlaşmalar.**

---

**D-r V.Səmədovun əsas tibbi prinsipi - keyfiyyətli və təkrarsız müalicə aparmaq üçün xəstəliyin əsl və bütün səbəblərini aşkar etmək zəruridir.**

---

*Qəbula yazılmaq və ünvanı öyrənmək üçün saat 11-dən 23-ə dək,* ***(050) 213-88-05*** *nömrəsinə,* ***d-r Vaiz Səmədova*** *zəng etmək olar.*
Qəbul növbə ilə hər gün saat 12-dən sonra başlayır.



# Bilgəh sakini tanışını güllələdi

## Qəsəbədə mübahisə qanla bitdi

**Paytaxtda silahlı insident olub. APA-nın məlumatına görə, hadisə ötən gecə Sabunçu rayonu, Bilgəh qəsəbəsində qeydə alınıb. Qəsəbə sakini Ramid Əzizağa oğlu Rəhimov aralarında yaranmış mübahisə zəminində tanışı Tərlan Ağarəsul oğlu Dadaşovu öldürmək məqsədilə güllələyib. Nəticədə ağır yaralanan T. Dadaşov xəstəxanaya yerləşdirilib.**

Həyata keçirilən tədbirlər nəticəsində R. Rəhimov tutulub. Ondan hadisədə istifadə etdiyi kustar üsulla hazırlanmış silah götürülüb.

Faktla bağlı Sabunçu Rayon Prokurorluğu tərəfindən 29, 120.1-ci (qəsdən adam öldürməyə cəhd) maddəsi ilə cinayət işi başlanıb, istintaq hərəkətləri davam etdirilir.

# 4 nəfərlik ailənin bir günlük imsak və iftar süfrəsi neçəyə başa gələcək?

## İqtisadçı ekspert: "Təəssüf ki, Azərbaycan reallığı Ramazan ayını ürək açıqlığı ilə keçirməyə mane olur"

**11 ayın sultanı olan müqəddəs Ramazan ayının başlamasına sayılı günlər qalır. Bu ay boyunca inanclı insanlar oruc tutur. Əlbəttə ki, oruc tutmaq üçün imsak, yəni o başdana durmaq və yaxşı qidalanmaq gərəkdir ki, gün boyu özünü zəif hiss etməyəsən. Həmçinin iftar süfrəsində də kalorili yeməklər olmalıdır.**

Əslində insanlar iftarda ən azı, iki yemək yeməlidir. Ancaq təəssüf ki, hər ailə istədiyi kimi imsak və iftar süfrəsi qura bilmir. Səbəb isə təbii ki, bahalıqdır. Biz də bir neçə marketə baş çəkib 4 nəfərlik bir ailənin imsak və iftar süfrəsinin neçəyə başa gələcəyini hesabladıq.

Marketlərə nəzər saldıqda çeşid bolluğunun kifayət qədər zəngin olduğunu görərsiniz. Ancaq əsas məsələ bu çeşid bolluğundan faydalana bilmək üçün cibinizdə pulun olmasıdır. Təəssüf ki, hər il olduğu kimi, bu il də bayram öncəsi bəzi məhsulların qiymətində ciddi qalxma vardı. Əvvəlcə ümumi məhsulların qiymətinə nəzər salaq: ət 8-10 manat arasında, toyuqların qiyməti 4 manat 10 qəpik və 5 manat arasında, "Sultan düyüsü" 3 manat 35 qəpik, makaron 50-87 qəpik arası, tomat pastası 1 manat 20 qəpik, 1 kiloluq Supersun yağı 4 manat 93 qəpiyə, Ana bala yağı 3 manat 14 qəpik, qarğıdalı yağları isə 4 manat 63 qəpik və 7 manat 34 qəpik arasında, kərə yağı 3 manat 80 qəpik 7 manat arası, pendir 3-6 manat arası, yumurta 8 qəpik, kənd yumurtası 20 qəpik, qarabaşaq 1 manat 47 qəpiyə, pomidor 1 manat 50 qəpik və 1 manat 60 qəpik arası, xiyar 40-80 qəpik arası, lobya 2 manat 25 qəpik, badımcan 3 manat, bibər 3 manat 19 qəpiyə satılırdı. Quru meyvələr, çərəzlər, həmçinin meyvələrin də qiymətində artım vardı.










İftar süfrələrinin bəzəyi olan xurmaya gəldikdə isə Mədinə xurması 16 manat 90 qəpik, tumsuz xurma 6 manat 90 qəpik, Tunis xurması 15 manat 72 qəpik, İran xurması 7 manat 50 qəpik, şokoladlı xurma 10 manat, sarı xurma 6 manat 90 qəpik, İsrail xurmaları isə 30 manata satılırdı. Ümumiyyətlə, iftar menyusuna daxil olan əsas ərzaq məhsullarının, demək olar ki, hamısında müəyyən qədər bahalaşma müşahidə etdik.

İndi isə keçək 4 nəfərlik bir ailənin bir günlük ortabab imsak və iftar süfrəsinin hesablamasına. İmsakda yağ, pendir, yumurta, qaymaq, şəkər tozu yer alan bir süfrə olduğunu, iftarda isə bir növ sulu, məsələn, toyuq supu, tərəvəz ("3 bacı") dolması və tərəvəz salatı, həmçinin çayla içmək üçün xurma, şirniyyat olduğunu nəzərə alsaq, orta hesab bu süfrə təxminən 20-25 manata başa gələcək. Əgər iftar menyusuna bir cür də yeməyi əlavə etsək, o zaman bu sizə 30 manata və bəlkə də bir qədər çox məbləğə başa gələcək.

**İqtisadçı ekspert Natiq Cəfərli bildirdi ki, hər bayram öncəsi ərzaq məhsullarının qiyməti artırılır və bu çox pis tendensiya halını alıb:** "Türkiyədə rəqabətli iqtisadi mühit olduğu üçün insanlar müəyyən endirim kampaniyaları həyata keçirib, həm savab qazanmağa çalışırlar, həm də rəqabət olduğu üçün dövriyyənin artdığını nəzərə alaraq dövriyyədən qazanırlar. Yəni məhsulu daha ucuz satıb daha çox gəlir əldə etməyə çalışırlar. Azərbaycanda belə bir mühit təəssüf ki, yoxdur. Çünki ölkəyə gətirilən və topdansatış ticarətinə nəzarət edən çox azsaylı şirkətlər var - baxmayaraq ki, pərakəndə satış nöqtələri çoxdur. Amma onlar özləri mal gətirmir, özləri istehsal etmirlər. Ona görə də topdansatış şirkətlərinin, istehsalçı şirkətlərin sayının az olması rəqabətli mühit yaratmağa imkan vermir. O üzdən Ramazanda müəyyən məhsulların tələbatı artacaq. Tələbat artdıqca da qiymət artacaq. Bu da əslində çox pis bir tendensiyadır".

**N. Cəfərli bildirdi ki, 4 nəfərlik bir ailənin imsak və iftar süfrəsinin qiymətini hesabladıqda bunun onların büdcəsinə heç də uyğun gəlmədiyini və tərs mütənasiblik təşkil etdiyini görərik:** "O ki qaldı 4 nəfərlik ailənin imsak və iftar süfrəsinə, Ramazan günlərində o başdan durub səhər yeməyi də yemək lazımdır ki, gün ərzində gümrah qala bilmək, iş qabiliyyətini toplamaq üçün səhər yeməyinə ehtiyac yaranır. Bu da təbii ki, 4 nəfərlik ailənin alıcılıq qabiliyyəti və rasionundan asılı olacaq. Amma ən azından lazımi miqdarda olan kaloriləri hesablamış olsaq, həm də 4 nəfərlik bir ailənin imsak və iftarını hesablasaq, günə 25-30 manatlıq bir büdcə yaranacaq ki, bu da ay ərzində min manata yaxın bir məbləğ edir ki, ölkədə minimum əmək haqqının, təqaüdlərin və maaşların çox aşağı olduğunu nəzərə alsaq, təbii ki, bu çox böyük bir məbləğdir. Bu, insanların Ramazan ayını ürək açıqlığı ilə, səmimi şəkildə qeyd etmələrinə mane olan amillərdən birinə çevrilib. Amma buna baxmayaraq, düşünürəm ki, inanclı insanlar ən azından inancın verdiyi güclə Ramazan bayramını kasıb da olsa, aşağı kalorili də olsa o süfrə ilə yola verə biləcəklər. Amma qonşu ölkələrdə olduğu kimi, Azərbaycanda da müxtəlif endirim kampaniyaları, Ramazana özəl müxtəlif süfrə kampaniyaları olsaydı, çox yaxşı olardı ki, insanların həm seçim imkanları yaranardı, həm də daha az vəsait xərcləyərək Ramazan bayramını ürək açıqlığı ilə qeyd edərdilər".

❑ **Günel MANAFLI**
**Fotolar müəllifindir**

# Kim evdən çıxanda cibinə pul qoymur?

## Elektron ödəmələr Azərbaycanda da artıq kifayət qədər populyardır və istifadəçilərinin sayı böyük sürətlə artır

**Dünyanın bir çox ölkələrində olduğu kimi, artıq ölkəmizdə də nağd pul dövriyyədən yavaş-yavaş çıxmağa, yerini kartla ödəmə sisteminə verməyə başlayıb. Hələ ötən il dekabrın 23-də nağd pul hesablaşmalarının nağdsız hesablaşmalarla əvəz edilməsi üçün "Nağdsız hesablaşmalar haqqında" Qanun qəbul edildi. Buna əsasən, qanunun nağdsız hesablaşmaların həyata keçirilməsi ilə bağlı müddəası ƏDV ödəyicilərinə münasibətdə 2017-ci il yanvarın 1-dən, digər vergi ödəyicilərinə münasibətdə isə 2017-ci il aprelin 1-dən qüvvəyə minir.**



Ümumiyyətlə, bəzi xarici ekspertlər indidən proqnoz verərək bildirirlər ki, azı 10 ildən sonra nağd pul insanların gündəlik həyatından tamamilə silinəcək, yeni gələn nəsil kağız pul görməyəcək, bu pulun necə olduğunu bilməyəcək. Çünki məlum olduğu kimi, elektron ödəmələr artıq kifayət qədər populyardır və istifadəçilərinin sayı böyük surətlə artır, nağd pul isə sıradan çıxmağa, ikinci plana keçməyə başlayıb.

Bir çox Avropa ölkələrində, o cümlədən İsveçdə nağd pulla hansısa xidmət əldə etmək qeyri-mümkündür. Bu ölkədə nağd pul ümumi maliyyə dövriyyəsinin cəmi 3 faizini təşkil edir. Yeni nadir hallarda kimsə evdən çıxanda cibinə nağd pul qoyur. Bir məqamı qeyd edək ki, həm İsveçdə, həm də bir sıra inkişaf etmiş ölkələrdə belə bir praktika da var ki, əgər vətəndaş nağd ödənişlərdə 15 faiz ƏDV ödəyirsə, nağdsız ödənişlərdə isə 10 faiz ödəyir. Bu da təbii ki, insanlarda elektron kartlara olan marağı daha da artırır. İsveçdə yaşayan bəzi soydaşlarımızın dediklərinə görə, isveçlilər ölkəmizdə hələ də maaşların nağd pulla verilməsini təəccüblə qarşılayırlar. Çünki Azərbaycanda hələ də bir çox sahələrdə maaşlar nağd pulla ödənilir. Doğrudur, ekspertlər ölkəmizdə elektron pul istifadəçilərinin sayının artdığını desələr də, göstərilən say göstəricisi yüksək deyil. Xüsusən də yaşlı nəsil daha çox nağd pula ödəniş edilməsinin tərəfdarıdır. Çünki əksəriyyəti kartdan istifadə edən zaman çıxılan faizdən narazıdır. Lakin bəziləri də elektron kartların əlverişli və sadə, alış-veriş üçün daha rahat olduğunu qeyd edirlər.

Bir qədər elektron kartlar haqqında. Qeyd edək ki, elektron pul elektron daşıyıcılarda saxlanılan məbləğdir. Elektron pulun əsas üstünlüyü ondadır ki, artıq cibdə külli miqdarda nağd pul saxlamağa ehtiyac qalmır. Beləliklə, ciblərdən edilən oğurluqların da sayı azalır. Kart isə itərkən, yaxud oğurlanarkən, sadəcə, banka məlumat vermək lazım gəlir. Bu zaman qısa bir zamanda bloklaşdırma aparılır və oğurlanan kartdan heç kim istifadə edə bilmir. Həmçinin elektron kartı evdə unudulanda online ödəmələrdə onun nömrəsi və kodundan istifadə etmək bəs edir. Bununla bərabər, elektron karta sahib olanlar xaricdə səyahətdə olarkən gözlənilməyən xərclər yarananda rahat şəkildə nağd pul çıxarmaq imkanına malik olur.

Nağd pulu həm gigiyenik baxımdan çox təhlükəli hesab edənlər də var, çünki gün ərzində bir pul onlarla adamın əlindən gəlib keçir. İqtisadçılar da qeyd edirlər ki, ölkədə elektron pullardan istifadənin çoxalması üçün müəyyən addımlar atılmalıdır. Məsələn, xarici ölkələrdəki praktikada olduğu kimi, nağdsız ödənişlərdə vergi faizi nağd ödənişlərdə olduğundan daha aşağı olmalıdır. Bu zaman insanların da elektron kartlara marağı artar. Və yaxud nağdsız ödənişlər üçün müəyyən bonuslar nəzərdə tutulmalıdır və sairə.

Maraqlıdır, bəs Azərbaycanda kimlər evdən çıxanda cibinə pul qoymur?

**Mövzu ilə bağlı bir sıra tanınmışlar arasında sorğu keçirdik. Politoloq Elxan Şahinoğlu qeyd etdi ki, gündəlik xərclərdə daha çox elektron karta üstünlük verir:** "Bu mənim üçün daha rahatdır. Məsələn, kommunal xərcləri internet üzərindən kartla ödəyirəm, harasa getmək və vaxt itirmək lazım deyil. Digər tərəfdən, xidmətin müxtəlif sahələrində postterminalların sayı artıb ki, bu da nağdsız ödəmələrə imkan verir".

Hüquqşünas Ruslan Əhmədoğlu isə qeyd etdi ki, ümumilikdə nağd hesablaşmaya üstünlük verir: "Elektron kartla bağlı xüsusi proqram var ki, onu mobil telefonuma yükləmişəm. Orada telefon və evin kommunal ödənişləri, həmçinin müəyyən xərclər də var ki, ordan ödəyirəm. Amma ümumilikdə nağd hesablaşmaya üstünlük verirəm".

**Jurnalist Rəfiqə Məmmədova da gündəlik olaraq nağd ödənişlərdən istifadə etdiyini bildirdi:** "Ümumiyyətlə, nağd pul bədxərcliyə yol açır. Ən əsası isə cibdə çox pul gəzdirmək olmur. Bütün bunlara görə qərara gəlmişəm ki, tezliklə plastik kart sisteminə keçim".

**Gənc ifaçı Gülşən İbadova da hələlik nağd ödənişlərdən istifadə etdiyini bildirdi:**

"Elektron kartlar bir çox məsələlərdə sərfəli və rahatdır. Xüsusən də xarici ölkələrdə olarkən elektron kartlar insanlara yardımçı olur. Hələlik nağd ödənişlərdən istifadə edirəm. Amma tezliklə elektron kartlardan istifadə etməyi düşünürəm".

❑ **Xalidə GƏRAY**

YENİ MÜSAVAT

Son səhifə

N 111 (6725) 25 may 2017

# Kök qadın qəsdən lüt şəkillər çəkdirir

Avstraliyanın Bandaberq şəhərində bir qadın öz facebook səhifəsində lüt şəklini yaymaqla populyarlıq qazanıb. 31 yaşlı Kristal Qordon fotosessiyada iştirak etməklə öz bədəni ilə öyünmək istəyib. Birinci uşağının dünyaya gəlişindən sonra qadın xeyli kökəlib. Dietaya başlayan qadın böyük nəticələr əldə etdiyi üçün öz bikinili fotolarını yaymağa başlayıb.



Amma bir çox sosial şəbəkə istifadəçiləri Qordinun bu nəticələrinə neqativ reaksiya veriblər. Britaniyalı qadının sözlərinə görə, o, çoxlu sayda neqativ reaksiyalar alıb və həmin reaksiyaların sahiblərinin profillərini şikayət edib, əngəllənməsinə çalışıb. Bununla belə, qadın birinci nəticə ilə kifayətlənməyərək, ikinci dəfə də lüt soyunaraq şəkil çəkdirib. Kristal bu hərəkəti ilə kök qadınlara ruh vermək və onlara öz bədənlərini sevməyi öyrətmək istəyir.



## Evinin qarajından 2.4 metrlik piton çıxdı

Amerikanın Florida ştatındakı Pembrok Payns şəhərində Cosef Liskinski adlı şəxs evinin qarajında uzunluğu 2.4 metr olan ilan tutub. Bu barədə "Sun Sentinel" nəşri xəbər verir. Amerikan kişi itini gəzintiyə çıxaranda ilanı fərq edib: "Ürək tutması olmadan yola verdim, amma qanımda adrenalinin miqdarı artdı, ürəyim daha sürətlə döyünməyə başladı".

Kişi itini evə aparıb, daha sonra yenidən qaraja qayıdıb. O, heyvanlar üçün televerilişdəki tryuku xatırlayıb və gizlənmiş ilanı döşəməsilənin taxtası ilə çıxarmağı bacarıb. İlan onun barmağını dişləyib. Amma Liskinski bununla bağlı həkimə müraciət etməyib: "Əsas odur ki, mənim itim ilanın əlinə düşmədi. Yoxsa yüz faiz onu boğub öldürərdi. Bəxtim onda gətirdi ki, qabağına mən çıxdım".

Təbiəti mühafizə xidməti əməkdaşları hadisə yerinə bir saat sonra gələrək, tutulmuş ilanı aparıblar. Məlum olub ki, ilanı öldürəcəklər. Pitonlar Floridaya təsadüfən Cənubi-Şəri Asiyadan 30 il əvvəl düşüblər. Ştat rəhbərliyi dəfələrlə pitonlarla bağlı ov müsabiqəsi elan ediblər. Məqsəd ştatdan bu ilanların kökünü kəsmək olub.

## Dünyanın ən uzun şərfini toxudular

Hindistanın "Mother of India Crochet Queens" adlı həvəskar şərf toxuyanlar təşkilatı uzunluğu 4,09 kilometr olan şərf toxuyaraq, onun Ginnesin Rekordlar kitabına düşməsinə nail olublar. 700-dən artıq qadın bu nəhəng şərfin üstündə fevral ayından bəri çalışırlar. Bu prosesdə Hindistandan olan toxucularla yanaşı, Dubaydan, Honq-Konqdan, Sinqapurdan və Polşadan olanlar da çalışıblar.

Ginnesin Rekordlar kitabının təmsilçisi Rişi Nata deyib ki, bu, uzun şərflə bağlı ilk belə rekorddur. Hətta məlum olub ki, bunun rekord kimi təsdiqlənməsi üçün uzunluğu 1 kilometr olan şərf toxumaq da kifayət imiş. Bu rekordun rəsmi məqsədi dünya uğrunda mübarizə olub. Klub üzvləri öz hazırladıqları məhsulları Rusiya, ABŞ, Böyük Britaniya, Fransa, Almaniya, Yaponiya və Çin dövlətlərinin rəhbərlərinə, eləcə də BMT rəhbərlərinə göndərməyi planlaşdırırlar.

2016-cı ildə isə "Mother of India Crochet Queens" təşkilatı üzvləri dünyanın ən böyük odeyalını hazırlamışdılar. Həmin odeyalın sahəsi 1022 kvadrat metr idi və dünyanın ən böyük odeyalı kimi tanınmışdı.



## Şou göstərmək istədi, dağdan aşdı

42 yaşındakı Riçard Henriksen ötən günlər ərzində həyata keçirdiyi bir gimnastika şousu zamanı az qala həyatını itirmişdi. Norveçin NRT televiziyasında yayımlanan 'Normal Dəlilik' adlı proqram üçün özəl bir şou hazırlamaq istəyən Henriksen ağla gələ biləcək ən təhlükəli məkanlardan birini seçib: Norveçin şərqindəki Strandkolvet dağı. Dağın kənarına özəl bir gimnastika platforması yerləşdirən Riçard Henriksen bir müddət sonra platformanın üstünə çıxıb şouya başlayıb. İlk dəqiqələrdə hər şey qaydasındaymış kimi görünsə də, az keçmədən dağın kənarına sabitlənən dəmir platforma aşıb və Henriksen 1200 metr yüksəklikdən aşağı uçub. Henriksenin düşüşü və televiziya heyətinin yaşadığı panika kameralarda öz əksini tapıb. Möcüzəvi şəkildə qayalıqlara dəyməyən Henriksen yerə dəyməsinə çox az qalmış belindəki paraşütü açaraq sağ qalmağı bacarıb. 5 uşaq atası olan Riçard deyib ki, ölümlə həyat arasında qaldığı dəqiqələrdə ən çox uşaqlarını atasız qoyacağına görə peşman olub.

## Qoroskop (25 may)




**QOÇ** - İxtiyarınızda olan bu şıltaq təqvim sizin üçün uğurlu olmalıdır. Odur ki, vaxtınızı boşa verməyin. Müxtəlif ünvanlara baş çəkməklə maddi və mənəvi rahatlıq qazana bilərsiniz.

**BUĞA** - Fəaliyyət zəminində uğurlarınız xeyli artacaq. Bu istiqamətdə sizə etibar etdiyiniz bəzi insanlar da kömək edə bilər. Amma nəzərə almalısınız ki, mənfi enerjili Ay axşam saatlarına qədər bürcünüzdədir.

**ƏKİZLƏR** - Həqiqətə yaxın olan arzulara yaşayın. Paxıl və bədxah adamlara fikir verməyin. Gələn ay üçün görəcəyiniz işləri indidən planlaşdırın. Uzaq səfərə çıxmağı isə təxirə salın.

**XƏRÇƏNG** - Daxili gərginliyiniz xeyli səngiyəcək. Bu isə başınıza yeni ideya və perspektivli fikirlərin gəlməsinə səbəb olacaq. Həlli mürəkkəb olan işlərə girişməyin. Sizə passivlik yaraşmır.

**ŞİR** - Hər bir məsələdə qanunauyğun addım atın. Saxta iş görmək, yalan vəd vermək, məsuliyyətsizlik sizi gözdən sala bilər. Elə edin ki, etibarlı müttəfiq imiciniz öz qüvvəsində qala bilsin.

**QIZ** - Daxili duyğularınızı tənzimləmək üçün fiziki işlərdən uzaq olun. Bu gün ulduzlar məclislərdə iştirakınızdan da xəbər verir. Dəvətləri qəbul etməyə çalışın. Səhhətinizə fikir verin.

**TƏRƏZİ** - Sürprizlərlə dolu bir təqvim yaşayacaqsınız. Kiçicik gərginlikləri nəzərə almasaq, ətrafınızda cərəyan edən hər bir hadisə ürəyinizcə olacaq. Maraqlı görüşləriniz gözlənilir.

**ƏQRƏB** - Axşam saat 15-ə qədər nəzərdə tutduğunuz planları reallaşdırmaqda heç bir problemlə rastlaşmayacaqsınız. Sonrakı müddətdə isə ehtiyatlı olun. Axşam saatlarını evdə keçirməlisiniz.

**OXATAN** - Ümumi durumunuz qənaətbəxş olsa da, mənəvi problemlərə dözümsüzlüyünüz işləri korlaya bilər. İndi sizə enerji itirmək yox, güc toplamaq lazımdır. Axşam bir neçə sürprizə hazır olun.

**OĞLAQ** - İştirakçısı olduğunuz prosesləri gərginləşdirməyin. Qanqaraldan işlərə meyl etməsəniz, hörmətiniz artacaq. Günün ikinci yarısını bütünlüklə maliyyə məsələlərinə həsr edin.

**SUTÖKƏN** - Taleyüklü məsələlərin həlli üçün perspektivli təqvimdir. Mövcud problemlərinizi aradan qaldırmaq üçün əhəmiyyət kəsb edən adamlarla görüşün. Məsuliyyətsizlik etməyin.

**BALIQLAR** - Müəmmalı bir tarixdir. Özünüzlə bağlı situasiyaları nəzarətdə saxlaya bilməyəcəksiniz. Yaxşı olar ki, etibar etdiyiniz adamların rəyi ilə hesablaşasınız. Sizə kömək göstərəcəklər.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## 10 dəqiqədə 15 qutu pitsa yedi



Minskdə pitsa yemək üzrə çempionat keçirilib. Tədbirdə 10 nəfər iştirak edib. İştirakçılar yarışmadan öncə bu qədər pitsanın sağlamlıqlarına risk yaradacağından xəbərdar olmaları ilə bağlı sənədə imza atıblar. Yarışmaçılar gözləri qapalı şəkildə daha çox pitsa yeməklə yanaşı, suallara da cavab verməli idilər. Həmin suallar iştirakçıların yediyi pitsa növü, onun tərkibindəki təamlarla bağlı idi. "Ən yaxşı pitsa yeyən" ünvanına layiq görülən şəxs Dmitriy Yuşkeviç olub. Bu şəxs 10 dəqiqə ərzində 15 pitsa yeyə bilib. Amma "Pitsa professoru" nominasiyasının qalibi Nadejda Sneqir olub. O yediyi pitsaların növünü, tərkibindəki elementləri dəqiqliklə dediyinə görə bu ünvana sahib olub.

Səhifəni hazırladı: SELCAN

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Elşad MƏMMƏDLİ

Lisenziya N: B 114
SAYI: 5.100

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.